**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN TAPMACALARININ LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5706.01 – Azərbaycan dili

Elm sahəsi: filologiya – dilçilik

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**


İddiaçı: _________ **Arif Sədrəddin oğlu Kazımov**

Elmi rəhbər: **filologiya elmlər doktoru, professor**
_________ **Buludxan Əziz oğlu Xəlilov**


**Bakı – 2021**

## Mündəricat


**Giriş** 4

**I FƏSİL AZƏRBAYCAN TAPMACALARININ FONETİK XÜSUSİYYƏTLƏRİ (FONETİK HADİSƏLƏR MÜSTƏVİSİNDƏ)** 8

1.1. Azərbaycan tapmacalarının dilində sait səslərin əvəzlənməsində müşahidə olunan fonetik hadisələr 8

1.1.1 Azərbaycan tapmacaların dilində açıq saitlərin qapalı saitlərlə fonematik əvəzlənməsi (səs uyğunluqları) 10

1.1.2. Tapmacaların dilində qapalı saitlərin açıq saitlərlə fonematik əvəzlənməsi (səs uyğunluqları) 15

1.1.3. Tapmacaların dilində qalın saitlərin incə saitlərlə fonematik əvəzlənməsi (incələşmə hadisəsi). 15

1.1.4. Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə fonematik əvəzlənməsi (labiallaşma hadisəsi) 17

1.1.5 Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə fonematik əvəzlənməsi(delabiallaşma hadisəsi ) 21

1.2.Azərbaycan tapmacalarının dilində samit səslərin əvəzlənməsində müşahidə olunan fonetik hadisələr 24

1.2.1.Cingiltili samitlərin kar samitlərlə uyğunluğu 24

1.2.2. Cingiltili samitlərin cingiltili samitlərlə uyğunluğu 28

1.2.3.Novlaşma və kipləşmə hadisəsi 33

1.3.Azərbaycan tapmacalarının dilində fonetik hadisə və qanunlar. Uyuşma (assimilyasiya) hadisəsi 41

1.4. Səsartımı (proteza) hadisəsi 46

1.5. Səsdüşümü (eliziya) hadisəsi 52

1.6.Səs fərqlənməsi (dissimilyasiya) hadisəsi 52

1.7.Səslərin yerdəyişimi (metateza) hadisəsi 55

**II FƏSİL. AZƏRBAYCAN TAPMACALARININ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ** 58
2.1.Azərbaycan xalq tapmacalarının dilində işlənmiş alınma sözlər 58
2.1.2. Tapmacaların dilində işlənmiş köhnəlmiş (arxaik) sözlər 102
2.1.3. Tapmacaların dilində işlənmiş dialekt sözlər 107
2.1.4. Tapmacaların dilində işlənmiş təqlidi sözlər 120
2.1.5. Tapmacaların dilində işlənmiş "gizli" (eyhamlı) nitqin təzahürü 126
**III FƏSİL. Azərbaycan tapmacalarının üslubi xüsusiyyətləri** 130
3.1. Azərbaycan tapmacalarının fonetik səviyyədə obrazlığının təzahürü 130
3.1.1. Assonans 130
3.1.2. Alliterasiya 132
3.1.3.Leksik-morfoloji təkrarlar 143
3.1.4.Anastrofa 143
3.1.5.Anafora və epifora 144
3.2.Azərbaycan tapmacalarının leksik səviyyədə obrazlığının təzahür 145
3.2.1.Frazeoloji vahidlər 145
3.2.2. Epitet 146
3.2.3.Təşbeh 148
3.2.4.Metafora 148
3.2.5.Metonimiya 152
3.2.6.Mübaliğə və litota 152
3.2.7.Antiteza 153
3.2.8.Cinas sözlər 156
3.3. Tapmacalarda obrazlığın qrammatik səviyyədə təzahürü 159
3.3.1 İnversiya 166
3.3.2 Ellipsis 167
**Nəticə** 169
**İstifadə edilmiş ədəbiyyat** 172
**İxtisarlar** 174

# Giriş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi** – Azərbaycan xalq tapmacalarının əhatə dairəsi, linqvistik tutumu, obrazlı şəkildə ifadə etsək, əzəmətli bir muzeyi xatırladır. Amma bu muzeyin eksponatları xüsusi mühafizə altında qorunan əşyalar deyil, xalqımızın canlı danışıq dili, ümumişlək leksikası, köhnəlmiş söz və ifadələr, müxtəlif dillərə məxsus alınma sözlər, dialekt səciyyəli məhəlli sözlərdən və s. ibarətdir. Məhz bu baxımdan tapmacalar xalqımızın dil tarixini, onun inkişaf qanunauyğunluqlarını öyrənmək baxımından qiymətli və ədəbi mənbə rolunu oynayır.

Dünya dilçiliyində, o cümlədən türkologiyada A.Alimov[78,s .30], N.Lavonen[99,s.250],K.Meredov[102,s.15],F.Nadrşina[107,s.42],V.Mitrofanova[104 ,s.15] və başqalarının əsərlərində tapmacaların elmi-filoloji araşdırılması üzrə xeyli tədqiqat işləri olsa da, onların çoxu ədəbiyyatşünaslıqla bağlıdır. Yalnız qazax alimi J. Adambayevanın bu mövzuda apardığı tədqiqat işində az-çox tapmacaların linqvistik xüsusiyyətlərinə toxunulmuşdur[77, s.25].

Dilçiliyimizdə Azərbaycan tapmacalarının leksik və sintaktik xüsusiyyətləri haqqında G. Axundova[8, s.191] monoqrafiya, Azərbaycan və ingilis dillərində tapmacaların linqvistik təhlili mövzusunda E. Əliyeva[22,s.144] isə fəlsəfə doktorluğu dissertasiyasını yazmışdır.Bu əsərlərdə Azərbaycan tapmacalarının linqvistik çalarları araşdırılmış, lakin fonetik və üslubi xüsusiyyətləri kənarda qalmışdır.

Məlumdur ki, fonetik və üslubi araşdırmalar dilin fonetik, leksik və qrammatik laylarında təzahür edən spesifik nitq hadisələrini üzə çıxarmağa,həmçinin bu əsasda dilin bütün sferalarında ifadə imkanlarının hüdudlarını müəyyənləşdirməyə xidmət edir. Bu baxımdan Azərbaycan tapmacalarının linqvistik xüsusiyyətlərinin sistemli şəkildə öyrənilməsinə böyük ehtiyac vardır.

Dilin və xalqın tarixinin elə mərhələləri də vardır ki, bunlar müxtəlif səbəblər üzündən yazılı mənbələrdə əks oluna bilməmişdir. Ancaq belə səhifələr tarixin qaranlığında izsiz, əlamətsiz yox olub getmir, onların müəyyən hissəsi xalq

təfəkküründə, folklor nümunələrində, o cümlədən tapmacalarımızın dilində yaşamaqdadır.

**Tədqiqatın obyekti.** Azərbaycan xalq tapmacalarıdır. Tapmacaların fonetik, leksik-semantik sistemi, müxtəlif üslubi məqamlarda ifadə vasitələri və imkanlarının linqvistik təhlilidir.

**Tədqiqatın predmeti**. Azərbaycan tapmacalarının linqvistik xüsusiyyətləri, tapmaca nümunələrinin dili, xüsusilə danışıq dili əsasında formalaşan folklor dili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Əsas məqsəd müxtəlif zaman kəsiyində Azərbaycan xalq tapmacalarının dilində baş vermiş dəyişiklikləri, həm də tapmacalarımızın inkişaf dinamikasını təyin etməkdən ibarətdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

– tapmacaların ümumi linqvistik tipologiyasını təqdim etmək;

– tapmacaların fonetik, leksik-semantik, üslubi planda təsvirini təqdim etmək;

– tapmacaların linqvistik və konseptual spesifikasını nəzərə almaqla tədqiq edilən dilin materiallarını sistemləşdirmək.

Müxtəlif dövrlərdə toplanaraq tərtib olunmuş və sonradan yazıya alınmış Azərbaycan xalq tapmacalarının dilində mövcud olan fonetik, leksik və qrammatik vahidlərin linqvistik xüsusiyyətlərini, imkanlarını araşdıraraq müasir ədəbi dillə oxşar və fərqli cəhətləri üzə çıxarmaq, o cümlədən digər türk dilləri ilə müqayisəli paralelliyi müəyyən etmək tədqiqatın əsas məqsəd və vəzifəsini təşkil edir.

**Tədqiqatın metodları.** Dissertasiya işinin yazılmasında təsviri və tarixi-müqayisəli metoddan istifadə olunmuşdur.

**Tədqiqatın əsas müddəaları**.

1.Müxtəlif dövrlərdə toplanaraq tərtib olunmuş tapmacalarımızın hər birinə fərdi yanaşaraq fonoloji-akustik və linqvistik aspektdə tədqiqata cəlb etmək;

2.Səslərin dəyişmə istiqamətlərinin (səs uyğunluqlarının) əmələ gəlməsinə təkan verən başlıca amilləri müəyyən etmək;

3.İşlənmə dairəsinə görə söz qrupları üzrə tapmacaların təsnifini verərək bu istiqamətdə təhlil və ümumiləşdirmələr aparmaq və s.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan xalq tapmacalarının fonetik və leksik sistemində özünü göstərən başlıca xüsusiyyətlər müxtəlif fonetik hadisələrin paralelliyi, arxaizmlər və müxtəlif innovativ yanaşmalar tədqiqatın elmi yeniliklərindəndir.

Tapmacalarımızın fonetikasında belə hadisələr, bir tərəfdən, pratürk və qədim türk əlamətlərinin saxlanılması ilə, digər tərəfdən isə dilin ilkin, yaxud kökdil formalarının dəyişməsi, xalqın təşəkkülündə iştirak etmiş müxtəlif etnosların dil vahidlərinin paralel işlənməsi ilə izah oluna bilər.

Azərbaycan tapmacalarının fonetikasında müxtəlif dillərin səs sistemlərinin uzunsürən qarşılıqlı təsiri nəticəsində bəzi meyillər meydana çıxmışdır. Tədqiqat işində bunlar barədə söylənilənləri də ilkinliyinə görə yenilik hesab etmək olar. Müasir Azərbaycan dili tarixən üç əsas ləhcənin (cənub, qərb, şimal-şərq) qovuşması nəticəsində formalaşmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqatda irəli sürülən məsələlər tapmacalarla yanaşı digər folklor örnəklərinin araşdırılmasında, onların fonetik (fonetik hadisələr müstəvisində), leksik-semantik, üslubi xüsusiyyətlərinin müəyyənləşdirilməsində tətbiq edilə bilər. Bu cəhətlər tədqiqatın nəzəri əhəmiyyətinin olduğunu göstərir.

Tədqiqatın nəticələrindən geniş oxucu kütləsi, ali məktəblərin filologiya fakültəsinin tələbələri istifadə edə bilərlər. Həmçinin ali və orta məktəblər üçün hazırlanan dərslik və metodik vəsaitlərdə istifadə oluna bilər.

Dissertasiya Azərbaycan xalq tapmacalarının dilində işlənmiş sözlərin linqvistik xüsusiyyətlərini öyrənmək baxımından əhəmiyyətlidir. Əsər, eyni zamanda, dilimizin tarixi dialektologiyasını, tarixi qrammatikasını daha da təkmilləşdirmək işinə, etimoloji və məhəlli lüğətlərin hazırlanmasına, həmçinin dilçilik elmində bəzi mübahisəli problemlərin həllinə yaxından kömək edən qiymətli material verir.

**Aprobasiyası və tətbiqi:** Təqdim olunan dissertasiya 2016-2018-ci illərdə yazılmışdır. Dissertasiyanın mövzusu 26 oktyabr 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasında təsdiqlənmiş, həmçinin Filologiya Problemləri üzrə Elmi Şurada (17 fevral 2016-cı ildə) qeydə alınmışdır. İş Azərbaycan

Dövlət Pedaqoji Universitetinin "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın nəticələri dissertantın nəşr olunmuş 2 vəsait və ayrı-ayrı toplularda dərc edilmiş 10 məqaləsində öz əksini tapmışdır. Dissertant Bakı Slavyan Universitetində "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda keçirilən IX Beynəlxalq elmi konfransda (3-4 may 2018-ci il) mövzu ilə bağlı məruzə etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Giriş 4 səhifə, I fəsil 49 səhifə, II fəsil 71 səhifə, III fəsil 30 səhifə, Nəticə 3 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı 9 səhifə, ixtisarlar3 səhifə . Ümumi həcmi 176 səhifə – 221, 938 işarə.

# I FƏSİL
# AZƏRBAYCAN TAPMACALARININ FONETİK XÜSUSİYYƏTLƏRİ (FONETİK HADİSƏLƏR MÜSTƏVİSİNDƏ)

## 1.1. Azərbaycan tapmacalarının dilində sait səslərin əvəzlənməsində müşahidə olunan fonetik hadisələr

Azərbaycan dilinin səs sistemində tarix boyu hansı dəyişikliklərin olduğunu öyrənmək, səslərin fonetik vəzifələrini müəyyənləşdirmək, onu müasir ədəbi dillə müqayisə edib müəyyən nəticələr əldə etmək üçün qədim folklor janrı kimi Azərbaycan tapmacalarının rolu inkaredilməzdir.

Tapmacaların dilindəki fonetik xüsusiyyətlər araşdırılarkən sait və samit səslərin tarixən daşıdığı əlamətlər, fərqli spesifik cəhətləri, xüsusilə samitlərin bir-birini əvəz etməsi və s. fonetik məqamlar diqqəti cəlb edir.

Milli tapmacalarımızın fonetik bazasını təşkil edən faktorlardan biri də fonetik hadisələrdir. Azərbaycan tapmacalarının səs quruluşu müxtəlif çeşidli fonetik hadisələrlə zəngindir. Həmin hadisələrin bir qismi (karlaşma, dodaqlanma, incələşmə və s.) keyfiyyət dəyişməsinə səbəb olursa, digər qismi də (səsdüşümü, səsartımı) kəmiyyət dəyişməsi ilə nəticələnir.

Tapmacaların dilində fonetik hadisələrin yaranma səbəbi də müxtəlifdir, təkcə qənaət prinsipi (boşalma, bərkimə, əvəzlənmə və s.) kimi tendensiyaların mövcudluğu bir sıra fonetik hadisələrin törəməsinə imkan verir.

Qeyd edək ki, Azərbaycan tapmacalarının dilində mövcud olan fonetik hadisələrin əksəriyyəti, öz növbəsində, bir-birinə əks olan hadisələri də əhatə edir; məsələn: uyğunlaşma-fərqləşmə, kipləşmə-novlaşma, qalınlaşma-incələşmə və s. Həmçinin tapmacalarımızın dilində fonetik hadisələrin bəzisi çox, bəzisi isə az yayılmışdır.

Tapmacaların dilində işlənmiş müxtəlif fonetik hadisələr (səsdüşümü, səsartımı, səs yerdəyişməsi və s.) müasir ədəbi dil prizması baxımından nəzərdən keçirilir. Tədqiqat göstərir ki, bu gün Azərbaycan dilinin canlı danışıq dilində özünü göstərən fonetik hadisə və qanunlar tapmacaların dilində də müşahidə olunur.

Azərbaycan tapmacalarının dilində işlənmiş sait səslər müasir ədəbi dillə müqayisədə bir sıra fərqli xüsusiyyətlərə malik olması baxımından özünü büruzə verir. Bu da tapmacaların dilində sait səslərin bir-birini əvəz etməsi hadisəsidir.

Fikrimizcə, əvəzlənmə sözü şərti məna daşıyır. Əslində, burada heç bir əvəzlənmə hadisəsi yoxdur. Belə ki, dilimizin qədim dövrlərində müəyyən sözlərin tərkibində mövcud olmuş səslər bugünkü ədəbi dilimizin normalarından fərqli olaraq öz qədimliyini qoruyub mühafizə etmişdir. Məhz fonematik əvəzlənmələr adı altında ədəbi dildə işlənən hər hansı bir səsin əvəzinə bu və ya başqa səsin işlənməsi nəzərdə tutulur. Həmçinin bu cür faktlar müasir danışıq dilində müşahidə olunan spontan dəyişmələrlə müqayisəli şəkildə aparılır.

Qeyd edək ki, vaxtilə türkologiyada sait səslərin əvəzlənməsinə dair ziddiyyətli fikirlər də mövcud olmuşdur. Türkoloq A.M.Şerbakın 1970-ci illərdə yazdığı" Türk dillərinin müqayisəli fonetikası" kitabında epizodik xarakterli belə bir mülahizə verilmişdir: " Hind- Avropa dillərindən fərqli olaraq türk dillərində bütün sait səslərin bir-birinə keçməsi mövcuddur"[124 , s.17]. Həmin yanlış mülahizəyə türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində tənqidi münasibət bildirilmişdir[14 , s.66]. Təbii ki, A.M.Şerbakın bu baxışı ilə razılaşmaq olmaz, çünki türk dillərindən biri olan Azərbaycan dilində hər cür sait əvəzlənmələri mümkün deyildir, sait səslərin hər biri özlüyündə bir-birindən fərqli əlamətlərə malikdir.

Bunu nəzərə alaraq milli tapmaca nümunələrində təsadüf edilən saitlərin uyğunluqlarını (səs dəyişmələrini), əsasən, aşağıdakı şəkildə təsnif etmək olar:

1. Azərbaycan tapmacalarının dilində açıq saitlərin qapalı saitlərlə fonematik əvəzlənməsi (səs uyğunluqları);
2. Qapalı saitlərin açıq saitlərlə fonematik əvəzlənməsi (səs uyğunluqları);
3. Qalın saitlərin incə saitlərlə fonematik əvəzlənməsi (səs uyğunluqları);
4. Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə fonematik əvəzlənməsi

(labiallaşma hadisəsi );

5. Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə fonematik əvəzlənməsi (delabiallaşma hadisəsi).

### 1.1.1. Azərbaycan tapmacalarının dilində açıq saitlərin qapalı saitlərlə fonematik əvəzlənməsi (səs uyğunluqları)

**a>ı - a** səsinin **ı** səsinə uyğun gəlməsinə tapmacalarımızın dilində də rast gəlmək mümkündür. Bu hadisə tapmaca nümunələrində, əsasən, sözün ortasında və sonunda müşahidə olunsa da, söz köklərində çox az təsadüf edilir. Əvəzlənmənin yaranması saitlə bitən sözlərdən sonra **y** səsi ilə başlanan şəkilçilər gəldikdə özünü göstərir. Belə ki, **y** səsinin təsiri altında açıq sait (**a**) qapalı saitlə (**ı**) əvəzlənir. Onu da qeyd etmək lazımdır ki, burada **ı** səsi qısa deyilir.

Beş-beş anası,
Beş-beş balası,
Onu tapbıyan
Çəpəl balası (Əl və barmaqlar) [18, V.X, , s. 2],

Bizim evdə bir kişi var, balalarını başına yığıb zırhazır ağlıyır.
(Samovar) [V.X, s.39],

Palıd ağacının parası,
İçinin tarası,
Onu tanımıyan
Şeytan balası (Saz) [V.X, s.39]

a səsinin ı səsinə keçməsi başqa türk dillərindən ən çox tuvin, yakut və çuvaş dilləri üçün səciyyəvidir.

Yakut dilində**:** ıy< ay, ıl<al, ıt<at [ 135. s. 67] və s.

Çuvaş dilində**:** sıxla<saxla, pıl<bal, ılttan<altın [ Yenə orada, s. 68] və s.

Tuvin dilində: tırt<dart, çıt<yat, xırıp<qarın, kılın<qalın[Yenə orada, s.67] və s.

Məlum faktdır ki, qədim yazılı ədəbi dil nümunələri ərəb qrafikası ilə

yazıldığı üçün dilimizin səs sistemini, xüsusilə sait səsləri olduğu kimi tam şəkildə əks etdirə bilməmişdir. Lakin buna baxmayaraq, bu hadisəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn,

Əgər dünyada dəvü üqbıdə sənsən,
Həmin cana əzimüşşan olursan.
[19, AKƏK-3(Həbibi), s .357]

Ol könlün alan gözəl pəridir,
Gülzari-cinın onun yeridir.
[20,AKƏK-3( Xətai), s.421]

Bu hadisə Azərbaycan dilinin cənub, şimal-şərq və qərb dialekt və şivələrinə məxsus sözlərdə tez-tez rast gəlinir.

**ə>i** əvəzlənməsi Azərbaycan tapmacalarının dilində az təsadüf olunur. Bu hadisəyə tapmacaların dilində daha çox ə səsi ilə bitən sözlərə y səsi ilə başlanan şəkilçilər qoşulduqda rast gəlmək olur. Burada da y səsinin təsiri altında açıq sait (ə) qapalı saitlə (i)əvəzlənir.

Çay aşağı ləpəliyir,
Çay yuxarı ləpəliyir,
Nə əti var, nə sümüyü (Kəpənək) [ V.X, s.43],
Zir çilim, zincir çilim,
Yığsam, yığılmaz (Yer) [V.X,s. 35],

ə səsinin i səsinə keçməsi başqa türk dillərindən ən çox tatar, başqırd və hakas dilləri üçün səciyyəvidir.

Tatar dilində: kil<gəl, kis< kəs, tir<tər və s.
Başqırd dilində: kis<kəs, tir<tər, hiqez<səkkiz və s.
Hakas dilində: siqis<səkkiz [136, c. 78],

Azərbaycan yazılı abidələrinin dilində də bu hadisə işləkdir. Məsələn,

Gözümdin saçılur hər guşədin sitarə əksüksiz [21,AKƏK-3,(Kişvəri) , s.21],

Şahlar qamusu yanında növkər,
Yusif yüzünə qulami- kəmtir [20, AKƏK-3(Xətai), s.422],

ə>i əvəzlənməsi Azərbaycan dilinin şimal-şərq, qərb dialekt və şivələrində də təsadüf edilir.

**ə>ü əvəzlənməsi**. Azərbaycan tapmacalarının dilində ə səsinin ü səsinə uyğun gəlməsinin əsas səbəbi söz ortasında ə səsindən sonra dodaq-diş samitlərinin (v) olmasıdır: v səsinin təsiri altında damaq sait (ə) dodaq saiti ilə əvəzlənir.

ə>ü- ə səsinin ü səsinə uyğun gəlməsi faktı digər klassiklərimiz kimi İ. Nəsiminin dilində də təsadüf olunur. Məsələn,

*Bu taqü tümtüraqi qo ki, dövrani bu dunyanun* [ 22, s.343],

ə səsinin ü səsi ilə əvəzlənməsi hadisəsi ən çox şərq dialekt və şivələrinə

(söz köklərində) aiddir. Düvə //düə (Bakı-Corat, Güzdək, Qobustan); möhübbət (Muğan), küçüyü "küçəni" (Qazax) [23, ADƏ,s.51],

**o>u əvəzlənməsi**. Bu fonetik xüsusiyyət Azərbaycan tapmacalarının dilində geniş şəkildə işlənmişdir.

Ağac başında zığlı dulaşa ( Əzgil) [V.X,13],

Bir faytunum var, nə izi var, nə tozu (Cəhrə) [V.X,32],

İlim, ilim düyməsi,
İlan xatın düyməsi,
Hər kəs unu tapbasa,
Yeddi ilin xəstəsi ( İstiot ) [ V.X, s.67],

Yol üstə yağlı buxça (Təzək) [ V.X, s.72],

Uyan taxta, bu yan taxta,
Şaqqul bəy otaxda (Dəyirmanın dənliyi) [V.X, s.111]

o səsinin u səsi ilə əvəzlənməsi hadisəsi türk dillərindən ən çox başqırd və tatar dilləri üçün səciyyəvidir. Belə ki, başqırd və tatar dillərində sözün ilk hecasında işlənən u səsinə başqa türk dillərində o səsi uyğun gəlir.

*Başqırd dilində: ul<ol, kul<kol, yul<yol,utız<otuz ;*

*Tatar dilində : tuquz<doqquz, ut<ot* [ 137, s.14] və s.

M.Şirəliyev o>u səs uyğunluğunun qıpçaq dillərində, xüsusən tatar və başqırd dillərində geniş yayıldığını nəzərə alaraq onu qıpçaq dillərinə aid xüsusiyyət kimi izah etmişdir [ADƏ, s.51].

Ümumiyyətlə, o>u səs keçidi açıqlıqdan qapalılığa doğru təkamül prosesinə daxil olmaqla, əksər türk dillərində özünü göstərir.

**o>ı** – bu səs uyğunluğu tapmacalarımızın dilində məhdud şəkildə işlənmişdir.

Soyuq qəbirdə, saqqalı bayırda (Yemiş) [V.X, s. 95]

Qırmızı xıruz bağdadı,
Dimdiyi torpaqdadı (Tərəzi) [VX, s. 99].

Nümunələrə əsasən, demək olar ki, o saitinin ı saiti yerində işlənməsi alınma sözlərə aid olub, damaq ahənginin təsiri nəticəsində də əmələ gəlmişdir. o saitinin ı saiti yerində işlənməsi Azərbaycan dilinin şərq dialekt və şivələri üçün daha səciyyəvidir:

**e>i** e səsinin i səsi ilə əvəzlənməsi Azərbaycan tapmacalarının dilində daha çox təsadüf olunur:

Ay burdan gedən kişi,
Əlində dəmir şişi,
Mənim babama diyərsən,
Mənə bir at göndər,
Nə erkək olsun, nə dişi (Gəmi) [V.X,s.63]

Təpə üstə küpə,
Küpə üstə mişə,
Mişəni çaqqallar eşə (Baş və bədən ) [V.X, s.16]

Dağdan gəlir dağ paltarı,
Heç kəs onu giyə bilməz ( Hörümçək toru) [V.X, s. 52]

Bir tappaca diyərəm,
Tapmasun genə diyərəm sənə (Gənə) [ V.X, s.53].

Bu fonetik xüsusiyyət tapmacaların dilində, əsasən, sözün ilk hecasında özünü göstərir. Nümunələrdə yarımqapalı e tam qapalılaşır.

e səsinin i ilə əvəzlənməsini başqa türk dillərində də görmək mümkündür. Məsələn,

Tatar dilində: bil< bel, it<et, biş<beş və s.

Uyğur dilində: bişik<beşik, yimiş<yemiş, yi<ye, bil<bel[138,s.142-192] və s.

Başqırd dilində: kit<get [137 , s.12-14].

Bu səs keçidinə istinadən B. Çobanzadə də münasibət bildirərək yazırdı:" ***i*** *və* ***e*** *səsi arasında yaxın münasibət bulunur. Bu münasibət bilxassə türk-tatar lisanlarında pək ziyadə gözə çarpar. Çünki bu lisanlarda bir çox kəlmələrə rast gəliriz ki, həm* ***e****, həm də* ***i*** *ilə tələffüz olunur. Məsələn: geldi,(geldi)gildi; itdi(ətti) etdi (ətti); er,ir, erkek(ərkek),irkek; gine,gənə* [16, s.29],

Söz köklərindəki e>i səs uyğunluğu müstəvisində türk dilləri (oğuz və qıpçaq) arasında paradoks müşahidə olunur; belə ki, bu hadisə oğuz dillərində **i**, qıpçaq qrupu türk dillərində isə **e** mövqeyində işlədilir. Müq. et: bir/Azərb./, bir/türk./, bir/qaq./, ber/tatar, başq./; biz/Azərb./, biz/türk./, biz/türkm./, bez /tatar, başq/ və s.

Orxon-Yenisey abidələrində də bu fonematik əvəzlənməyə təsadüf edilməsi həmin hadisənin qədim tarixə malik olduğundan xəbər verir: ***el- il:*** Türk kağan Ötüken yış olursar, ilte bun yok?/ *Türk xaqanı Ötüken yaylasında otursa, dövlətdə qəm-qüssə yox olar* [27, s.52-53],

Orta əsrlərdə yazılmış bir sıra türk abidələrində (Əbu-Həyyanın "Kitab- əl-idrak li-lisan əl-ətrak", İbnü Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan") bu səs uyğunlugunun izlərini görmək mümkündür. Əbu Həyyanda: *didi<dedi, yidək<yedək, ilçi<elçi, iniş<eniş* [26, s.19-125]; İbn Mühənnada: *ilti<elti, il<el, yir<yer* [25, s.33; s.90],

Bu hadisə V. Radlovun lüğətində də əks olunmuşdur [ 139, s. 640].

e>i əvəzlənməsi Məsihinin "Divan"ında da təsadüf olunur. Məsələn,

D**i**mə tiş dikilən lölövi-sirab [29, MD, s.278],

D**i**mə ləb, söyləgil yaquti-əhmər [Yenə orada, s.241],

Nicə kim möhlət biribdür, saqiya, dövran sana [Yenə orada, s.207] , ....kimi leksik vahidlər də bu fonetik hadisəni özündə əks etdirən sözlər sırasında yer alır:

Böylə gedərsə, Bakı əldən gedər,
Qalmaz o məbadə aman h**i**ç, h**i**ç! [30, S.H, s.53]

Azərbaycan dilinin dialekt və şivələrində bu əvəzlənmə, xüsusən Quba dialekti üçün xarakterikdir.

### 1.1.2. Tapmacaların dilində qapalı saitlərin açıq saitlərlə fonematik əvəzlənməsi

**ı>a** - ı saitinin a saiti ilə əvəzlənməsi Azərbaycan tapmacalarının dilində bir qayda olaraq, sözün son hecasında işlənir və bizcə, bu, açıq damaq ahəngini təmin etmək tələbindən baş verir. Məsələn:

Ağzım aşağa eylərəm dolar,
Yuxarı eylərəm boşalar (Papaq) [31,H.Z,s.29],
Əkdim palıd, çıxdı şabalat,
Ortasından bir zoh çıxdı
Nə palıtdı, nə şabalat (Qatır) [V.X, s.41],

ı>a- bu səs uyğunluguna türk dillərində nadir hallarda təsadüf edilir. Yalnız yakut dilində **ı** əvəzinə **a** səsinin işlənməsi III şəxs mənsubiyyət şəkilçiləri fonunda özünü göstərir. Məsələn, ağata<atası; aata<adı [136, s.95] və s.

### 1.1.3. Tapmacaların dilində qalın saitlərin incə saitlərlə fonematik əvəzlənməsi (incələşmə hadisəsi)

Azərbaycan tapmacalarının dilində incələşmə hadisəsi geniş yayılmışdır. Bunun izlərini aşağıdakı saitlərin əvəzlənmə prosesində müşahidə etmək olur:

**a>ə**. a səsinin ə səsi ilə əvəzlənməsi hadisəsinə Azərbaycan tapmacalarının dilində daha çox rast gəlinir. Bu hadisə tapmaca nümunələrində, əsasən, sözün əvvəlində daha çox nəzərə çarpır. Məs;

Ana bir qız doğdu,
Nə əli var, nə əyağı,
Qız bir ana doğdu,

Əyağı da var, əli də (Yumurta) [V.X, s.20],
Dağdan gəlir dadıq suyu,
Heç kim onu dada bilməz.
Nəziq toxur culfa bezi
Heç kim onu geyə bilməz (Hörümçək ),[VX, s.49],
Qara toyuq qaq eylədi,
Qənətləri taq eylədi( Ölü) [VX, s.21],
Mat-mat ayağlı,
Mədinə dodaxlı,
Çəkərəm uzanar
Vay qəyiş ayağlı (Zəli) [VX, s.52**]**,
Özü ətlas, altı un, içi dirək ( İydə) [ H.Z, s.59]

Məlumdur ki, Azərbaycan dilində ə saitinin çox inkişaf etdiyinə baxmayaraq, a>ə istiqamətindəki keçid zəifdir. Türk dilləri içərisində bu səs uyğunluğu daha çox türkmən, qazax, başqırd və tatar dillərində geniş yayılmışdır. Eyni hadisə uyğur dilində də özünü göstərir. Məsələn:

*Qazax dilində: nəzik<nazik, əşkərə>aşkar* [140, s.256; s.507],

*Uyğur dilində: ȁ̯dȁ̯m<adam, çȁ̯rȁ̯>çȁ̯ə* [138, s.139; s.189] və s.

Bəzən Azərbaycan dilində ə ilə işlədilən sözlərdə, türkmən dilində a refleksi özünü göstərir: qəmə/Azərb./, qama/türkm./. Bu cür nisbət, hətta alınma sözlərdə də mövcuddur: karxana/Azərb./, kərxana/türkm./, qəflət/Azərb./, qaflat /türkm./ və s.

a>ə- bu səs uyğunluğu yazılı ədəbi nümunələrin dilində çox müşahidə olunur. Bu hadisə bədii materialda, əsasən, sözün ortasında və sonunda daha çox nəzərə çarpır. Məsələn, Yazılıb-düzilib gögdən endi T**ə**nri elmi Quran görklü [32, KDQ, s.32]. Yüzün üzrə qəra xallar pərişan zülfün altında. Sənasən, aşiyan qılmış od üstində səməndərlər [20, s.16] ; Saldıqca cavanlıqda keçən günləri yad**ə**, Dərdim olur on qat! Ya rəb, etərəm bir də mi dünyadə murad**ə**? Heyhat və heyhat! [30, s.32].

**a>e** əvəzlənməsi tapmacalarımızın dilində, əsasən, söz ortasında, bəzən isə söz əvvəlində y səsinin təsiri nəticəsində baş verir. Bu halda açıq saitin qapalılaşması və dilarxası saitin dilortası saitlə əvəz olunması hadisəsi meydana çıxır.

Bir öküzüm var,
Ağzından eyran axar (Nehrə) [VX,s. 24],

Bu səs uyğunluğunu digər türk dilləri ilə müqayisədə ən çox uyğur dilində görmək olar; egiz<agız, eyik<ayı, belik<balıq və s.

Bu fonetik xüsusiyyət Azərbaycan dilinin cənub, şimal-şərq və şimal-qərb şivələrində yayılmışdır: qeyçi, qeymağ, qeyiş, qeynata, qeytan [33, ADDL, s.154], a>e dəyişməsi Cənubi Azərbaycan şairlərinin əsərlərinin dilində də öz əksini tapmışdır:

Qışın qərə geyindi alıb mənim canımı,
Çəkibdir ipliyimi, qırıbdı q**e**ytanımı [34, M.Ş, s. 97] və s.

### 1.1.4. Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə fonematik əvəzlənməsi(labiallaşma hadisəsi )

a>o əvəzlənməsi Azərbaycan tapmacalarının dilində geniş şəkildə müşahidə olunur. Məs:

Anon çevirər,
Aton təpər (Başmaq) [V.X,s.20],
Ala ollandı,
Başı çullandı,
Qaşığa mindi,
Qıçı sallandı (Əriştə) [V.X,s.17]

Azərbaycan dilçiliyində a>o əvəzlənməsi hadisəsinin səbəbi müxtəlif şəkildə izah olunur. Bir qrup dilçilər (M.Şirəliyev, Ə.Abdullayev, H.Z.Hacıyeva və başqaları) bu hadisəni İran qrupu dillərinin təsiri ilə izah edir. M.Şirəliyev Azərbaycan dilindəki **o**-laşma hadisəsini tat dilinin, Ə.Abdullayev isə bir az da irəli gedərək adı çəkilən əvəzlənməni tacik dilinin təsirində axtarmışdır. Ə.Abdullayev fikrini belə əsaslandırır:

“*Azərbaycan dialektlərindəki o-laşma hadisəsini hər yerdə olursa-olsun tat dilinin, talış dilinin, kürd dilinin, habelə özbək ədəbi dilindəki o-laşmanı tacik dilinin təsirində görmək lazımdır”.* [3, s.155]. İkinci qrup dilçilər (R.Rüstəmov, A.Axundov, E.Əzizov və başqaları) isə əksinə, bu hadisəni İran qrupu dillərinin təsiri fikrinin əleyhinə çıxaraq, onu daha çox dilxarici amillə, substrat təsirlə əlaqələndirmişlər. R.Rüstəmova görə, “*Azərbaycan dili şivələrindəki a>o hadisəsini tat, talış və ya fars dillərinin təsiri ilə izah etmək olmaz. Onun baxışına görə, burada substrat məsələsi haqqında düşünmək, bəlkə, həqiqətə müvafiq olardı”* [63, s.282].

E.Əzizov isə həmin hadisəni dilimizin fonoloji imkanı, şəraiti ilə bağlı səbəb kimi izah etmişdir. Müəllif yazır: “*…bəzi şivələrdə dodaqlanan açıq saitlərə üstünlük verilməsi, eləcə də* ***a*** *saitindən əvvəl və ya sonra* ***b, p, v, m, n, ğ*** *samitlərindən birinin gəlməsi həmin hadisə üçün fonoloji şərait rolunu oynamışdır”* [38, s.155-156].

Bizcə, E.Əzizovun mövqeyi daha inandırıcıdır. Çünki a səsinin o səsinə uyğunlaşmasının əsas səbəblərindən biri a səsindən əvvəl və ya sonra qoşadodaq samitinin gəlməsidir. Belə ki, qoşadodaq samitlərinin təsiri altında damaq saiti (**a**) dodaq saiti ilə (**o**) əvəzlənmişdir.

Bu səs uyğunluğu qədim mənbələrdə, o cümlədən M. Kaşgarinin lügətinin dilində də öz əksini tapmışdır. Konkret nümunələrə diqqət yetirək:

Awçı neçə al bilsə, adhığ ança yol bilir (Ovçu neçə hiylə bilsə, ayı onca yol bilir); Bəg awka çıktı (Bəy ova çıxdı); Ər tarıg sawurdu (Adam taxıl sovurdu) - [38, MK-1, 100, s.116].

Məsələyə tarixi baxımdan yanaşma sübut edir ki, öncə, həmin sözlərin [a] saiti ilə işlənməsi daha qədim bir hadisədir və [a]-nın [o]-ya keçidi dilin sonrakı inkişaf pillələrində baş vermişdir. Av allamorfunun ov fonovariantına nisbətən daha qədim olduğundan bəhs edən E. Əzizov qeyd edir ki, *ov formasının fəal işləndiyi dövrlərdə ədəbi dil nümunələrində av formasına təsadüf olunması yazı ənənəsi ilə bağlı olmuşdur* [ 37, ADTD, s.151].

a<o- bu hadisəyə müxtəlif dövrləri təmsil etmiş ədiblərimizin poeziya örnəklərində daha çox təsadüf olunur. Məsələn, XIII əsrdə Qul Əlinin “Qisseyi-Yusif” əsərində (Oşal dəmdə Yusif ana hazır gəldi, Bənizinin nuru anı rövşən

qıldı- [39, QY, s.64]; X1V əsrdə Nəsimidə (Xubların bağında çoxdur fitnəli nərgiz, Vəli fitnəlik xətm oldu anın nərgisi-fəttanına [22, s.19]; XV-XVI əsrdə Xətaidə (Şükr eylə, Xətai, çün səninlən, Ol şahidi-mehriban qavışdı[ ] ; XVII əsrdə Məsihidə (Qavmaq cənandin irmiş adumgə mar bais [29, AKƏK-3(MD), s.222]; XVIII əsrdə Vaqifdə (Avçısı olmuşam sən tək maralın 41, s.31); XIX əsrdə Nəbatidə (Nəbati kül oldu, yandı Sinada, Bu alavdan bir od düşsün sana da [42, Nəb, s.37 ], və s.

Sadaladığımız faktlar sübut edir ki, bu səs uyğunluğunun əhatə dairəsi çox genişdir. Bizcə, buna səbəb, bir tərəfdən Azərbaycan dilinin ənənəvi ədəbi tələffüz norması, digər tərəfdən isə türk dilinə meyilli üslubların təsiridir.

*"a>o hadisəsi türk dillərindən özbək dilinin canlı xüsusiyyətidir: xotun, qoro, bor, tonq, dova və s."* [ 141 , s.13].

Azərbaycan tapmacalarının dilində mövcud olan a>o əvəzlənməsi digər dialekt və şivələrlə müqayisədə daha çox Bakı dialektinə məxsusdur. Təqdim etdiyimiz nümunələr isə Şamaxının kəndlərindən toplanmışdır.

**a>u əvəzlənməsi**. Azərbaycan tapmacalarının dilində **a** səsinin **u** səsi ilə əvəzlənməsi o qədər də geniş şəkildə işlənməmişdir.

Xoş gəlmisən, xoş nişan oğlan,
Atamnan olmuş, qardaş oğlan,
Get anuva deynən; ərin gəlib,
Atuva de, oğlun gəlib (Fəsil dəyişməsi) [V.X, s.110],

Bizcə, bu hadisəni doğuran əsas səbəblərdən biri söz ortasında **v, y** səslərinin olmasıdır. Məhz həmin səslərin təsiri altında açıq **a** səsi qapalı **u** səsinə çevrilir. a səsinin i səsinə uyğunlaşması başqa türk dillərindən ən çox çuvaş dili üçün səciyyəvidir.

Çuvaş dilində: ulma>alma, ula>ala,pusmaq>basmaq, suxal>saqqal, turt>dart [135, s.68] və s.

Bu hadisəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn,

Bağ**ə** gir bülbülə ərzi-güli rüxsar eylə,
Yıq gülün irzini bülbül gözünə xar eylə [43, FB, s.151]

**ı>u əvəzlənməsi**. Bu hadisəyə tapmacaların dilində çox vaxt dodaq (**m, p, b**), diş səsləri (**t,l,r, ş)** və dilarxası **(x, ğ)** səslərdən sonra təsadüf edilmişdir. Bu səs uyğunluğu, ümumən, sözün son hecasında özünü göstərir. Bu halda, əksərən, damaq ahəngi pozulur. Faktlara diqqət yetirək:

Yaşıldu, qırmızıdu, yarıqdu başı,
Gedəndə, gələndə tökülür yaşı,
Dalında iki qardaşı,
Qabağında al qumaşı ( Kağız) [VX,s.69],
Məmədəli dur gedək,
İşüvü, gücüvü gör gedək,
Səksən, doqsan qapuya,
Bir qıfılı vur gedək ( Ölü) [V.X,s .20],

Bu hadisəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar.

ı>u- ı saitinin u saiti ilə əvəzlənməsi İ. Nəsiminin dilində sözün müxtəlif mövqelərində, daha çox şəkilçilərdə özünü göstərir: Məs: *sınuq* [22, s.326]; *qayğu* [ yenə orada , s.390]; *qarşu*[ yenə orada, s.396]; acıdur[ yenə orada,s.33]; *cəmalun* [ yenə orada,s.188]; *asandur*[ yenə orada,s.38], Füzulidə:

Saqiya, cam tut ol aşiqə kim, qayğuludur,
Qaygu çəkmək nə üçün cam ilə aləm doludur.
Təlx göftarsız olmaz ləbi-yar, ey aşiq,
Çox həvəs eyləmə ol şərbətə kim, aguludur [44, Füz, s. 23?]
Qanumı ləbləri içdivü düşdi arayə qan,
Canum daxı quşanuban bu qana qanə gərək [45, AKƏK-3, [QB], s.51],

Türk dillərinə aid qədim abidələrdə də sözün ikinci hecasında ı>u hadisəsinə tez-tez rast gəlmək mümkündür; məs.: M.Kaşğarlının məlum əsərində: [armut [I, 95], çaruk [I, 38], kapu [I, 31], karşu [III, 272], və s.

**i>ü əvəzlənməsi**: i səsinin ü səsi ilə əvəzlənməsi hadisəsi tapmacalarımızın dilində geniş yayılmış hadisə deyil. Bu hadisəyə Azərbaycan tapmacalarının dilində, əsasən, diş-dodaq səslərindən (**v, f)** əvvəl təsadüf edilir. Belə ki, diş-dodaq samitlərinin

təsiri altında damaq saiti dodaq saiti ilə əvəzlənir. Qeyd edək ki, i saiti əvəzinə ü saitinin işlənməsi tapmacalarımızın dilində özünü yiyəlik hal, mənsubiyyət, şəxs, feili bağlama və indiki zaman şəkilçilərində də xüsusi olaraq geniş surətdə göstərir.

Bizdən sizə yol gedər,
Gödənü və qul gedər (Motal) [V.X, s.24],

Labiallaşma hadisəsi kimi diqqəti çəkən bu fonetik hadisə türk dillərinə məxsus qədim mənbələrdə də təsadüf olunur. M.Kaşgarinin "Divanü lügat-it türk" ( kapuğ, artuk, ağru(dı) [38,-MK-I, s.99; s.156; s.163; s.300], [aruq, aru-ƏH, s.15], eləcə də [açuq, ağuz, ayruq- İM,- s.67; s.69; s.73] əsərləri buna nümunə ola bilər.

Bu hadisəni ədəbi dilimizin əvvəlki dövrlərində müşahidə etmək olur. Məsələn:

, Ta əsər var candan təndə,
Əmani qapünda bəndə.
Mövcud etmiş çün həq səndə,
Əslini cüzv ilə külün [46, AKƏK-3(ƏS), s.317],
Nigara, qamətünə qılmışuz könülü fəda,
Zira ki, sərvi- rəvanə rəvan rəvanə gərək [45, AKƏK-3,(QB), s.51],
Nədür keyfiyyətin eşqün bilmək olmaz,
Çu keyf ilə yüzini görmək olmaz [47, AKƏK-3, (ŞG), s.291],
Səndən ayru yüz ğəmü dərdü məlamətdür mana
Nə xoşam, nə naxoşam, bilməm nə halətdür mana [21, AKƏK-3( K), s.301],

Dilçilik ədəbiyyatında i>ü hadisəsinin daha çox Naxçıvan dialektinə aid olduğu göstərilir. Lakin M.Şirəliyev haqlı olaraq göstərir ki, bu hadisə az və ya çox dərəcədə başqa dialekt və şivələrimizdə də təsadüf edilir: məsələn: …süz (Bakı, Şamaxı, Quba, Muğan), süfdə (Bakı) [ ADƏ, s.49].

### 1.1.5. Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə fonematik əvəzlənməsi( delabiallaşma hadisəsi)

Azərbaycan tapmacalarının dilində delabiallaşma hadisəsinə az təsadüf edilir. Bu ən çox **u>ı və ü>i** əvəzlənmələrində özünü göstərir. Məs:

Miciri, ay miciri,
İlişdirdim ucunu,
Yeddi qatar nər gərək,
Çək onun gücünü (Kotan) [V.X,s.33]
Bir dərədə iki bızov qartdaşır (Başmaq)[ H.Z, s.30]
Ağac başında dari kuyısı ( Əzgil) [ V.X, s.13]
O hansı şəhərdi 12 bazarı,
48 məhləsi , üç kuçəsi var,
366 hicrəsində, 6120 xocası var ( İl, aylar, həftələr) [ V.X,s. 87]
Min milit,
Kapı qilit,
Ya bını tap,
Ya bırdan it ( Ölü) [V.X,s. 86]
Kaya hundur söqulməz,
Başı aşağı töqulməz,
Sifrəyə salınmaz,
Onsuz insan dolanmaz ( Ana döşü) [V.X, s.80],

Əgər söz sonunda labiallaşma dodaq ahənginin yaranması ilə bağlıdırsa, delabiallaşmanın əsas səbəbi gərginlik sahəsinin aradan qalxmasına meyilli olmasıdır. Yad sistemli dil mühitinin varlığı bu hadisənin davamlı olmasına şərait yaratmışdır.

Tapmacaların dilində söz sonunda labiallaşma (ı>u, i>ü) və delabiallaşma (u>ı, ü>i) hadisəsinin müşahidə olunması A.Axundovun qeyd etdiyi kimi, tarixən şəkilçilərin fonetik tərkibinin fonoloji mənaya malik olmaması və bir sıra dilarxası amillərlə bağlıdır [7, s.111]. E.Əzizov bu məsələdə həm də qədim türk yazı ənənələri ilə bərabər, canlı danışıq dili faktını da nəzərə almağı vacib hesab edir. [ADTD, s.33].

ü>i- ü saitinin ı saiti ilə əvəzlənməsinə bir çox klassiklərin əsərlərinin dilində də rast gəlinir:

Xoş ol zaman ki, hərimi- visalə məhrəm idim,

Nə mübtəlayi- bəla, nə müqəyyədi-ğəm idim [ 43, FB, s. 116]

Onun sübhi- visalın kim, həyatım tək bəqasizdir

Xəyali-şami-biəncami-hicran etməyim,neylim? [49,AKƏK-3(QS), s.108].

Hüsni göstərmə ki, dil al ilə alə düşməsün,

Dam ilə danə bəladur, zülfü halə düşməsün [45,AKƏK-3( QB), s.69] və s.

Saitlərin vəziyyətdən asılı olaraq bir-biri ilə əvəzlənməsinə dair belə nəticəyə gəlmək mümkündür ki, dilarxası saitləri dilönü saitlərə nisbətən daha üstün mövqeyə malikdir. Bu da, fikrimizcə, səbəbsiz deyildir. Çünki dilarxası səsləri tələffüz məxrəcinə görə dilönü səslərdən əvvəl olduğu üçün qüvvətli mövqedə yerləşir və dilönü səsləri ilə əvəzlənə bilir. Digər tərəfdən, açıq saitlər isə açıqlıq dərəcəsinə görə qapalılardan daha üstündür. Lakin buna baxmayaraq, burada da başlıca aparıcı rolu yenə də dilarxası və dilönü iyerarxiyası tutur.

Beləliklə, Azərbaycan tapmacalarının dilində işlənmiş saitlərin əvəzlənməsində nəticə olaraq aşağıdakı xüsusiyyətlər diqqəti cəlb edir.

1. Dilarxası a saiti daha qüvvətli mövqedə olduğuna görə dilönü açıqlıq istiqamətində ə , e, dilönü dodaqlanma istiqamətində ə, dilarxası qapalılıq istiqamətində ı, dilarxası açıq dodaqlanma istiqamətində o, dilarxası qapalı dodaqlanma istiqamətində u saiti ilə əvəzlənir.

2. Tapmacaların dilində dilarxası qapalı ı saiti dilarxası mövqedə dodaqlanan u, dilönü istiqamətində isə i saiti ilə əvəzlənir.

3. Tapmaca nümunələrinə əsasən, demək olar ki, dilarxası dodaqlanan qapalı u saiti yalnız dilönü istiqamətində ü saiti ilə əvəzlənmə imkanına malikdir.

4. Dilarxası açıq dodaqlanan o saiti dilönü açıqlıq istiqamətində ə, qapalılıq istiqamətində u saiti ilə əvəzlənir.

5. Dilönü qapalı i saitindən isə yalnız damaq-dodaq istiqamətində ü saiti əvəzlənə bilir.

6. Azərbaycan tapmacalarının dilində ü saiti saitlər sistemində ən zəif mövqe tutduğuna görə onun başqa saitlə əvəzlənməsi müşahidə olunmur.

Saitlərin əvəzlənməsi ümumi halda, fonetik sistemin təkamül prosesi ilə bağlı şəkildə özünü göstərir. Türk dillərində səs uyğunluqlarının öyrənilməsi

müqayisəli tipoloji təhlildən başqa, tarixi-tipoloji və etimoloji tədqiqatlar üçün də əhəmiyyətlidir.

## 1.2. Azərbaycan tapmacalarının dilində samit səslərin əvəzlənməsində müşahidə olunan fonetik hadisələr

Tapmacalarımızın dilində müşahidə olunan samit səslər kəmiyyət və keyfiyyətinə görə müasir ədəbi dildən və dialektlərdən bir o qədər də fərqlənmir. Samit səslərin əvəzlənməsi hadisəsinə Azərbaycan tapmacalarının dilində həm söz əvvəlində, həm söz ortasında, həm də söz sonunda rast gəlirik.

Tapmacalarımızın dilində samit səslərin əvəzlənməsi hadisəsini müasir ədəbi dildəki bölgüyə uyğun olaraq aşağıdakı şəkildə xülasə etmək olar:

1.Cingiltili samitlərin kar samitlərlə əvəzlənməsi;

2.Cingiltili samitlərin cingiltili samitlərlə əvəzlənməsi

3.Novlaşma və kipləşmə hadisəsi

4. Azərbaycan tapmacalarının dilində fonetik hadisə və qanunlar.
Uyuşma (assimilyasiya) hadisəsi

5.Səsartımı (proteza) hadisəsi

6. Səsdüşümü (eleziya) hadisəsi

7.Səs fərqləşməsi (dissimilyasiya) hadisəsi

8.Səslərin yerdəyişməsi (metateza) hadisəsi

### 1.2.1. Cingiltili samitlərin kar samitlərlə uyğunluğu

Məlumdur ki, müasir Azərbaycan dilində cingiltili samitlərin hamısı müəyyən fonotaktik mövqedə karlaşır. Yalnız bu hadisədən nisbətən gec yarandığı üçün işlənmə yeri məhdud olan "j" samiti kənarda qalır. Azərbaycan tapmacalarının dilində söz

əvvəli, söz ortası və sözsonu mövqelərdə özünü göstərən karlaşma hadisəsi fonetik qanun səviyyəsində fəaliyyət göstərir. Azərbaycan tapmacalarının dilində bu əvəzlənmələri (b>p, b>f, s>z, ç>c, k>$k^1$, r>k, ğ>k və s.) əhatə edir. Sadaladıgımız səs uyğunluqlarının bəzilərinə diqqət yetirək:

**b>p**. Bu hadisə Azərbaycan tapmacalarının dilində, əsasən, sözün əvvəlində özünü göstərə bilir.

Şişi kababı pişirər,
Xörəgi qazan pişirər,
Aşıq bir əlamət görüb,
Ayaq başı pişirər (Kəllə) [V.X,s. 61],
Hənunu, hununu,
Xörəgi qazan pişirər,
Aşıq bir əlamət görüb,
Pıçax kəsməz gönünü( Çanaqlı bağa) [V. X, s.63].
Dagdan gələr dag kimi,
Qolları putağ kimi,
Əyilər su içməyə,
Bəyirər oğlağ kimi (Araba) [V.X,s.47]

Türk dillərində cingiltili b səsinin kar p səsinə uyğun gəlməsi geniş ədəbi dil xüsusiyyətidir. Bu hadisə başqa türk dillərindən ən çox çuvaş və xakas, qismən də tatar, türkmən dilləri üçün səciyyəvidir.

*Çuvaş dilində: pus> baş, puçla> başla və s.*[142, s. 347; s. 391];
*Hakas dilində: palam>balam, pir>bir, pas>baş* [143, s.355; s.375];
*Tatar dilində: pıçax> bıcaq, piçən>* bişən [137, s.30];
*Türkmən dilində: palta> balta, posa> busə , pudak > budaq* [144, s. 21] və s.

Bu uyğunluğa Azərbaycan ədəbi dilinin fonetik sistemində sözönü mövqedə də rast gəlinir:

Dedi övrət ona, pəs ey bəradər!
Rəva deyil bir övrətə iki ər [ 43, FB, s.168 ]

O da məlumdur ki, Azərbaycan dilində karlaşma hadisəsinin qaynağı pratürk dövrünə aiddir. Bu barədə F.Cəlilovun fikri diqqəti cəlb edir: *“Qrammatik baxımdan, qədim türk runik əlifbasındakı bəzi kar samitlərin işarəsi müvafiq cingiltili samitin işarəsindən törəmişdir”* [14, s.53]. Bizcə, bu da karlaşma prosesinin əlifbanın yarandığı dövrdən davam etdiyini göstərir. Onu da qeyd edək ki, sözsonu karlaşma bütün türk dillərində özünü göstərir. Hətta sözsonu karlaşmaya qədim türk yazılı abidələrinin dilində də rast gəlmək mümkündür.

Ötüken yir olurıp arkış-tirkiş isar, neŋ bunığ yok( Ötüken torpağında oturub karvan(lar) göndərsən, dövlətin əbədi olacaqdır - abidəsi” [ 51, Kk s.34-35].

Lakin sözəvvəli mövqedə karlaşma türk dillərini bir-birindən fərqləndirən əlamət kimi çıxış edir. Belə ki, türk dillərinin yayıldığı areal üzrə, yəni Qərbdən Şərqə getdikcə karlaşma aktivləşir, hətta türk dillərində sözəvvəli mövqedə cingiltili samit qalmamışdır. Bu fakt göstərir ki, karlaşma hadisəsi sözəvvəli mövqedə çoxdan başlamışdır və Şərqə gedən türkdilli tayfaların çoxu karlaşmanı aktiv keçirən dialektlərdən ibarət olmuşdur. Belə tayfaların orta əsrlərdə Azərbaycana qayıtması Azərbaycan dilinə bütövlükdə təsir edə bilməsə də, yazılı mənbələrdə, o cümlədən tapmacaların dilində müəyyən iz buraxmışdır.

Azərbaycan tapmacalarının dilinin səs quruluşunda karlaşma əsas fonetik qanunlardan biri olduğu halda, onun əksi olan cingiltiləşmə hadisəsi zəif inkişaf etmişdir. Faktlara əsasən demək olar ki, cingiltiləşmənin fonotaktik mühiti də məhduddur.

**b>f-** bu hadisəyə tapmacalarımızın dilində daha çox söz sonunda təsadüf edilir. Mis.:

Aşığ aşı pişirir,
Yanılıf naşı pişirir,
Bu gün bir hikmət gördüm,
Ayağ başı pişirir(Taxıl) [V.X,s.23);
Yox aşığam haraylar
Həm ulduzlar, həm aylar,
Dəryada bir gül bitif,

O da su deyin haraylar (Ürək) [V.X,s.73

Mən aşığ ikisinə,
İki dal, iki sinə,
Bir ağacda beş alma,
Gün düşüf ikisinə (Namaz vaxtı) [V.X,s.84]

b>f çox az hallarda sözün ortasında da baş verir. Mis.:

Özü dəli,
Sözü ifdidayı (Dəyənək ) [VX, s.27]

Bu hadisəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmədik.

**d>t-** səs uyğunluğu tapmacalarımızın dilində daha çox sözün əvvəlində qeydə alınır. Məs.:

Əl dutmaz, bıçaq kəsməz
Ondan şirin harda var (Yuxu) [H.Z,s.19]

Tat ipək sarımaz,
Ayaq dutsa yeriməz,
Min ilə qalsa çürüməz ( Ad) [H.Z,s.68]

Tarixən Azərbaycan dilində mövcud olmuş, lakin ədəbi dilimizin müasir dövrü üçün məqbul sayılmayan bu hadisə başqa türk dillərində bu gün də canlı şəkildə qalır. Məs.:

Türkmən dilində: *at(ad), ot(od), öt(öd)*[ 136, c. 182; c.183.] və s.

Qazax dilində: *at( ad), ot( od), tört(dörd)* [ 140,c.45; c.265;c.376;c. 496] və s. Yazılı abidələrimizdə t samiti ilə başlanan sözlər d ilə yazılmışdır. Bu fonetik hadisə Nəsimi, Kişvəri, Həbibi, Xətai də əsərlərində təsadüf edilir. Söz əvvəlində d>t əvəzlənməsi Nəsiminin əsərlərində geniş şəkildə müşahidə olunur. Məs.: damu//tamu, dükənmək//tükənmək, dökülmək//tökülmək, daş//taş və s. [ 22, s .47; s. 94; s.234]; " Ey gözüm, xali degül bir dəm çigərəcun Kişvəri, bir qurusa bir dökülür, gözləri dolab tək [21, KƏ, s.47]; "Bu Xətai həqqinə dayım dutubdur çox ümid [40, XƏ,s. 68]; "Hər qaçan badı-sər dəpristə müşkün zülfini; Xatirim olur

pərişan, başuma sevda gəlur [52, AKƏK-3,( Həb),s. 45] “Gərçe vəslüŋdin cüda düştüm muŋa şadəm, vəli.... [29,AKƏK-3, (MD), s.205] və s. əsərlərində müşahidə olunur. Beləliklə, tapmacaların dilində müxtəlif mövqelərdə çıxış edən d>t əvəzlənməsi qədim türk abidələrinin dilində ümumtürk əlamətidir.

**d>t-** uyğunluğu Azərbaycan dilinin qərb şivələrində daha çox söz əvvəlində müşahidə olunursa, Quba, Şəki və Muğan qrupu şivələrində isə söz sonunda yer alması diqqətəlayiq cəhətlərdən biri hesab olunur.

### 1.2.2. Cingiltili samitlərin cingiltili samitlərlə uyğunluğu

**y>g-** bu hadisə Azərbaycan ədəbi dilində fəal və qədim fonetik hadisələrdən sayılır. Ümumiyyətlə, **y** və **g** səsləri bir-birini əvəz etmək cəhətdən çox mütəhərrikdir. Buna görə də y samitinin g samiti ilə əvəzlənməsinə tapmacalarımızın dilində sözün müxtəlif mövqelərində rast gəlinir. Məsələn, söz ortasında:

Altı taxta, üstü taxta,
Oturub bir ağ otaqda,
Qoyun dögül otlayır,
Toyuq dögü yumurtlayır ( Tısbağa) [V.X,s. 48],
İki yolum var, bir dirəgim (Burun) [V.X, s. 17],
Fil istər, filman istər,
Susuz yerdə dəgirman istər ( Dil) [V.X, s.17],
Dəryada bir gül bitibdir adı yox,
Şirinligindən yemək olmaz dadı yox (Uşaq) [H.Z, s.19],
Bəzən y>g əvəzlənməsinə sözün əvvəlində də rast gəlmək mümkündür.
Gündüz qalxar, gecə saxlar,
Əgrim, ügrüm hara gedirsən!
Papağı cırıq sən nə deyirsən! (Cəftə, baca və tüstü) [VX, s.23],
Tat qızın tatda gördüm,
Əcəb suratda gördüm,
İgirmi dört ulduzu,

Dörd ayın altda gördüm (At nalı, mıxlar ) [ H.Z, s.44],

Dağdan gəlir hil,

Ayağında tasma tel,

Sən igitsən onu da bil ( Hörümçək) [V.X, s. 52],

Qara ağacın başında,

Yetmiş iki yaşında,

Gənə deyir, uzağam uzağ (Qaraquş) [V.X, s. 76],

Bir yaylığım var, iki dağ arasında,

Sərirəm gənə qurumaz (Dil) [H.Z, s.17],

Söz sonunda y>g uyğunluğu:

Eşigi yaşıl, içi qırmızı lalələr,

Nə atası var, nə anası balalar (Qarpız) [ H.Z,s.55],

Sarıdı, zəfəran dəgil,

Yaşıldır Quran dəgil,

Buynuzu var koç dəgil,

Qanadı var quş dəgil ( Kəpənək) [V.X, s.103].

Müxtəlif mənbələrdə də y>g səs uyğunluğunun mövcudluğu bu hadisənin çox qədim bir fonoloji dəyişmə olduğu fikrini ortaya qoyur. Qədim türk yazılı abidələrinin dilində, o cümlədən M. Kaşğarinin lüğətində də bu əvəzlənmənin izlərini görmək mümkündür: "Ər yügürdi" / Adam qoşdu /;[38, MK-III, c, s.66] " Ər iglədi" / Adam xəstələndi/; [Yenə orada, MK-I, c, s.121; s.310]; "Ər bilig ögrəndi" / Adam bilik öyrəndi/; [Yenə orada, MK-I,c , s.285].

Demək olar ki, müxtəlif dövrləri təmsil etmiş klassiklərimizin əsərlərində bu fonoloji dəyişmə öz əksini tapmışdır:

Eşq xərmənində sovruldum,

Həm ələndim, həm yuğruldum,

Qazana girdim qovruldum

Meydana yenməgə gəldim [40, XƏ, s.50],

Neçün çəksün xumar il kim, həmişə içdigi qandır?;

Məni- Məcnuni aqil eyləmək mümkün dəgil naseh [53, Saib , s.38-39];

Əsbabın aldı düzdü ləşkər,

Dər əgninə geydi, başə miğfər;

Alur dügidən hesabi-danə,

Hər danəsi cövrə bir bəhanə [29, MD, s.151; s.170];

Genə yanar oda saldın canımı,

Qoydu məni yana-yana gözlərin [41, VƏ, s. 23];

Xublarda adətdir, nəzakət satar,

Genə xəyalını xəyala qatar [Yenə orada,VƏ, s.35];

Dügünlərin yetər, ey səbzrəng, təh gülün,

Nə gül, nə səbzə gərəkdir,nə laləzar mana;

Əglənmədi, ta yetdi mənə gənci-rəvan tək,

Seylab nə bilsin ki, nə viranələrim var [54, AKƏK-3,(QT), s.21; s.77]

Tarixən ədəbi dildə qərarlaşan və ədəbi dil faktı kimi dəyərləndirilən bu hadisə klassik dilin folklor( tapmaca)-danışıq dilinə doğru meyilliliyinin bariz nümunəsidir.

Bu fonoloji dəyişmənin söz ortası mövqeyindən söhbət açan M.Şirəliyev y və g səslərinin işlənmə mövqeyinə görə dialektləri üç qrupa ayırmışdır:

“1)Şərq dialektləri- burada g samitinin söz ortasındakı işlənmə mövqeyi güclüdür;

2) Qərb dialekt və şivələri- burada y danışıq səsinin söz ortasındakı işlənmə mövqeyi aparıcıdır;

3) Şimal və cənub dialekt və şivələri- burada sözün orta mövqeyində y və g danışıq səslərinin hər ikisi işləkdir” [ ADƏ, s.86].

Məhz y və g səslərinin bir-birini əvəz etmək cəhətdən fəallığı uzun müddət bu samit səslərlə işlənən sözlərin sərhəddini müəyyənləşdirmək orfoqrafiyamızda nisbi çətinliklərə səbəb olmuşdur. M.Şirəliyevə görə, bu fonetik hadisəyə orfoqrafiya qaydalarının da təsiri danılmaz faktdır. Belə ki , əgər 1936-cı ildə ədəbi dildə söz ortasında [g] səsinə üstünlük verilirdisə, 1936-cı ildən sonra [y] səsinə daha çox önəm verilmişdir.

**y>v**- bu səs uyğunluğu tapmacalarımızın dilində ən çox sözün ortasında bir neçə sözdə təsadüf olunur. Belə ki, söz ortasında açıq dodaq saitlərinin təsiri altında y səsi dodaq samiti olan v səsi ilə əvəzlənir:

Dağdan gəlir dadığ suvu,
Heç kəs onu dada bilməz ( Zəhər) [H.Z, s.40],
Suva girdi dağıldı,
Sudan çıxdı yığıldı (At quyruğu) [H.Z, s.43],
Ot yeyər inək dögü,
Yumurta salar tovuq dögü (Tısbağa) [H.Z,s.48],
Qara tovuq, qarnı yarıq ( Buxarı) [ H.Z,s.22],
Dağdan gəlir, daşdan gəlir,
Bir balaca asdan gəlir.
Ard ayağını aldırmaz,
Ağzına yuvən vurdurmaz ( Külək) [ VX,s.48].

**y>v** hadisəsi türk və türkmən ədəbi dillərində geniş dairədə işlənir. Məsələn, türk dilində: tavuk, övmək, dövmək, sovuk [142, c.155; s.475; s. 547; s. 593] və s.

**y>v**- bu səs uyğunluğu, əsasən, cənub dialekt və şivələrinə aiddir.

**b>m**- b samiti m samitinə nisbətən akustik-fonoloji cəhətdən güclü məxrəcdə ifadə olunur. Buna görə b samitindən m samitinə keçid meyli ortaya çıxır. b>m istiqamətindəki səs uyğunluğu Azərbaycan dilində, xüsusən də türkmən dilində türk və qaqauz dillərinə nisbətən güclüdür. Belə ki, türk və qaqauz dillərində müvafiq mövqedə b samiti saxlandığı halda, Azərbaycan və türkmən dillərində başlıca olaraq, m refleksi özünü göstərir. Bəzi hallarda, Azərbaycan dilində də b samitinin mühafizəsi müşahidə olunur. Məsələn:. ben (türk), ben(qaq.), mən(Azərbaycan), men (türkmən); ben (türk), bin(qaq.), min( Azərbaycan), mün(türkmən); boncuk(türk), bonjuk (qaq.), muncuq( Azərbaycan), monjuk (türkmən); beniz (türk), bəniz (Azərbaycan), beniz (qaq.), meniz ( türkmən) və s.

**b>m** istiqamətindəki səs uyğunluğu başqa türk dillərində də mühafizə olunur: burun(Azərbaycan), murın(qaz.), boyun( Azərbaycan), moyın(noq.) və s.

Tapmacalarımızın dilində bu hadisə bir qayda olaraq, bu işarə əvəzliyi hallanarkən adlıq haldan başqa, qalan hallarda ilk b səsinin m səsinə keçməsi nəticəsində baş verir. Azərbaycan tapmacalarının dilində bu səs uyğunluğuna sözün müxtəlif mövqelərində təsadüf olunur:

Hər havası var munun,
Yaşıl, qarası var munun
Sancaq inən deşik-deşik
Nə çox səfası var munun (Limon) [ H.Z,s.60],
Hay gedən kişi,
Huy gedən kişi,
Mana bir girvəngə ət al,
Nə ərkək olsun, nə dişi (Köbələk) [ V.X, s.61],
Hacıya gedəllər hac eşqinə,
Başındakı tac eşqinə,
Mana elə bir kilim gətir ki,
Nə ərişi olsun, nə arğacı (Gecə) [ V.X, s.60].

b səsinin m səsi ilə uyğunlaşması hadisəsinə M.Kaşğarlının lüğətində də rast gəlinir: menğ(i)z <bəniz, miz<biz, münğüz<buynuz [38,MK-I,s. 60-5; I, s.327-14; I,s. 504-4] və s.

Bu hadisəni başqa türk dillərində: qaraqalpaq, qırğız, xakas, özbək, başqırd, yakut, şor və qumuq dillərində də görmək olur.

Bu səslərdən hər biri dilimizin formalaşmasında birləşən dillərdən birinin xüsusiyyəti kimi önəmli əhəmiyyət kəsb edir. Bu səslərdən **b**-oğuz, **m**- qıpçaq ünsürüdür [143, c.16].

Lakin qıpçaq dilinin ünsürü inkişaf edib ədəbi dil norması hüququ qazandığı halda, oğuz dil ünsürü isə dialekt xüsusiyyəti olaraq qalmışdır. Belə ki, Azərbaycan ədəbi dili oğuz dil ünsürlərinin üstünlüyü ilə təşəkkül tapdığından b> m hadisəsi şivə xüsusiyyəti olaraq məhdudlaşıb qalmışdır [144, s. 45].

**b** səsinin söz başında **m** səsinə uyğun gəlməsi ədəbi dilimizin əvvəlki dövrlərində, əsasən, əvəzliklərdə və onlardan törəmə sözlərdə geniş dairədə təzahür etmişdir. Bir neçə nümunə:

Baxdım ki, munun qırımı özgə,
Mənimlə alımı-verimi özgə [40,XƏ, s. 427 ],
Munca kim kuh sifət başıma daşlar urulur,
Dideyi-bəxtim oyanmaz, nə ağır uyğuludur [44, Füz, s.25 ]
Nə gərəkdir mənə bir munca ümur
Ki, edə qəlbimi bihissü hüzur [30, SH, s.43 ] və s.

Nəticədə **b>m** səs uyğunluğunda [b] ədəbi dil norması səviyyəsinə yüksəlsə də, [m] variantı canlı danışıq dili faktı kimi müəyyən dialekt və şivələrimizdə mühafizə olunur. Bizcə, [m] variantının bu gün ədəbi dil faktı səviyyəsinə yüksəlməməsinin başlıca səbəbi bilavasitə ümumxalq dilinin təsiridir.

### 1.2.3. Novlaşma və kipləşmə hadisəsi

Azərbaycan tapmacalarının dilində novlaşma hadisəsi samitlərdə kipləşmə mərhələsinin aradan götürülməsi ilə baş verir. Tapmaca nümunələrində novlaşma yarımçıq, yaxud tam şəkildə baş verir. Bildiyimiz kimi kipləşən samitlərin affrikatlaşması yarımçıq novlaşmadır:

d>ç, t>ç, k>c, k>ç

Tam novlaşmada isə kipləşən samit kipləşmə əlamətini tam itirir:

d>z, t>c, q>ğ, k>x, k>y, c>ş, b>f, p>f və s.

Azərbaycan tapmacalarının dilində tam novlaşma hadisəsi geniş yayılmışdır.

**b>f.** Akustik-fonoloji mövqeyinə görə b səsi f səsindən qüvvətli məxrəcə malikdir. Dodaq səsi olmaq etibarilə b samiti kipləşənlər, f samiti novlular sırasına daxildir. Tapmacalarımızın dilində bu hadisəyə ən çox söz sonunda təsadüf olunur.

Aşığ evdən yuxarı,
Cığa teldən yuxarı,

Aşığ bir şey görüf

Dizi beldən yuxarı (Qarışqa) [ V.X, s.23],

O tayda Usuf durur,

Qulağın qısıf durur (Qayçı) [ V.X, s. 93 ].

**p>f**. p samitindən f samitinə keçid türk dillərində zəifdir. Məsələn, türkmən dilində, demək olar ki, p>f səs uyğunluğu mövcud deyildir. Digər türk dillərindən fərqli olaraq, türkmən dilində söz əvvəli mövqedə p samiti saxlanılır. Faktlara diqqət yetirək: pıntık (türkmən), fındıq (Azərb.), fındık(qaq.); pırlamaq (türkm.), fırlamaq(Azərb.), fırlamaq (türk), fırlamak (qaq.) və s.

Türkmən dilində p samitinin mühafizə edilməsinə meyil o qədər güclüdür ki, hətta ərəb və fars dillərindən alınan sözlərdə də başlanğıcdakı f samiti p samiti ilə əvəz olunur. Məs.: pursat ( fürsət), pikir (fikir), pılan (filan) və s.

p samitinin mühafizə edilməsi meyli, demək olar ki, yalnız rus dili alınmalarında işlədilir. Məs.: forma, faktor, faktik və. s. Tapmacalarımızın dilində bu səs uyğunluğuna dair yalnız bir nümunəyə rast gəldik.

Bizdən sizə dımbilim fıs. (Ələk) [V.X,s. 37].

**ç>ş**. c samiti tələffüz məxrəci etibarilə ş samitinə yaxındır. Ş samitindən ç samitinin başlıca akustik-fonoloji fərqi ondan ibarətdir ki, ç samiti kipləşən ş isə novlu səslər qrupuna daxildir. Artikulyasiya cəhətdən ç səsi ş səsindən daha güclü tələffüzə malikdir.

**ç>ş** səs uyğunluğunda Azərbaycan dilində kipləşmədən novluluğa doğru meylin digər dillərdən üstün olduğunu görmək mümkündür. Belə ki, Azərbaycan dilində türk, qaqauz və türkmən dillərindəki ç mövqeyində bir sıra hallarda ş refleksinə təsadüf olunur: müq et: çam( türk), çam( qaq.), şam( Azərb.).

**ç>ş** səs uyğunluğu başqa türk dillərində də mövcuddur: çüy( Azərb.), şaa(oyrot), çın( qırğ), şın(tuva), çatla(Azərb.), şatıra( qırğ) və s.

Ağaşda bağlı buxca (Yuva) [ V.X, s.28],

Dağdan gəlir dadıx suyu,

Heş kim onu dadammaz,

Nəziy toxur culfa bezi,

Heş kim onu geyinməz (Hörümçək toru) [ V.X, s.48],

**q>ğ** səs uyğunluğu Azərbaycan tapmacalarının dilində - lıq,-lik,-luq,-lük şəkilçi morfemlərində təsadüf olunur. Buna baxmayaraq, bu səs uyğunluğu tapmaca nümunələrində azlıq təşkil edir və mövqe baxımından söz sonunda reallaşır. Bu əvəzlənmə barədə M. Şirəliyev qeyd edir ki, ....çoxhecalı sözlərin axırında [ğ] səsinə üstünlük verilir. Məs.: yarpağ, torpağ, qabığ, çubuğ, balığ, palçığ..... [ADƏ, s.92].

Ağamın bir donu var, qatdamağ olmaz,

O qədər pulu var ki sanamağ olmaz (Səma və ulduzlar) [V.X,s.14],

Alçağ dağdan qar yağar ( Ələk) [V.X, s.18],

Dağdan gəlir dağ kimi,

Qolları pudağ kimi,

Əyilir su içməyə,

Bağırır oğlağ kimi (Qayçı) [V.X, s.47].

Bu səs uyğunluğuna dilimizin əvvəlki dövrlərində də rast gəlmək mümkündür. Məs.:

Doğruluğdan biz bu gün divanə gəlmişlərdənüz [53, Saib, s.44],

Əmani, qıl həzər imsakdin kim,

İrür bədnamlığdin yeğ ziyanlığ [55,ƏS, s.99].

Azərbaycan tapmacalarının dilində aktiv olan novlaşma hadisəsi dilimizin qədim çağlarında da aparıcı fonetik hadisələrdən olması ehtimalını gücləndirir. Məhz bu baxımdan Azərbaycan tapmacalarının dilinin səs quruluşunda novlaşma hadisəsinin rolu böyükdür. Belə ki, tapmacalarımızın dilindəki samitlər sisteminin təşəkkülündə bu fonetik hadisə əsas vasitələrdən biri kimi iştirak etmişdir. Məsələn, dilimizdə sonradan yaranan v, f, j samitləri daha çox novlaşma hadisəsi ilə bağlıdır.

Dilçilik ədəbiyyatlarından o da məlumdur ki, *"müxtəlif tipologiyalı dillərdə novlaşma hadisəsi universal mahiyyət daşıyır. Tapmacalarımızın dilində novlaşmaya nisbətən kipləşmə hadisəsi isə az yayılmışdır və daha çox "analogiya" ilə bağlı ortaya çıxır"* [42, s.66]. Məsələn:

Atası bəfat etdi,

Anam çiçəx[1] çıxartdı (Kartof ) [V.X, s. 21 ],

Bizdən sizə dımbılın fıs (Siçan) [ V.X,s.37]

Nümunələrdə verilmiş vəfat>bəfat, fıs>pıs tipli dəyişmələr ona görə baş verir ki, sonralar yaranmış v, f samitləri yaxın qəlibli doğma samitlər (v, p) şəklində deyilir, yəni doğma vərdiş analogiya ilə davam etdirilir.

### 1.2.4. Azərbaycan tapmacaların dilində fonetik hadisə və qanunlar. Uyuşma (assimilyasiya) hadisəsi

Ümumiyyətlə, assimilyasiyanın fonetik hadisə kimi meydana çıxmasının mühüm əlamətləri səslərin orfoepik prinsip üzrə uyğunlaşmasında özünü göstərir. Təsadüfi deyildir ki, assimilyasiya haqqında bəhs edildikdə məhz səslərin uyğunlaşması əsas və mühüm əlamətlərdən biri kimi diqqət mərkəzinə çəkilir [60, s. 38]. Bu baxımdan assimilyasiya hadisəsi danışıq dilinə xas hadisə olduğundan tapmacalarımızın dilində daha çox yayılmışdır. Assimilyasiya bu və ya digər məxrəcdən çıxan bir səsin başqa məxrəcdən çıxan bir səsə təsir edərək onu ya öz məxrəcindən, ya da özünə yaxın məxrəcdən çıxarması hadisəsi deməkdir. Assimilyasiya hadisəsi zamanı ya əvvəlki səs özündən sonrakı səsə, ya əksinə, sonrakı səs özündən əvvəlki səsə təsir edə bilir. Məhz buna görə də assimilyasiya həm tam və ya yarımçıq, həm də irəli və ya geri ola bilər. Bu baxımdan Azərbaycan tapmacalarının dilində assimilyasiyanın bütün növləri (tam irəli assimilyasiya, yarımçıq irəli assimilyasiya, tam geri assimilyasiya, yarımçıq geri assimilyasiya) özünü göstərir. Assimilyasiyanın bu dörd tipindən tapmacalarımızın dilində ən çox rast gəldiyimiz tam irəli və tam geri assimilyasiya növləridir.

***a) Azərbaycan tapmacalarının dilində tam irəli assimilyasiya.*** Tam irəli assimilyasiyada bir səs özündən sonra gələn səsə təsir edərək onu tamamilə öz məxrəcinə salır. Başqa sözlə desək, söz kökü sonunda və şəkilçi əvvəlində zəif

samitlər işlənir, şəkilçi əvvəlindəki zəif samit söz kökü sonundakı zəif samitin tələffüzünə uyğunlaşır. Azərbaycan tapmacalarının dilində tam irəli assimilyasiyanın aşağıdakı növlərinə təsadüf olunur:

1.**rl>rr** səs uyğunluğu dilimiz üçün daha xarakterik hadisələrdən biridir.

Quşlardan necə quşdur,
Qanadı fırran quşdur,
Ot otlar qoyun kimi,
Su içməz necə quşdur (Kərənti, dəryaz) [V.X, s. 81].

Türk dilində bu uyğunlaşmanın əksi də müşahidə olunur. Yəni, r səsi l səsinə yox, l səsi r səsinə təsir göstərir. Belə dəyişmədə morfoloji vasitəyə aid samit səs sabit qaldığından, onu fonetik dəyişmə də hesab etmək olar. Məs.: tarla-tarra, türlü- türrü, yuvarlak-yuvallak və s.

2. **nl>nn** səs uyuşmasına, demək olar ki, tələffüz norması kimi türk dillərinin hamısında rast gəlmək mümkündür. Məs.: odunlar- odunnar, gəlinlər-gəlinnər(Azərb.), karanlık- karannık, insanlık- insannık, delikanlı-delikannı ( türk), anlamak-annamak, dinləmək-dinnemek( türk.) və. s

Tapmacalarımızın dilində bu dəyişmə tipi geniş şəkildə özünü göstərməkdədir:

Yonduqca yoğunnar,
Qazdıqca uzanar (Quyu) [H.Z,s. 36]
Ağac başında unnu dağarcıq ( İydə) [V.X,s. 59]
Dünənnər bir canavar gördüm,
Döşü şir döşünə bənzər.
Qanadları qırqız qanadına,
Qıçı da qıçına bənzər.
Qarnı əqrəb qarnına,
Quyruğu atquyruğuna bənzər,
Başı da at başına (Çəyirtkə) [ V.X, s.54],
Kül başına ay kişi,
Anna sana bu işi.

Get bazardan bir batman ət al,

Nə erkək olsun, nə dişi ( Bal) [V.X, s.95],

n və l səslərinin, ümumiyyətlə, danışıq dilində bir-birini öz təsiri altına alması faktı yuxarıda sadaladığımız dillərdən başqa, digər türk dillərində də özünü göstərir. Hələ keçən əsrin ortalarında cağatay dilindən bəhs edən H.Vamberi kəmiyyət şəkilçisi haqqında yazır: *"……Əksəriyyət…..-lar, -lər-lə düzəlir, danışıq dilində əgər sonu …n-lə bitərsə, l kimi və ya şəkilçisi l-n kimi deyilir: Məsələn: günlər sözü künner və ya küller kimi tələffüz olunur"* [ Yenə orada, s.78].

3. **nd>nn.** Sözdə n səsi özündən sonra gələn d səsinə təsir edərək, onu tamamilə öz məxrəcindən çıxarır. Oğuz qrupu dillərindəki, xüsusən Azərbaycan dialektlərində müşahidə olunan bu səs uyuşmalarında həm də qıpçaq dillərinin orfoepik normaları əks olunur. Təsadüfi deyildir ki, M.Şirəliyev bu xüsusiyyəti qıpçaq elementləri kimi izah etmişdir [ 148, s. 13 ]. Çünki bu hadisə qıpçaq qrupu türk dillərində daha çox təsadüf olunur. Məs.: кояннан ( ног. г. галп., газ.), куяннан( тат.), хозаннан( хак.).

Tapmacalarımızın dilində dialektik səviyyədə olsa da, bu cür səs uyuşması müşahidə edilir:

Haça, haçanın üstünnən küpə

Onun da üstünnən top,

Topün üstünnən meşə,

Meşə içində

Çaqqallar eşələşə (Ayaq, qarın, baş, saç, bit) [V.X, s.60],

Qara yay, yay altınnan,

Işıldayan ışıldağın altınnan.

Mışıldayan, mışıldayan altınnan,

Göysüyən göyşəyin altınnan,

Qıl torbası salanar (Qaş, göz, burun, ağız) [V.X,s.76],

O nədi ki düzülür, vədəsində pozulur,

Ayağınnan su içər, başınnan kuzular (Taxıl) [V.X, s.91],

Eyni səs dəyişikliyi qumıq dilində də özünü göstərir: sennen, içinnen, arslanna[146, c.298].

**4. td> tt** bu səs uyuşması da başlıca olaraq, danışıq dilində müşahidə olunur. Torpağdan lülə, əttən qüllə.( Siçan), [V.X, s.41],

Gəlirdim kənttən,
Səs gəldi bəttən.
Ağzı sümükdən,
Saqqalı əttən ( Xoruz) [V.X, s.45],
Daştı daş dögü
Daşa yoldaş dögü.
Mal kimi ot ottar
Mala yoldaş dögü ( Tısbağa) [V.X,s.48],
Hatım, hatım, hattadı
Hatım koxa kəttədi,
Dişi qarnı altdadı,
Dodağı dalı qattadı (Xırman vəli) [H.Z, s.33].

***b) Azərbaycan tapmacalarının dilində yarımçıq irəli assimilyasiya hadisəsi***

Yarımçıq irəli assimilyasiyada bir səs özündən sonra gələn səsi özünə tamamilə oxşada bilmir, onu öz növünə oxşatmağa çalışır. Azərbaycan tapmacalarının dilində yarımçıq irəli assimilyasiyanın aşağıdakı növlərinə təsadüf olunur.

**1.tl> td.**

Bir sürü atdar,
Çəməndə otdar.
Vaxtı gəlincə
Bağırı çatdar ( Pambıq qozası) [V.X, s.28],
Qara toyuq yay eylədi,
Qənətdərin taq eylədi (Ölü) [ H.Z, s. 21]

Ağamın bir donu var,
Katdamağ olmaz.
O qədər pulu var ki,
Sanamağ olmaz (Səma və ulduzlar) [V.X,s. 14]

2.**şl> şd**.

Dərvişdər, ay dərvişdər,
Gecə sizə gəlmişdər.
Oğarta oynamışdar,
Xurd-xəşil olmuşdar (Əriştə) [V.X, s.62],

**st>ss.**

Passan qılıcım passan,
Yer altında yassan (Meyit) [V.X, s.20]

**pm>pp.**

Tap-tappaca,
Qulaqlarda yappaca,
Bir oğlu var, bir qızı (İnək) [ V.X,40],

**pm>pb**.

Ağaş başında kora,
Bilmədim düşdüm tora.
Hər kəs bunu tapbasa,
İmansız getsin gora ( Böhtan) [V.X,13]

***c) Azərbaycan tapmacalarının dilində tam geri assimilyasiya hadisəsi***

Tam geri assimilyasiyada bir səs özündən əvvəl gələn səsi tamamilə özünə oxşadır. Azərbaycan tapmacalarının dilində tam geri assimilyasiyanın aşağıdakı növlərinə təsadüf edilir.

**1.rl>ll.**

Hacıya gedə**ll**ər hac eşkinə,
Başındakı tac eşkinə.
Mana elə bir kilim gətirki,
Nə ərişi olsun, nə arğası (Gecə) [V.X, s.60],

Ağ yerə toxum səpəllər,
Əkən biçər, əkməyən biçməz (Məktub) [H.Z,s.70],

**2.nm>mm**.

Dağdan gəlir dadıx suyu,
Heç kim onu dadammaz.
Nəziy toxur Culfa bezi,
Heç kim onu geyəmməz (Hörümçək) [V.X, s.48],

**3.çc>çç.**

Bizdə bir kişi var, üççə dişi var (Sacayağı) [V.X,s.37].

***ç) Azərbaycan tapmacalarının dilində yarımçıq geri assimilyasiya hadisəsi***

Yarımçıq geri assimilyasiyada bir səs özündən əvvəl gələn səsi özünə tamamilə oxşada bilmir, onu öz cinsinə oxşatmağa çalışır. Azərbaycan tapmacalarının dilində yarımçıq geri assimilyasiyanın aşağıdakı növlərinə təsadüf edilir.

1.nb>mb; 2. zs > çc; 3.xd>td; 4.kd>td; 5.fd>td və s.

## 1.3. Səsartımı (proteza) hadisəsi

Azərbaycan tapmacalarının dilində az yayılmış fonetik hadisələrdən biri də səsartımıdır. Müasir Azərbaycan ədəbi dilində olduğu kimi, tapmacalarımızın dilində də davamlılığına görə səsartımın 2 növünə təsadüf olunur:

1.Təsadüfi səsartımı

2.Daimi səsartımı

Məlumdur ki, təsadüfi səsartımı yalnız tələffüzlə məhdudlaşır, orfoqrafik qayda kimi fəaliyyət göstərmir, bilavasitə yazıda öz əksini tapmır. Təsadüfi səs- artımı dil yox, nitq hadisəsidir. Dilçilik ədəbiyyatında göstərilən dörd növ səs- artımı hadisələrindən ikisi – epenteza (sözortasında səsartımı) və lyezon təsadüfi səsartımıdır. Azərbaycan tapmacalarının dilində söz köklərində iki saitin yanaşı işləndiyi hallara təsadüf edilmir. Epenteza isə tələffüzlə söz kökündəki yanaşı gələn iki sait arasına samit artırılması hadisəsinə deyilir.

Daimi səsartımı dildə norma şəkli almış fonetik hadisədir, o, dil sistemində orfoqrafik norma kimi qəbul edilmişdir. Dilçilik ədəbiyyatında göstərilən dörd növ səsartımından ikisi – proteza (sözün əvvəlinə səs artırılması) və epeteza(sözortasında səsartımı) daimi səs artımıdır. Bu hər iki fonetik hadisəyə Azərbaycan tapmacalarının dilində rast gəlirik.

Azərbaycan dilinin qanunlarına görə sözün əvvəlində iki kar samitin yanaşı gəlməsi mümkün deyildir. Buna görə də sözlərin tələffüzünü asanlaşdırmaq üçün qoşa kar samitlə başlanan sözlərin əvvəlinə sait səs artırılır. Dilimizin tarixinə aid materialların göstərdiyi kimi, Azərbaycan dilində söz başında (təbii ki Azərbaycan sözlərində) heç vaxt r samiti işlənməmişdir. Buna görə də alınma sözlərdə r ilə başlanan sözlərin əvvəlinə bir sait səs artırılır. Bu tip səs artırılması müasir Azərbaycan dili üçün proteza hadisəsi hesab edilir.

A.Axundov səsartımının növ spesifikasını belə xarakterizə etmişdir: *'Daimi səsartımı dilimizdə artıq orfoqrafik norma təşkil edən səsartımı hadisəsinə deyilir. Təsadüfi səsartımı isə yalnız tələffüzlə məhdudlaşır və dilimizdə orfoepik norma kimi fəaliyyət göstərir"* [6, s.226].

Tapmacalarımızın dili üzərində apardığımız müşahidələrə əsasən, demək olar ki, səsartımı hadisəsi daha çox alınma sözlərdə özünü göstərir: məsələn: i- (rəng), İ(rza), iravan və s.

Tərəzi var, təngi var,
Hər irəngdən rəngi var (Xalça) [V.X, s. 108],
Püstədi ha püstədi,
Taxt iravan ustədi,
Hansı yemişdir ki,
Çəyirdiyi üstədi (Çiyələk) [V.X, s.94].

Məlumdur ki, daimi səsartımı yalnız samitlərə aiddir. Çünki dilimizin fonetik təbiətinə görə iki sait səs yanaşı işlənə bilməz. İki saitin arasına samit artırılarkən səsartımı hadisəsi baş verir. Dilimizdə səs artımı hadisəsində, əsasən, üç samit: y, n, s samitləri iştirak edir. Ədəbi dildə olduğu kimi, tapmacalarımızın dilində də **y** artımı morfonoloji xüsusiyyət kəsb etmişdir. Belə ki, köklə şəkilçi arasında sait yığımının

qarşısı **y** artımı ilə alınır: su(y)u, de(y)im və s. Bu paradiqma hal və zaman şəkilçilərinə aiddir.

Azərbaycan tapmacalarının dilində də *bu* və *o* əvəzlikləri istənilən qrammatik və leksik şəkilçiləri qəbul etdikdə səsartımı hadisəsi baş verir.

İlim iynəsi var bunun,
Zərli libası var bunun.
İynə ilə dəliy-deşik
Gör nə binası var bunun (Bal arısı və pətəyi) [ H.Z,s.113].

Müasir Azərbaycan dilində olduğu kimi tapmacaların dilində də *n* səsartımı saitlə bitən isimlərin yiyəlik və təsirlik hallarında özünü büruzə verir.

Yazda yığır yeməyini,
Çox sevir öz əməyini,
Yeyib yatar baharadək
Nədir adı tapın görək (Qarışqa) [V.X, s.114],

Təsadüfi səsartımı hadisəsi tapmacaların dilində ən çox alınma sözlərdə müşahidə edilir. Alınma sözlərdə a və i, a və e, ə və ı, i və a, e və o, o və e, o və ı, u və e saitləri yanaşı işlənərkən tələffüzdə onların arasına bir y samiti artırılır:

Namazlı**y**am, namazı,
Almışam dəstəmazı,
Məçidim su, qibləm ət,
Harda qılım namazı (Ana bətnində uşaq) [V.X,s.108],
Hazılı**y**am, hazılı,
Yanım qara tazılı,
Çıxdım dünya üzünə,
Gördüm qəbrim qazılı (Uşaq və beşik) [V.X, s.110],
Əzizinəm, yüz qoyun,
Yüz götürün, yüz qoyun.
Altı abbası**y**a almışam,
Altı öküz, yüz qoyun (Ayaqqabı) [V.X,s.113)

Ədəbi dildən fərqli olaraq, tapmacalarımızın dilində sözlərin əvvəlində, ortasında və axırında müəyyən samitlərin (*y, h, g, x, n* və s.) artımını müşahidə etmək olur.

M.Şirəliyev bu məsələyə toxunaraq yazır: "*... məsələyə müqayisəli-tarixi planda yanaşdıqda burada səsartımı deyil, sözün qədim şəkli özünü göstərir*" [ADƏ, s.94]. Daha sonralar ədəbi dildə bu səslər düşmüş, dialekt və folklor örnəklərində isə izi qalmışdır.

1. Tapmacalarımızın dilində söz əvvəlində y səsinin artımı.

Başı qələm bağlar,
Yürəgi vərəm bağlar,
Balalarını yığar başına,
Cır-cır ağlar ( Qaranquş) [V.X, s.26],
Başına ağ bağlayır,
Yürəyi qabar baylayır,
Balalarını yığıb başına
Gıldır-gıldır ağlayır (Samovar) [V.X, s.26],
Qara kişi dağdan şələ yendirir ( Ülgüc) [V.X,s.79],
O yüzdə duran kişi,
Əlində dəmir şişi,
Bizə bir at göndər
Nə erkək olsun, nə dişi ( Göbələk) [V.X,s.89],
Gödəcik kişi dağdan ilxı yendirir (Ülgüc) [V.X,s.100].

Türk dillərinin qədim yazılı abidələrində də söz əvvəlində y səsartımı açıq-aydın özünü göstərir. M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində yıl, yılan, yır (ip), yigirmi, yigit, yulduz (ulduz), yignə, yigdə (iydə) [38, MK- I.c- 39; s. 38].

İbn-Mühən lüğətində: yüzük, yıncı (inci) vəs.

Söz başında y samitinin artımına ən qədim Orxon-Yenisey abidələrində( yüz, yigit, yıl,yincgə, yılan, yultuz), "Kitabi- Dədə Qorqud" da: (yigit,yitmək, yuca, yüzük, yürək, yil), " Dastani-Əhməd Hərami" poemasında: (yürək, yüz, yigit), "

Vərqa və Gülşa" poemasında: (yigit, yiyləmək,yüzük, yıldız), Qazi Bürhanəddin " Divan" ında:( yıl, yigid, yılan, yütinmaq), Nəsimi " Divan"ında:(yıldız, yuca, yüzmək, yüzərlik, yütünmaq), Xətaidə: (Yunisi dərya içində yudduran bir balığa; Atəşi İbrahimə gülzar edən pərvərdigar [40,X, s.74], Kişvəridə:( Gecələr zelfen xəyalında məni aşuftəhal; Yuxuda yılan görüb mən ləhzə-ləhzə səksənib [21,KƏ, s.9], Həbibidə:( Cəhanda qalmadı bir zərrə zülmət; Haldan gün yüzün nuri hüveyda [51,Həbibi,s.11] görürük və s.

Eyni zamanda, Azərbaycan yazılı abidələrində olduğu kimi, tapmacalarımızın dilində də söz önündə y-nın artırılması və düşməsi uzun müddət paralel şəkildə mövcud olmuşdur. Məhz bu cəhətə görə türk dillərində y başlanğıcının ilkinliyi məsələsi indiyədək türkoloqlar arasında həllini tapmamış, köhnə mübahisə obyekti olaraq qalmaqdadır. Belə ki türkoloqların bir qrupu (V.Radlov, B.Serebrennikov, H.Hacıyeva, E.Tenişev) türk dillərində sözün önündə y səsini ilkin, başqa bir qrup isə (Q.Ramştedt, S.Malov, A.Şerbak) sonrakı hadisə hesab etmişlər...

2.Tapmacalarımızın dilini ədəbi dildən ayıran cəhətlərdən biri də söz əvvəlində h səsinin artımıdır.

Ay dədə, dur gedək,
Zülfünü bur gedək,
Bir qapının haçarını,
Min qapıya vur gedək (Orucluq) [ V.X, s.15]

Türk dillərində söz əvvəlində h səsinin artımı haqqında ilk dəfə məlumat verən M.Kaşğari olmuşdur. M.Kaşgari öz məlum əsərində türk tayfa dillərinin fonetikasından danışarkən qeyd etmişdir ki, *XI əsrdə əsl türk dillərində boğazdan çıxan h səsi yoxdur.* Onun fikrincə, *"bəzi tayfa dillərində (xotən və kəncək dillərində) söz əvvəlində h səsinə təsadüf edilirsə, bunlar əsl türklər deyil, türklər ölkəsinə son olaraq gələnlərdir".* Müəllif bunu başqa dilin, xüsusən hind dilinin təsiri ilə izah etməyə çalışmışdır. M.Kaşğari xotanların və gəncəklərin dilindən belə misallar verir: hata "ata", hana "ana" [38, MK, I c, s.68]. M.Kaşğariyə görə, *"xotənlarda, kəncəklərdə söz əvvəlində h səsinin olması başqa dilin (hindi dili) təsirindən başqa bir şey deyildir".* M.Şirəliyev bu məsələyə öz münasibətini belə bildirmişdir: *"... M.Kaşğarinin bu*

*fikrində müəyyən dərəcədə həqiqət vardır. Həqiqətən, h-laşma hadisəsi ərəb dili təsirinə məruz qalan və Qafqaz-İber dilləri əhatəsində olan türk dillərində özünü göstərdiyindən, ola bilsin ki, bu həmin dillərin təsiridir"* [ADƏ, s.96]. Lakin mövcud mülahizələr türkologiyada birmənalı qarşılanmamışdır.

E.Əzizovun, fikrincə, h samiti barədə M.Kaşğarinin qeydləri qiymətli olsa da, türkologiya son söz sayıla bilməz. Məsələ burasındadır ki, M.Kaşğari heç də bütün türk dialektlərini eyni səviyyədə öyrənməmiş, əsas etibarilə oğuz, qıpçaq, cıgıl, arğu və yağma dialektlərini tədqiq etmişdir. O hətta Qərbi qıpçaqlara səyahət etməmiş, uyğurlar arasında da olmamışdır [ ADTD, s.106].

Dil faktları h səsinin bəzi türk dillərində də qədimdən işləndiyini təsdiq edir. M.Adilov belə nəticəyə gəlmişdir ki, dilin nisbətən qədim leksik təbəqəsi olan vokativ sözlərdə h səsi xüsusi yer tutur və həmin sözlərin çoxu bu səslə başlayır: ho, hoho, huş, hay, hov, huşt-huş, hay-hay və s. M.Adilov hətta M.Kaşğarinin lüğətindən bir neçə vokativ sözü müşahidə etmişdir: haç-haça, heç-heç, hoç-hoç [4, s.107]

"Kitabi-Dədə Qorqud"un dilində söz önündə h samiti hay, hey, hayqır, hələ kimi sözlərdə özünü göstərir. Həmin abidədə h səsinin artımı hovlu/avlu sözündə müşahidə olunur. Bu söz Azərbaycan dilində hovlu və ya hoylu şəklindədir.

Bu barədə T.Hacıyevin də mülahizəsi diqqəti cəlb edir. Müəllif yazır: "*......Əgər azərbaycanlının fonetikasında h məxrəci olmasa, səs əvəz olunardı. Məsələn bizdə ц afrikatı olmadığı üçün цirk sözünü sirk deyir və yazırıq. Yaxud ruslarda h, ə , ü səsləri yoxdur və Həsən, Hüseyn isimləri Гасан və Гусейн deyilir və yazılır"* [ 25, s .141].

Beləliklə, ümumi filoloji qənaətə görə, h səsi ilə başlayan sözləri birmənalı şəkildə yalnız yad ünsürlərin təsiri ilə izah etmək məqbul hesab olunmamalıdır.

## 1.4.Səsdüşümü (eleziya) hadisəsi

Azərbaycan dilində səsdüşümü fonetik hadisəsi həm sait, həm də samitləri əhatə edir. Səsdüşümü hadisəsi ədəbi dildə olduğu, Azərbaycan tapmacalarının dilində də

geniş yayılmışdır. Tapmacaların dilində də söz ortasında saitin düşməsi hadisəsi, ümumən, aşağıdakı hallarda baş verir:

I.Sözün tələffüzündə sait səslərin düşməsinin başlıca səbəblərindən biri vurğudur. Bu hadisəyə ən çox məruz qalan qapalı saitlərdir. Qapalı saitlər içərisində də dodaqlanmayan səslər vurğusuzluq nəticəsində düşməyə daha artıq həssasdır. Ancaq bu, açıq saitlərin də düşməsi faktını inkar etmir: açıq saitlər zəifləyərək öncə qapalılaşır, sonra isə tamamilə düşür. Məs.:

1) ***qapalı saitlərin düşməsi***-

Gəlin, gedək fındığa,
Alnımıza gün doğa
Quştarda necə quş var
Dən götürməz dimdiyinə (Yarasa) [ H.Z, s.42]
Bir itim var, hürər-hürər burnu şişər (Cəhrə) [H.Z,s.28],
Mənim maral öküzüm,
Qarnı xaral öküzüm,
Yol üsdə gedə bilməz,
Çəpər yaran öküzüm (Barama qurdu) [V.X,s.85],
Buxarı, ha buxarı
Buxarıdan yuxarı,
Ordan bir oğlan çıxdı,
Çiyni qara çuxalı (Ocaq) [V.X,s.32],
Tabaq qabaq içində,
Sübhü sabah içində,
Dayanıb ayaqüstə,
Ətri də var içində (Mixək gülü) [V.X,s.47],
Sarıdı sətlan kimi,
Aladı qətran kimi,
Boynu uzun qaz kimi,
Yumrucadır qoz kimi (Boranı) [H.Z,s.52],
O nədir ki, cismi arıq,

Əsnəsi yumru, burnu yarıq (Çəkic) [V.X,s.52] və s.

Qeyd etmək lazımdır ki, bəzi sözlərdə qısa tələffüz edilən qapalı ı, i, u, ü saitlərinin düşməsi dilçilik ədəbiyyatlarında indiyədək istənilən səviyyədə işlənilməmişdir. Bunu nəzərə alaraq həmin məsələnin üzərində bir qədər geniş dayanmağı məqsədəuyğun hesab edirik.

Azərbaycan dilçilik ədəbiyyatında bu məsələdən başlıca olaraq iki alim – Ə.M.Dəmirçizadə və M.H.Hüseynzadə bəhs etmişdir. Ə.M.Dəmirçizadə bu səslərin düşməsini qısa tələffüzü ilə əlaqələndirmişdir O, səslərin tələffüz xüsusiyyətlərindən bəhs edərkən göstərir: *"Tam adi və ya uzun bir sait ilə başlanan şəkilçi qəbul etdikdə söz kökündən düşən **ı** saiti qısa səslidir; məs. alın-alnı, qarın-qarnı və s. ....Özündən sonra tam saitli bir heca qəbul etdikdə, sözün son, ikinci hecasından düşən **u** saiti söz kökündə qısa tələffüz olunur. Məsələn, burun-burnu, boyun-boynu"* [18, s. 62]

Ə.M.Dəmirçizadənin bu fikri, "zənnimizcə", daha ağlabatandır. Lakin müəllif həmin əsərdə ***ı, i, u, ü*** saitlərinin düşməsini tədqiq etməyi qarşısına məqsəd qoymadığından, məsələni tam təfərrüatı ilə izah etməmişdir. Çünki qısa tələffüz edilən bu saitlər həmişə deyil, yalnız müəyyən şəraitdə düşür; məsələn, alın sözünün sonuna saitlə başlanan şəkilçi əlavə etdikdə ı düşür (alın-alnı), amma kağız, yarpız, qarpız, alış(maq) tipli sözlərdə son saitlər düşmür (kağızı, yarpızı, alışır). Halbuki bu saitlərin tələffüzü, təxminən, eyni vəziyyətdədir – qısadır. Bundan başqa, boyun və soyuq sözlərindəki u saitlərinin hər ikisi qısa tələffüz edildiyi halda, birinci sözdəki u düşür, ikincidəki isə düşmür.

M.H.Hüseynzadənin fikrinə görə, "*bu qanun, başlıca olaraq, son hecası y, ğ, r samitləri ilə başlanan və n samiti ilə qurtaran ikihecalı sözlərə aiddir"* [61, s.58] Lakin dilimizdəki qəbir, qədir, ətir, Misir, ötür, sətir, fikir, abır, qisim, cisim, isim, əsil, fəsil kimi onlarla faktlar bu hökmün birtərəfli olduğunu sübut edir. Çünki bu sözləri son hecaları nə n samiti ilə bitir, nə də y, ğ, r samitləri ilə başlayır.

Faktik dil materialları tapmaca nümunələri üzərində apardığımız müşahidə nəticəsində belə bir qənaətə gəldik ki, *i, u, ü, ı* saitləri aşağıdakı hallarda düşür:

1. *ı, i, u, ü* saitləri qısa tələffüz edildiyi zaman düşür.

2. Bu saitlər ikihecalı sözlərdə düşür.

3. İkihecalı sözlərdəki birinci heca açıq, ikincisi qapalı olmalıdır.

4. Belə ikihecalı sözlərin sonu, əsasən sonorla (*r, l, n, m*) qurtarmalıdır və s.

Digər tərəfdən, əgər ikihecalı sözlər ərəb-fars mənşəlidirsə, saitlə başlanan hal və mənsubiyyət şəkilçilərini, türk mənşəlidirsə, yalnız mənsubiyyət şəkilçilərini artırmaq lazımdır. Onu da qeyd edək ki, bu qanunauyğunluq sonu *z, f, b* ilə qurtaran (ağız, sinif, eyib, heyif və s.) sözlərə də aiddir. Məsələn:

Ağzı aşağı tökülməz,
Qırağı qıldı sökülməz ( Göz) [H.Z, s.16] və s.

Onu da xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 avqust 2004-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə yuxarıda sadaladığımız sözlərin ədəbi tələffüzdə olduğu kimi iki heca ilə yazılışı qəbul olunmuşdur: qədir, qəbir, səbir, heyif, meyil, əsil, şeir və s. [10, s.6].

II. Ora, bura , hara sözlərində hallanma zamanı (yönlük, yerlik və çıxışlıq hallarında) a saiti səsi düşür. Məs.:

Əl dutmaz, bıçaq kəsməz,
Ondan şirin harda var (Yuxu) [H.Z,s.19]
Ey quş hardan gəlirsən?
Qanlı qaya dibindən!
Qanın nöşün quruyub?
Allah beylə buyurub! (Quyruq) [H.Z, s.43]
Burdan vurdum baltanı,
Ordan çıxdı qaltanı
Yerin, göyün soltanı (Gün) [V.X, s.42] və s.

III.Başqa dillərdən alınmış sözlərdə sait düşür. Dilimizin qanununa görə iki sait yanaşı işlənmir. Tələffüz zamanı alınma sözlərdəki iki yanaşı saitdən biri düşür, digəri isə ya uzanır, ya da adi halda tələffüz olunur. Məs.:

Nə yerdədir, nə gökdə
Təxtrəvan üstündə (Gəmi) [H.Z,s.64] və s.

Qeyd edək ki, saitlərin və bəzən bütöv hecanın düşməsinə dilimizin əvvəlki dövrlərinə aid yazılı abidələrdə də rast gəlmək olur. Birmənalı şəkildə qeyd olunmalıdır ki, həmin nümunələrdəki saitlərin düşməsi heç də üslub xatirinə edilmiş xəta kimi deyil, dildəki qanunauyğunluğun təzahürü kimi götürülməlidir. Nümunələr:

Yar mehmanımız oldu, gəlin ey canü könül,
Qılalım sərf, nəmiz var isə cananımıza [44, Füz, s.56 ],
Der idi: var imdi müjdəkani [ 40, XƏ, s. 112 ]
Başına dönməkdən əlmi götürrəm,
Can mürğü zülfündə yuvarlanıbdır [ 41,VƏ, s.49 ],
Müjdə gətti bizə qasidi-çalak bügün,
Könlümüz tazələnib oldu fərəhnak bu gün [ 26. Heyran xanım, s.27] və s.

2) *samit səslərin düşməsi*

Tapmacaların dilində samit səslərin düşməsi hallarına daha çox təsadüf olunur. Lakin bu düşmə hadisəsi bütün samitlərə eyni dərəcədə aid deyildir. Tapmacaların dilində ən az səs düşümü olan sonorlardır (bu cəhətdən onlar saitlərə çox yaxındır), ən çox səs düşümü olan kar samitlərdir, cingiltili samitlər isə təxminən, orta mövqe tutur.

Ümumiyyətlə, səsdüşümü hadisəsinə uğrayan heç bir samit səs (fonem) itib-batmır, öz yerində boşluq qoyub getmir; hecanın tipi dəyişir, söz yeni ahəng kəsb edir; sözün leksik mənası, yaxud qrammatik məna və vəzifələri dəyişə bilir. Sonuncu mülahizələri əyani başa düşmək üçün tapmacalarımızın dilində çox fəal işlənmiş *tozanaq* sözündəki səsdüşümünə diqqət yetirək. Məlumdur ki, tozanaq sözünün kökü toz kəlməsidir. Sual oluna bilər ki, bəs – "anaq" nədir? Təbii ki, dilimizdə feillərə qoşulan -anaq$^2$ şəkilçisi var (döy-ənək, boğ-anaq…) amma isimlərə belə bir şəkilçi qoyulmur. Bəs tozanaq necə əmələ gəlib? Araşdırmamıza əsasən, vaxtı ilə toza feili olub, -anaq$^2$ şəkilçisi toz isminə yox, toza feilinə artırılıb, yanaşı gələn iki a saitinin biri düşüb və toz-a-anaq sözü toz-anaq şəklini kəsb edib.

*3) sonorların düşməsi*

a) Söz ortasında ***n*** səsi düşür. Məs.:

Qapqara qatmış-qılıcın uzatmış ( Buynuz) [H.Z,s.42].

N səsinin söz kökündə düşməsi dilimizin qədim dövrlərində də olmuşdur. Məs.:.....çalışanda qara polat üz qılıcın kütəlməsin [32, "KDQ, s. 35]

Həqdən əzəli qılıc belümdə [22, N, s.402],

Adəmi, fəzli xuda bil adəmi, Kainata kətxuda bil adəmi [Yenə orada, s.417].

b) Söz ortasında və sonunda l səsi düşür. Məs.:

Sarıdı, zəfəran dögü,
Yazludu Quran dögü ( Qızıl pul), [H.Z, s.39],
Qaradır, qarğa dögü,
Qanatlıdır, quş dögü,
İyi bilir, tula dögü ( Dozanqurdu) [H.Z, s.49].

L səsinin söz kökündə düşməsi dilimizin yazılı ədəbi nümunələrində çox az təsadüf olunur. Məs.:

Kiprigindən canşikar oxlar düzəlmişsən, vəli, Qaşlarun oxa kəman
etmək dilərsin, etməgil [22, N, s.240].

c) Sözün ortasında və sonunda ***r*** səsi düşür. Məs.:

Suva girər lilləni
Sudan çıxar dilləni**.** (Yuxu) [ H.Z, s.32]

Başında papaq, əlində cıda əskər doğu (Qəlyan) [ H.Z,s.27]

Qızıl taş, gümüş taş, birin götü..,birin as (Ay və Gün ) [H.Z,s.35]

Nədi ki, yayda durar, qışda açılar (Nəfəs) [HZ, s. 19] və s.

R səsinin düşməsi dilimizin əvvəlki dövrlərində də mövcud olmuşdur. Məs.:

Şübhəsiz yoxdur belün çün kim, nə quşandun kəmər [22, N, s.398]

Yüzün nə nur imiş gör kim, göz qıpar ziyası [22, N, s.398]

Gördük bəyü bəyzadələrin yoxdu vəfası,
Çox-çoxdu cəfası [30, SH, s.12]

*4) Cingiltili samitlərin düşməsi*

a) Sözün əvvəlində və ortasında y səsi düşür. Məs.:

O tayda Usuf durur,
Qulağını qısıf durur ( Qayçı), [V.X, s.93].

Y səsinin düşməsinə dilimizin əvvəlki dövrlərində də rast gəlmək olur. Məs.:

Ey hüsn iyəsi çıxar dəmidir,
Aşiqlərə üşr ilə zəkatı [22, N, s.177; s.546]
Səndən sivay kimsəm yoxdur,
Məni qovma bu dərdən sən [42, Nəb, s.114]
Bəs ki, məni görcək mənə vəhşi kimi baxdın,
İndi dəxi Məcnun mənə həmta oia bilməz [42, Nəb, s.32]

b) Sözün ortasında d səsi düşür:

Günüz xanım,
Gecə qulluqçu (Yorğan-döşək) [ V.X, s.98]

Söz kökündə d səsinin düşməsinə dilimizin əvvəlki yazılı abidələrinin dilində də təsadüf edilir. Məs.:

Südü peniri bol, qaymaqlı çoban [32, KD, s. 52]
Günü parlaq, ağ, gecəni tar tazım [30, SH, s.104 ].

*5) kar samitlərin düşməsi*

Tapmacaların dilində kar samit səslər nə qədər davamlı olsalar belə, yenə onların da düşməsinə təsadüf edilir. Kar samitlərin sırasında ən çox səs düşümünə "məruz qalan"ı ***h*** samitidir.

a) Söz əvvəlində və sonunda h səsi düşür. Məs.:

Saba, saba duraram,
Bunu sənə deyərəm (Göz) [ H.Z, s.16]

Söz kökündə h səsinin düşməsi başqa türk dillərindən ən çox qazax dilində özünü göstərir. Məs.: güna (günah), nəs (nəhs) [67, s.220; s.24; s.251] və s.

b) Tapmacalarımızın dilində mövcud olan alınma sözlərdə bir qayda olaraq, kar samitdən sonra gələn t səsi (bəzən onunla birlikdə sait də) düşür.

Məs.:

On bir adam bir bağda,
On iki şamama bir tağda,
Dos gedib birini dərdi

On bir qaldı, bit tağda ( Ad) [ V.X, s.89] və s.

## 1.5.Səslərin fərqləşməsi (dissimilyasiya) hadisəsi

Ədəbi dildə olduğu kimi dissimilyasiya hadisəsi Azərbaycan tapmacalarının dilinə xas olan fonetik hadisələrdən sayılır. Assimilyasiyanın əksinə olaraq dissimilyasiya hadisəsində eyni və yaxud bir-birinə yaxın məxrəcdə olan samitlərdən biri digərinə təsir edərək, onu öz məxrəcindən uzaqlaşdırır. Sadə dillə desək, eyni cinsdən olan iki səsdən biri həmin səsdən az və ya çox dərəcədə fərqlənən başqa bir səslə əvəz olunur, ya da tamamilə düşür. Uyuşmaya nisbətən səsfərqləşməsi tapmacalarımızın dilində çox az yayılmış kombinator səs hadisəsidir. Uyuşma samitlərin ahəngi ilə bağlıdırsa, məlum olduğu kimi, dissimilyasiya tələffüzdəki çətinliklə şərtlənir. Bu hadisə, əsasən, sonorlara daha çox aid olsa da, yalnız onlarla məhdudlaşmır. Bu hadisə həm yanaşı gələn, həm də bir-birindən uzaq səslər arasında baş verə bilir. Fərqləşmə (dissimilyasiya) hadisəsinin dilimizdə iki növü var: irəli fərqləşmə, geri fərqləşmə. Ədəbi dildən fərqli olaraq tapmacalarımızın dilində səs fərqləşməsinin hər iki növü müşahidə olunur.

*a) Azərbaycan tapmacalarının dilində irəli dissimilyasiya hadisəsi*

İrəli dissimilyasiyada eynicinsli səslərdən ikincisi başqa səslə əvəz olunur. Bu hadisə daha çox alınma sözlərdə özünü göstərir.

Qeyd edək ki, ədəbi dilimizdə bunlardan yalnız irəli fərqləşmə müşahidə olunur: qararmaq-qaralmaq, sararmaq-saralmaq və s.

Ə.Əfəndizadə bu barədə yazır: *“Qararmaq sözündə **r** samitlərinin təkrarlanması tələffüzdə ağırlıq yaratdığı üçün həmin səslərdən biri **l** səsi ilə əvəz olunmuşdur”* [19, s.138].

Tapmacaların dilində dissimilyasiyanın aşağıdakı kəmiyyəti özünü göstərir.

1. **r>l.** Söz kökündə olan ***r*** sonoru və ya onlardan biri (sonuncusu) l sonoruna keçir. Məs.:

   Bir çuvalım var xanayı,
   Xana üzü görməmiş.

İçi dolu sarı buğda idi,

Zərəl üzü görməmiş (İydə) [H.Z,s.59] və s.

Başqa sözlə desək, nümunələrdə kipləşən titrək yuvaq **r** samiti özündən sonra gələn *r* samitinə təsir edərək onu məxrəcindən uzaqlaşdırıb, kipləşən-süzülən diş samitinə çevrilmişdir.

**b>m**; (hambal-hammal**).**

Bizim qapıda bir hammal var,

At başından böyükdü (At və başı) [ H.Z, s. 42] və s.

Bu tapmaca nümunəsində isə yanaşı gələn iki qoşadodaq kipləşən-süzülən ağız ***m*** samitindən biri digərinə təsir edərək onu əmələgəlmə üsuluna və yumşaq damağın vəziyyətinə görə özündən fərqlənən kipləşən-partlayan ağız b samitinə çevrilmişdir.

*b) Azərbaycan tapmacalarının dilində geri dissimilyasiya hadisəsi*

Geri dissimilyasiyada eynicinsli səslərdən birincisi başqa səslə əvəz edilir. Tapmacaların dilində nadir hallarda geri fərqləşmə hadisəsi də müşahidə olunur. Bu da ən çox alınma sözlərin tələffüzündə rast gəlinir;

Tranvay atı, dəmirdən qatı,

Bəndə əlində Allah qüdrəti (Gəmi) [V.X, s. 64]

Bu tapmaca nümunəsində tramvay sözündə dodaq-diş v samiti özündən əvvəl gələn qoşadodaq m samitinə təsir edir, onun əmələgəlmə yerini dəyişdirərək dodaqlardan diş arxasına keçirir.

Azərbaycan tapmacalarının dilində nisbətən geniş yayılmış novlaşma hadisəsi də geri fərqləşmə hadisəsinə nümunə ola bilər. Belə ki, nümunələrdə kipləşən-novlu samitlər (***ç, c***) kipləşən-partlayan samitlərdən əvvəl işlənərkən, bir qayda olaraq, öz kipləşmə mərhələlərini itirir, öz tərkib hissələrinə daxil olan novlu samitlərə çevrilir və beləliklə, özlərindən sonra gələn kipləşən samitlərdən daha çox fərqlənirlər: uçdu əvəzinə uşdu.

Saman uşdu**,** danəsi qaldı (Çəltik) [ V.X, s. 57]

Eyni hadisə tapmacaların dilində kipləşən-novlu samitlər kipləşən-süzülən ağız samitlərindən əvvəl işlənərkən də müşahidə edilir: (saçlı-saşlı//saşdı, saçlar-saşlar//saşdar; güclü-güjlü//güjdü; ağaclı-ağajdı//ağaşlı).

Ağaş başında qozu pıçalaklı kişi (Əzgil) [V.X, s. 13]

Ağaşda bağlı buxça (Yuva) [Yenə orada, s. 13].

Bu nümunələrdə uyuşma və fərqləşmə hadisəsi eyni zamanda baş verir. Belə ki, əvvəlcə l samiti d samiti ilə, sonra isə d kipləşən-partlayan samitinin təsiri ilə ç və c samitlərinin kipləşən-süzülən burun m samitindən əvvəl öz fonoloji-akustik keyfiyyətini saxlaması bu fikri bir daha təsdiq edir. Novlaşma zəminində yaranan əmələgəlmə üsuluna görə fərqləşmə hadisəsinə kipləşən-partlayan samitlər arasında da rast gəlinir (məktəb-məx'təb, Oqtay-Oktay, akt-axt və s.).

Əmələgəlmə üsuluna görə fərqləşmə hadisəsi yalnız tələffüzlə bağlı olduğundan təsadüfi fərqləşmə hadisəsi sayılır. Fərqləşmə hadisəsi ilə bağlı samit əvəzlənmələri tapmacalarımızın dilində çox az yayılmasına baxmayaraq, hal-hazırda ədəbi tələffüzdə də nəzərə alınır.

Dağdan gəlir dadıx suyu,
Heş kim onu dadammaz;
Nəziy toxur culfa bezi,
Heş kim onu geyəmməz ( Hörümçək toru ) [V.X,s.48] və s.

### 1.6. Səs fərqlənməsi (dissimilyasiya) hadisəsi

Səslərin söz tərkibində qarşılıqlı surətdə yerdəyişməsi fonetik hadisəsi dilçilik ədəbiyyatında səslərin yerdəyişməsi və ya metateza adlanır. Məlumdur ki, səslərin yerdəyişməsi hadisəsi ədəbi dilə xas xüsusiyyət deyil, həmçinin orfoqrafiya qaydalarına ziddir. Yerdəyişmə də başlıca olaraq, orfoepiya normaları əsasında əmələ gəlir. Səslərin yerdəyişməsi hadisəsi daha çox ümumi xalq danışıq dili ilə məhdudlaşır. Bu hadisə həm samitlər, həm də saitlərlə samitlər arasında baş verir.

Səslərin yerdəyişməsi hadisəsi ya uyuşma, ya da fərqləşmə hadisələri əsasında təzahür edir. Dilçilik ədəbiyyatında səslərin yerdəyişməsinin üç növü göstərilir:

1. Kvantitativ, yaxud kəmiyyətə görə yerdəyişmə uzun və qısa saitlərin yerdəyişmə hadisəsidir;

2.Məsafəli yerdəyişmə – bir-birindən aralı olan səslərin yerdəyişməsi hadisəsi;

3. Sadə metateza – yanaşı işlənən səslərin yerdəyişməsi.

Müasir türk dillərində səslərin yerdəyişməsindən danışan dilçilər yalnız bu dillərin şifahi, danışıq variantına müraciət etmişlər. Məsələn, Ə.M.Dəmirçizadə müasir Azərbaycan dilindəki yanaşı səslərin yerdəyişməsi hadisəsini loru danışıqla, xüsusən şivələrlə əlaqələndirir [18, s. 121].

A.Axundov da, təxminən, eyni fikri müdafiə edir: *"Səslərin yerdəyişməsi hadisəsi Azərbaycan dilində ən az müşahidə olunan fonetik hadisələrdəndir. Müasir ədəbi dilimizdə ona, demək olar ki, təsadüf edilmir. Nəzərə dəymələr daha çox ümumxalq danışıq dili ilə məhdudlaşır"* [6, s. 233]

Azərbaycan tapmacalarının dilində, həmçinin müasir ədəbi dilimizdə də bu hadisəyə təsadüf olunmur.

Qeyd edək ki, bu hadisə, əsasən, samit səslərə aiddir. Lakin tapmaca nümunələri üzərində apardığımız araşdırmalardan o da məlum oldu ki, bəzi hallarda yerdəyişdirməyə tapmacaların dilində saitlərin və ya saitlə samitlərin arasında təsadüf olunur. Tapmacalarımızın dilində yerdəyişimi hadisəsi iki şəkildə özünü göstərir: 1) yanaşı yerdəyişimi; 2) yanaşı olmayan yerdəyişimi.

Yanaşı yerdəyişimində bir-biri ilə yerlərini qonşu səslər dəyişir. Azərbaycan tapmacalarının dilində yanaşı yerdəyişmə yanaşı olmayan yerdəyişməyə nisbətən daha geniş yayılmışdır. Yanaşı yerdəyişiminin aşağıdakı tipləri vardır:

**pr>rp.**

Çiy ipəy, çiləmə ipəy,
Yüz min çiçəy bir yaprak (Ay və ulduzlar) [V.X,s.45]

**vr>rv**.

Hay gedən kişi,
Huy gedən kişi.
Mana bir givrəngə ət al
Nə ərqəq olsun, nə dişi (Göbələk) [V.X,s.61]

"Sağır nun səsi". Azərbaycan tapmacalarının fonetik xüsusiyyətlərini tədqiq edərkən müasir ədəbi dildə işlənən n samitinin tarixən 3 fonem variantı olduğunun şahidi oluruq: 1. Sonor **n** səsi; 2. "Sağır nun" səsi; 3. Qovuşuq [**ng**] səsi.

Velyar səsinin fonetik təbiəti ilə əlaqədar Azərbaycan dilçiliyində fikir müxtəlifliyi mövcuddur. Bu barədə E.Əzizov “Azərbaycan dilinin tarixi dialektologiyası” əsərində ətraflı bəhs etdiyinə görə həmin məsələnin üzərində dayanmağı lüzum görmürük. Yalnız onu xatırlatmağı məqsədəuyğun hesab edirik ki, Qərb dialekt və şivələrinə məxsus Azərbaycan tapmacalarının dilində velyar səsi həm söz köklərində, həm də şəkilçilərdə (yiyəlik hal, ikinci şəxs mənsubiyyət və xəbərlik şəkilçilərində) özünü göstərir. Məs.:

Atamın bir donu var,
Qatlamak olmaz,
İçi dolu ağ abbası,
Sanamağ olmaz (Göy üzü, ulduzlar) [V.X, s. 89]
Bir pəyə malım var,
İnəyimin olanı qaşqa (Çətənə) [ V.X, s. 148]
Üyün içində üycigər (Balış) [V.X, s.126]
Quyu quyunun içində,
Suyu suyunun içində,
Ilan ilanın arzında (Lampa) [V.X, s. 146] və s.

Tapmacalarımızın dilində samitlərə aid səs uyrunluqları da saitlərdə olduğu kimi ierarxiya qaydası mühüm yer tutur. Bütün səs uyğunluqlarında bu qaydanın aparıcı rolu özünü göstərir. Belə ki, fonoloji-akustik cəhətdən güclü olan səs nisbətən zəif olan səsi əvəzləyə bilir. Bu meylin əsasında da dillərin fonetik quruluşunda güclü səsdən zəif səslərə, karlardan cingiltililərə və sonorlara doğru diferensiallaşma meydana çıxır.

Azərbaycan tapmacalarının dilində işlənmiş samit səslərin əvəzlənmələrinə dair nəticə olaraq aşağıdakı qanunauyğunluqlar müşahidə olunur.

1. Dilarxası samitlər sisteminə daxil olan səs uyğunluqları yalnız bu sistemin üz daxilində baş verir. Söz əvvəlinə aid səs uyğunluqlarında bu, özünü daha qabarıq göstərir.

2. Tapmaca nümunələrinə əsasən, demək olar ki, dodaq samitlərində səs uyğunluqları dilimizdə çox zəifdir.

3. Dilarxası samitlərə daxil olan r, j samitləri ədəbi dildə olduğu kimi tapmacaların dilində də söz əvvəlində iştirak edə bilmədiyi üçün onların səs uyğunluqlarına söz sonu və ya söz ortasında təsadüf edilir. Bəzi hallarda, söz əvvəlində x-h səs əvəzlənməsinə də rast gəlmək mümkün olur.

4. Tapmacaların dilində dodaq samitlərindən səs əvəzlənməsi istiqamətində əsas yeri b samiti tutur. B samitindən isə v və m samitlərinə keçid müşahidə olunur və s.

# II FƏSİL
# AZƏRBAYCAN TAPMACALARININ LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

## 2.1.Azərbaycan xalq tapmacalarının dilində işlənmiş alınma sözlər

Azərbaycan dili uzunmüddətli inkişaf tarixi ərzində çox mürəkkəb, keşməkeşli yol keçmişdir. Lap qədimlərdən müxtəlif xalqlarla çoxtərəfli əlaqələr saxlayan xalqımız müxtəlif dillərə məxsus bir sıra zəruri sözləri alıb özününküləşdirmişdir. F. Ağasıoğlunun sözləri ilə desək, *dilin lüğət fondu öz qapısını qonşu xalqın sözləri üçün həmişə açıq saxlayır. Lakin bu açıq qapıdan o sözlər keçə bilir ki, onlara ehtiyac olur* [5, s. 217].

Dilimizə alınma sözlər iki yolla daxil olmuşdur: mənbə dil və yaxud başqa dillərin vasitəsilə. Məlumdur ki, bir dilə başqa dilin və ya dillərin elementləri iki yolla keçə bilər: birbaşa (vasitəsiz) və dolayı (vasitəli) yolla. Əlaqədə olan dillərdən birindən digərinə keçən elementlər vasitəsiz, bilavasitə əlaqədə olmayan və digər dillərin köməyi ilə bir-birinə keçən elementlər isə vasitəli elementlər adlanır. Məhz hər iki yolla alınan sözlərə Azərbaycan dilinin lüğət tərkibində geniş təsadüf edilir.

Azərbaycan xalq tapmacalarının dilində işlənən alınmaların böyük qismi ərəb və fars mənşəli, digər qismi isə ərəb, fars, türk və rus dili vasitəsilə alınan Avropa mənşəli sözlərdir.

***a) Tapmacalarımızın dilində işlənən ərəb mənşəli leksik alınmalar***

Azərbaycan dilində ərəb mənşəli alınmalar xüsusi çəkiyə malikdir. Ərəb və Azərbaycan dillərinin qarşılıqlı əlaqəsi, islam dininin təşəkkül tapması və yayılması ilə bağlı ərəb dövlətinin güclənməsi bir çox ölkələri, o cümlədən Azərbaycanı işğal etməsi ilə bağlıdır. Azərbaycanda islamın qəbul olunması, Quranın yalnız ərəb dilində oxunması, nəhayət islam dininə əsaslanaraq elm və mədəniyyətə diqqət göstərilməsi onların dilinin hegemon mövqeyə keçməsinə səbəb olmuşdur. Nəticədə ərəb və Azərbaycan dillərinin qarşılıqlı əlaqələri güclənmişdir. Ərəb dilinin ikinci təsir xətti məhz fars dili vasitəsilə olmuşdur. Tapmacalarımızın dilində işlənmiş bir qism ərəb mənşəli bəzi leksik alınmalara diqqət yetirək. Məs.:

Ay nənə, bizə yağ gətir,
İnəkləri sağ gətir.
Çaxlanmamış nehrədən
Ərinməmiş yağ gətir ( Bal) [V.X, s.94].

*Nehrə*, nəhr (çay) sözü ilə eyniköklüdür. Türk dillərində nehrə yerinə "qobe, gübə,qatıq" işlədilib. Hal-hazırda nehrə çalxalamaq yolu ilə qatıqdan yağı çıxarmaq üçün işlədilən iri küpə mənasındadır. Tapmacada bal ərinməmiş yağa bənzədilmiş dir. Görüntü etibarilə əridilməmiş yag ilə bal bir- birinə çox bənzədiyinə işarə olunmuşdur.

Sarı saqqal,
Uzun hoqqar,
Onu tapmıyan
Olsun naqqal ( Qarğıdalı) [V.X, s.67].

*Naqqal*, ərəb mənşəli sözdür, "boşboğaz, çərənçi, çoxdanışan" anlamındadır. Həmin söz Azərbaycan tapmacalarının dilində həm eyni, həm də müxtəlif mənalarda ("çoxdanışan, uzunçu", "lovğa, özünü öyən" , "tərs, höcət" , "həddindən artıq xəsis" ) işlənməkdədir.

“Azərbaycan dilinin izahlı lüğəti”ndə isə “boşboğaz, çərənçi, gəvəzə, çoxdanışan” və s. mənasında işləndiyi göstərilmişdir [ADİL, s.282]. Tapmacada qarğıdalının metaforik yolla bədii təsviri verilmişdir. Belə ki, qarğıdalının saplagı sarı rəngdə olur, gövdəsi isə uzun.

Tabaq- “qab” anlamında işlədilir.

Tabaq-qabaq içində,
Sübhü sabah içində,
Dayanıb ayaqüstə,
Ətri də var içində (Mixək gülü) [66, N.S, s.47]

Taxtadan və ya oyulmuş ağacdan hazırlanan dayaz, uzunsov, girdə qabdır. Mənbələrin verdiyi məlumata görə boşqab yerinə də tabaq işlədilən vaxtlar olub.

Bu ifadəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn.:

*Dolu nemət gümüş, altun çanaqlar,*
*Sinilər, təpsilər, bir-bir tabaqlar* [AKƏK-3; s.136],
*Mey bəslədi jalə hər varaqda,*
*Turac kitab oxur tabaqda* [Yenə orada, s.415].

Bu ifadə əksər türk dillərində fonetik dəyişikliyə uğrayaraq bəzən odadavamlı qab mənasında tava/taba/taban adları altında da işlədilmişdir. (1. Tava- Azərbaycan dilində; 2. Taba(n)- tatar,başqırd və qumuq dillərində və s). Hal-hazırda (Naxçıvan, Ordubad) dialekt və şivələrində “xonça” anlamında da işlədilir [ADDL, s.477].

*İllət*-“çatışmazlıq”, “qüsur”, “sübut” mənalarında işlədilir və s.

Ağacdan atı,
Dəmirdən qatı,
İnsan illəti,
Tanrı qüdrəti (Güzgü) [N.S. s.119].

Belə ki, bu sözə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik:

*ilət*- Azərbaycan dilində;

*elt*- türk, qumuq, qaraqalpaq, özbək, yakut, Krım tatarları və uyğur dillərində;

ilt- əski türk, tatar, başqırd dillərində;

*it*- başqırd dilində;

*ilet*-M.Kaşğarlının "Divanü-lüğətit-türk" əsərində və "Kitabi-Dədə Qorqud" dastanlarının dilində işlənərək bir neçə mənada öz əksini tapmışdır (*çatışmazlıq, qüsur, dəlil, əsas sübut, məqsəd, qayə* və s.). [38, s.233].

Bu ifadəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn:

Bu gecə söylə kim oğurluq qüla,
Ilətünüz Gülşahı ərlik ilə [MƏ, s.155].

İllət sözü bu tapmacada yalnız məqsəd anlamında işlənmişdir.

*Vəznə*-güllə və ya barıt qabı anlamlarında işlədilir.

Mən atamın vəznəsiyəm,
Cibinin xəzinəsiyəm,
Atam mənim oğlumdu,
Mən atamın yeznəsiyəm (Xoruz) [N.S, s.82].

Xalq arasında "güllələrin sandığına" (patronuna*) vəznə* deyilmişdir. Vəznənin əsli vaxtilə Qafqaz dağlılarının geyindikləri çuxaların döşündəki kisəciklərdir ki, içinə bəzək üçün patrona oxşar əşyalar qoyurlar.

Rus etimoloqu M.Fasmerin yazdığına görə *rus dilində "qilza" mənasında işlənən bu söz alman mənşəlidir* [120, s.266]. Ehtimal ki, həmin söz Avropaya Şərqdən keçib.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə vəznə sözü "kişi çuxaların döş hissəsinə tikilən ciblər və onlara taxılan patron şəkilli tikmələr" mənasında verilmişdir [ADİL, s.431].

*Al osman*- Osman övladı.

Gedir-gedir izi var,
Geri dönür, tozu var,
Al osmanda cəngi var,
Quyruğunda rəngi var (Xoruz ) [N.S, s.81].

Mənbələrdə "*Al osman*" sözünün əsli Ali Osmandır. Görünür, dilimizin fonetik qanunauyğunluğuna görə saitlə bitən sözdən sonra saitlə başlanan digər söz

işləndiyindən saitlərdən biri düşmüşdür. Qərb dialektində isə “uzaqda olan məkan, uzaq yer” anlamında da işlədilir. Məs.: xalq arasında belə deyim var:” Nə soruşurlar, ancaq al osmandan dəm verir”.

Bu ifadə ən çox Azərbaycan xalq dastanlarının dilində və yaşlı nəslin danışığında təsadüf olunmaqdadır.

*Ərz*- torpaq anlamındadır.

Dolanar bütün ərzi,
Aşar dağı, dənizi,
Gəzib göydə gecələr
Gəlib yerdə dincələr (Kosmonavt) [N.S.161**].**

Qafiyə xatirinə tapmacada “ərazi” qısaldılmış “ərz” şəklində işlənmişdir.

Bu ifadəyə klassik yazılı dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn:

Xəzinə qandalığın bildi bunlar,
Qolay ərz nerdə isə buldu bunlar [ Yenə orada, s.111].

Qeyd edək ki, əməli yazı nümunəsi kimi ərizə də ərəbcə “ərz” sözündən olub, amma başqa mənalarda “müraciət etmək” “ərz etmək” (xahiş etmək) mənasını bildirir.

*Fətir*- lavaşa (yuxaya)bənzər çörək növüdür.

Duzsuz fətir, unsuz fətir,
Nə isti deyir, nə soyuq,
Elə fətirdi ki, fətir ( Şan, bal) [N.S. s.97].

“Azərbaycan dilinin izahlı lüğəti”ndə həmin sözün mənası belə verilmişdir: “nazik yayılmış xəmirdən bişirilən” çörək, yayma, yuxa” [ADİL, s.221]. Tapmacaların dilində “fətir” sözü yuxa sözü ilə parallel işlədilmişdir. Yuxa sözündən fərqli olaraq fətir sözü tapmaca nümunələrində yalnız iki yerdə işlənmişdir. Yuxa sözünə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik:

1. *Yuxa- Azərbaycan və türk dillərində;*
2. *Yufka- özbək, uyğur dillərində, o cümlədən M. Kaşğarinin “ Divani- lüğatit- türk” əsərində;*
3. *Jupka- qırğız dilində;*

4. *Yuvka- qaqauz dilində;*
5. *Yüpkə- uyğur dilində;*
6. *Yubqa//Yuka- tatar dilində;*
7. *Yuqa: a- qumuq, altay dillərində* [ 70, s. 345].

Lakin "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə fətir sözünün işlənmə məqamına təsadüf etmədik.

Ancaq Qərb dialektlərində çörək növü kimi ən çox işlədilən ifadələrdən biri də məhz fətirdir. Tapmacada arının balı-şanının quruluşu və forması fətirə bənzədilmişdir.

*Əhəd*-( tək, vahid, bir) mənalarında işlədilir.

Əhədən yüz bəlalı,
Dərd canda yüz bəlalı,
Dörd quş var bir yuvada,
Hərəsi yüz bəlalı ( Qan, bəlğəm, səfra) [V.X, s.31].

*Əhəd* sözünün cəm forması "ahad"dır. Allahın (tək olanın) epitetlərindən biridir. "Əhədini kəsmək" ifadəsi də vardır. Sonuncu (yəni tək ,yeganə) sözü də yox etmək anlamında işlədilir. Nümunədə qan, bəlğəm və ödün "işləmə rejimi"nin pozulması nəticəsində canın yüz cür bəlaya düçar olmasına işarədir.

*Hoqqar*-" fırıldaqçı", "kələkbaz", " uzun" və s. anlamlarında işlənir.

Sarı saqqal,
Uzun hoqqar,
Onu tapmayan,
Olsun naqqal (Qarğıdalı ) [H.Z, s.67].

Hoqqar sözünə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn.:

Çox qılma mənimlə hoqqabazi,
Min must sənə urar mən azı [ AKƏK-3, s. 426]

Yerli dialektlərdə "işsiz-gücsüz, ucaboylu, avara" şəxslərə ikrah hissi ilə bəzən "uzun hoqqar" da deyirlər (Bakı, Bərdə, Çənbərək, Gədəbəy, Goranboy, Kəlbəcər,

Qazax) dialekt və şivələrində "uzun adam" mənasında işlədilir. Məs.: Əhməd hoqqarın biridi (Kəlbəcər) [ADDL, s.207].

Hoqqar sözü çox vaxt "uzun" sözü ilə birgə də işlənir. Dilçilik ədəbiyyatlarında dillərə məxsus eyni mənalı sözlərin birləşməsi nəticəsində düzəlmiş sözlərə hibrid, yaxud calaq sözlər deyilir. Bu calaq sözün "uzun" hissəsi millidir, hoqqar – ərəbcə olub, "uzun" deməkdir.

"Uzun hoqqar" calaq sözü bəzən danışıq dilində "uzundraz", "uzunarax" sözləri ilə sinonim kimi işlənir. Xatırladaq ki, həmin calaq sözlər də eyni mənanı ifadə edir. Uzunarax (Ağcabədi) şivəsində "ucaboy, uzun" anlamında işlədilməkdədir. Məs.: Həsən uzunarax bir adamdı [ADDL,s. 522].

*Əllaf*- "ot, taxıl, un satılan dükan" mənasındadır

Bir dükanım var, həmi məxmər dükandır,
Həmi əllaf dükanı, həmi odun dükanı (İydə) [V.X, s.59].

"Azərbaycan dilinin izahlı lüğəti"ndə əllaf sözünün iki anlamda işlədildiyi göstərilmişdir; 1. "ot, saman, ələf satan"; 2. "taxıl alveri edən tacir" [ADİL, s. 95].

Bəzən tapmacaların dilində əllaf fonetik dəyişikliyə uğrayaraq "allaf" kimi də işlənməkdədir.

*Hatəm*- "çətinlikləri həll edən, comərd, əliaçıq, səxavətli " və s. anlamlarında işlədilir.

Hatəm-hatəm hətdədi,
Hatəm koxa kəntdədi,
Dili qarnı altında,
Dodağı dal qatdadı (Xırman, vəl) [V.X, s.67].

Ərəb mənşəli bu söz el arasında *hətəm* kimi də işlədilir. Hərfi mənası "çətinlikləri həll edən" deməkdir. Ad kimi Hatəm Tai (səxavət simvolu kimi adamın adı) ilə bağlı yayılıb. Mənbələrdə Hatəm Tai VI-VII əsrlərdə yaşamış, ərəb əmiri və şairi olmuşdur. Sonsuz səxavətlərinə, çox mərdliyinə və kəramətinə görə adı dillər əzbərinə çevrilmişdir. Şərqdə Hatəm haqqında bir sıra rəvayətlər yayılmışdır [ 71, s.267].

“Azərbaycan dilinin izahlı lüğəti”ndə hatəm “əliaçıq, səxavətli, comərd” anlamlarında işlənməkdədir [ADİL, s.124]. Tapmacada əkinçilik alətinin “səxavət”liliyinə işarə olunmuşdur.

Kərə- “dəfə” anlamındadır.

İnəyim var eşikdədi,
Ayı-ili eşikdədi,
İldə bir kərə sarılar,
Üzü yenə eşikdədir (Bar) [H.Z, s.112].

Kərə “*dəfə*” mənasında ədat kimi hal-hazırda ədəbi dildə və danışıq dilində işlənməkdədir. Məsələn:

Hər birinin zülfü bir müşkün kəmənd,
Hər *kərə* bin aşiqın canına bənd [AKƏK-3, s.150].

“Bir *kərə* yüksələn bayraq bir daha enməz!”- şüarında işlədilmiş “kərə” sözü “ dəfə” anlamında işlənmişdir.

Qeyd edək ki, ədəbi dilimizdə, eyni zamanda, “gəz” ədatı da “dəfə” Güləndam nə qılır anı gəz gürəlim [AKƏK-3, s. 145].

Tapmacada barlı-bərəkətli bar inəyə bənzədilmişdir. Belə ki, barda məhsulun yığılması, inəyin südünün sağılmasına (süd-bolluq rəmzi kimi) oxşadılmışdır.

*Əsgər*- hərbi qulluqçu, ən kiçik( oğul)

Böyük əsgər kiçik,
Hökmü padşahdan böyük ( Uşaq) [ H.Z, s.104].

*Əsgər* ərəbcə “əsakir” sözündən olub, dilimizə fonetik dəyişmə ilə daxil olmuşdur. Tapmacada kiçik uşağa olan ehtiram və nəvaziş öz əksini tapmışdır.

*Fitil*- piltə mənasında işlədilir.

Əldə fitil,
Ordan itil.
Hara dəysə,
Qalar mitil (Top gülləsi) [VX, s.140].

"Azərbaycan dilinin izahlı lüğəti"ndə fitil lampa və şamda yanan ip, qaytan anlamlarında işlədilmişdir [ADGL, s.109]. Tapmacada top gülləsi fitilə bənzədilmişdir. Topun güIləsi hara dəysə, oranı yandırıb-darıtmasına işarədir.

*Zəbərcad*- qızıla çalan yaşılımtıl rəngli qiymətli daş, hacət isə zəruri və lazım olan şey , ehtiyac anlamlarında işlədilir.

Təkər üstündə zəbərcat,
Gəlin barmarına hacət ( Üzük) [V.X, s.72].

Bu alınma sözlərə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn:

Zəbərcəddən həm ördəklər dizildi,
Kənarına suyun çevrə dizildi [ AKƏK-3, s. 138]
Xod nə hacət**,** bunca bu lütfü kərəm,
Razıyam bən sana, səni sevərəm [AKƏK-3, s. 158].

Tapmacada üzüyün zahiri formasına işarə olunmuşdur.

*Yesir*-valideynlərindən hər ikisi və ya biri ölmüş uşaq.

Bir balaca misir,
Aləm onun yesiri.

*Yesir*, əsir sözünün dəyişmiş formasıdır. Əvvəllər bizdə "yetim" anasız, "yesir" isə atasız qalana deyilmişdir. Müasir, gündəlik danışıq dilində "yetim-yesir" sinonim mənalı sözlər kimi işlənməkdədir ("yetim-yesir" sözü valideynlərinin hər ikisini itirmiş və ya biri ölmüş mənasında).

Bu ifadəyə qədim yazılı abidələrin dilində də təsadüf etmək mümkündür:

Bu eşqilə kim, *yesir* oldum,
Dər vəqti-cəvani pir oldum [AKƏK-3, s. 424]
O ruhi- salihə məsturi-xatun
Neçə tutsaq *yesir* almışdı satun [AKƏK-3, s.132].

Qeyd edək ki, hətta bəzi şivələrdə bu mənada "səqir" süzü işlənir. Səqir sözü özbək dilinin Kokand şivəsində "yetim" mənasındadır. Qərb dialekt və şivələrimizdə "ələmyesir, sağır-yesir, əsir-yesir" sözləri işlənməkdədir.- *Elə geyinif ki elə bil ələmyesirdir. Əlində əsir-yesir qalmışam* ( Borçalı). Tapmacanın

kontekstindən aydın olur ki, çox insanlar kiçik həcmli qızıldan ibarət olan bəzək əşyalarının aludəçisi, “yesiridir”. Xatırladaq ki, “yesir” sözü dilimizdən rus dilinə (esirc) şəkilində keçmişdir.

*Libas*-“geyim, paltar mənalarında işlədilir.

Yaşıldı abası
Sarıdı libası (Badam) [H.Z, s. 74].

Bəzi dialektlərdə, xüsusilə Qərb dialektində “liva” kimi də səslənir.”Üst-başın nə livadadır?” (livada-pis görkəmdə). Tapmacada badamın zahiri görünüşü (portreti) təsvir olunmuşdur. Maraqlıdır ki, əksər tapmacalarda meyvələrin xüsusiyyətlərini sadalayanda ulularımız əsas iki cəhəti qabartmışlar: içini və çölünü. Bu nümunədə badamın içinin “sarı”, üzünün “yaşıl” (kal) olmasına işarə olunmuşdur. Sual oluna bilər ki, bu əlamətlər tapmacanın cavabının tapılmasına kömək edə bilərmi? Məhz cavabı düyünə salmamaq üçün başqa meyvələrin oxşarlıqları sadalananda iş asanlaşır.

İçi qırmızı, çölü boz,
Üstü yemiş, içi qoz (Şaftalı) [V.X, s. 126].

Mətndə meyvənin iki tərəfinin dörd əlaməti verilir. Uşaq tapmacanı eşidən kimi düşünür: görəsən, hansı meyvənin içi qırmızı və qozludur, çölü isə boz və yemişəbənzərdir? Əlbəttə, şaftalının.

*Loxma*-bir dəfədə ağıza qoyulan xörək və ya çörəyin müəyyən hissəsi, tikəsi.

Mən aşiq içi dəri,
İçinin içi dəri
Aşıq bir loxma yeyib
Üzü ət, içi dəri ( Quş pətənəsi) [V.X, s.46].

Loxma**,** əsli ərəbcə ( lüqmə “tikə” deməkdir). Azərbaycan dialekt və şivələrində ( Gədəbəy, Gəncə, Mingəçevir) həmin sözün köməyi ilə düzəlmiş “loxmalamaq” (tikə-tikə etmək, parça-parça etmək) anlamında işlədilir.

--Muna bax, çürəyi gürməmiş kimi loxmalayır ( Gəncə) [ADDL, s.336]. Tapmacada quş pətənəyinin “loxma” kimi hər tərəfdən dəri ilə örtüldüyünə işarə olunmuşdur.

### *b) Tapmacaların dilində işlənmiş fars mənşəli leksik alınmalar*

Azərbaycan dilində fars alınmaları problemlərinə toxunan tədqiqatçıların əksəriyyətinin fikrincə, bilavasitə XIII-XIV əsrlərdən, yəni ərəb dilinin getdikcə öz nüfuzunu itirməsindən sonra fars dilinin Qafqazda geniş şəkildə yayılmasının bünövrəsi qoyulmuşdur. Bu məsələyə toxunan H.Mirzəzadə yazır: *"Ərəblərdən sonra hakimiyyət başında duran farslar, XIII-XV əsrlərdə Azərbaycanda ağalıq edən monqollar və başqaları rəsmi dövlət işlərində fars sözlərinin saxlanması ilə bərabər, mövcud ərəb sözlərinin də yayılmasına şərait yaratmışdır"* [72 , s.26]

Təbii ki, bu fikirlə razılaşmaq çətindir. Məlum olduru kimi, tarixi-coğrafi şərait elə olmuşdur ki, bu iki xalq çox qədim zamanlardan bir-biri ilə həmsərhəd olan ərazilərdə, bir çox hallarda isə qarışıq şəkildə məskun olmuşdur. Məsələn, T..Hacıyev və K.N.Vəliyevin fikirlərinə görə *"irandilli tayfalar Midiya və Atropaten ərazilərində eradan əvvəl VIII-lX əsrlərə qədər yaşamışlar"* [25, s.15] Müəlliflər daha sonra göstərirlər ki, ... *türk etnosları bu ərazinin ən qədim sakinləridir.*

Verilən qısa izahatdan aydın olur ki, Azərbaycan - ərəb dil əlaqələri tarixən qədim olub, dərin köklərə malikdir: Əlbəttə, o da inkar edilməzdir ki, Azərbaycan dilinə fars sözlərinin daha çox daxil olması XIII-XIV əsrlərdən başlamış və geniş xarakter almışdır: *"Bu proses ərəb dilinin Qafqazda qüvvətlənməsi ilə əlaqədar olmuşdur. Məlum olduğu kimi, XIII-XIV əsrlərdən başlayaraq istər Orta Asiyada , istərsə də Qafqazada ərəb dili sıxışdırılmış və bunun yerini fars dili tutmağa başlamışdır. Bu zaman fars dili bir tərəfdən başqa dillərə təsir etmiş, digər tərəfdən, ərəb sözlərinin daha geniş yayılmasına imkan yaratmışdır"* [ 74, s. 197-198]

N.Xudiyevin qeyd etdiyi kimi, ".... q*onşu xalqların qarşılıqlı münasibəti öz əksini bilavasitə dildə tapır"* [36 , s. 225-226]

Tapmacaların dilində işlənmiş fars mənşəli alınma sözlərin bir qisminə diqqət yetirək. Məs.:

Kişnə, kişnə, kəhər at,
Düzün saxla, pisin at,
Ayağında qıl sicim
Kişnə gözəl kəhər at ( Saz) [V.X, s.94].

*Sicim* , fars mənşəli sözdür; *si* hissəsi sə (üç) sözünün dəyişmiş formasıdır. Sicim çatının bir növüdür, üç teldən hörüldüyü üçün belə adlanıb. Yastı olur. El arasında sicimin hörülmə formasına görə "içəm" də deyilir.

Aşağıdakı tapmacanı isə belə kodlaşdırmaq olar; sazın səsi atın kişnəməsinə, üstündəki simlər isə sicimə bənzədilmişdir.

*Qumaş*-qiymətli qırmızı pambıq parça, arşın malı,( **cəmi,** əqmişə sözündəndir).

Yaşıldı başı,
Tökülər yaşı,
Dalında iki qardaşı
Qabağında al qumaş ( Mürəkkəb) [H.Z, s.23].

Azərbaycan dilində qumaş həm parça növü, həm bənzətmə vasitəsi kimi, həm də qadın adı olaraq işlənməkdədir. Azərbaycan ədəbi dilinin hər bir dövüründə qumaş kəlməsi həqiqi və məcazi mənalarında işlək olmuşdur:

Hər şey günəşə qurutdu yaşın,
Qövsi-quzeh açdı tər qumaşın [ AKƏK-3, s.417]
Cövhərü altun, gümüş, rəxtü qumaş,
Cümlə sənin, bən sana bir qaravaş [AKƏK-3, s.158]
Qumaş düzdü Krımda dürlü, əlvan,
Nə dürlü hiylə edər ol nətavan [AKƏK-3, s.116] və s.

Qeyd edək ki, qumaş sözü dilimizdən bir sıra dillərə, o cümlədən rus dilinə də keçmişdir. Hətta rus dilində "kumaç" (qumaş) türkizmi sözyaratma imkanları da əldə etmişdir.

Verilmiş tapmaca nümunəsini aşağıdakı kimi kodlaşdırmaq olar:

Yaşıldı başı- qələm,
Tökülər yaşı- mürəkkəb( göz yaşı),
Dalında iki qardaşı- iki barmaq,
Qabağında al qumaş- kağız.

Tapmacada insanın mürəkkəbdən istifadə edərək kağızda yazı yazmasına işarə olunmuşdur.

*Axta*- "burmaq", "cızmaq"," kəsmək", "içini boşaltmaq" və s. kimi mənalarında işlənir.

Aya bax axtalanıb,
Qapılar taxtalanıb.
Meydana bir at gəlib,
Burnundan noxtalanıb (Kitab ) [V.X, s.18].

*Axta*, fars dilinin məsdər formasında (**axtərən**) kimi işlədilir. Dilimizdə də onun məsdər forması olub, özü də "ğ" ilə "ağtarmaq"yazılıb.

Belə ki, bu sözə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik:

1. *Ağta- türk dilində;*
2. *Ahda- Azərbaycan dili və türk dillərində;*
3. *Axta- Azərbaycan, özbək və uyğur dillərində;*
4. *Aqta- qırğız , qazax, qaraqalpak, altay və tuvin dillərində* [70, s.104].

Eyni zamanda, həmin sözün türk dillərində işlənmə məqamlarında da müxtəliflik diqqəti cəlb edir. Məsələn.: *Axta at*- türk,qırğız, qazax, altay və tuvin dillərində; *Axta, xədim*- Azərbaycan dilində ; *Axtalanmış*- özbək, uyğur dillərində; *Tumsuz zoğal*- Azərbaycan dilində

Bu baxımdan qeyd edək ki, axtalamağın bir mənası da "ağacı (bitkini) kökündən çıxarmaqla" bağlı olub. İndi "axtalamaq" təkcə insan və heyvana aid işlənməklə məhdudlaşmır, çəyirdəyi çıxarılmış meyvə də *(bizim evdə axta zoğal yoxdur...(tumsuz zoğal))* axta deyirlər. B.Əhmədovun mülahizəsinə görə *"axta sözünün əsas mənası "astar tərəfi üz tərəfə çevirmək"* [20, s.14 ] deməkdir. Bizcə, bu mülahizə daha inandırıcıdır. Çünki "astar" sözünün tərkibindəki "ast" türk dillərinin çoxünda "alt" və "aşağı" mənasında işlənir. "-ara" və "-ar//-ər", eləcə də "-arı//-əri" şəkilçiləri dilimizdə bir çox sözlərin sonunda işlənir. Buna nümunə olaraq, "içəri", "dişar", "bəri", "bura", "ora", "hara" və s. göstərmək olar.

M.Kaşğari (yukar) – yuxarı sözünü 'üst yer//yuxarı yer", "yuk" sözünü isə "ust" tərcümə etmişdir [38- MK-, I c , s.25 ]

Yuxarıdakı izahatdan aydın görünür ki, “astar” sözü əslində ”alt tərəf”, “içəri tərəf” anlamındadır. Bu sözün leksik mənası da həmin müddəanı sübut edir, “astar” sözünün antonimi dilimizdə məhz “üz” sözüdür.

Tapmacada kitabın alt və üst tərəflərindən (üz qabığı anlamında) bağlı olmasına işarə olunmuşdur.

*Mismar*- mıx

Hənd oldu, ha hənd oldu,
Dəyirmana dən oldu,
Səksən iki taxta
Bir mismara bənd oldu ( Dəyirman pəri) [V.X, s.157].

*Mismar*, farsca “mis” (metal) və ”ar” (ilan) sözündən yaranıb, “dəmirdən hazırlanıb ilana bənzər” deməkdir. Azərbaycan dialekt və şivələrində “mismar” və ya “mıx” əvəzinə “kora” sözü işlədilir (“Koroyu kəlpətinnən çıxardıllar”) (Borçalı), “Koroyu atın əyağına nala çalerix” (Daşkəsən) [ADDL, s.258]. Tapmacada dəyirmanın pəri səksən iki taxtanın mismarla bərkidilməsinə bənzədilmişdir.

*Təkə*-uzunbuynuzlu qoç

A gedən kişi,
A gələn kişi,
Papağı yekə,
Ayağı təkə (Göbələk) [V.X, s.61].

Farslar buynuzlu qoça təkəl deyirlər. Bəzi mənbələrdə “təkə” erkək keçi və ya “dağ keçisi” anlamında da işlədilir.

*Keçi* sözü müasir türk dillərində müxtəlif fonetik variantlarda işlənir. Belə ki, bu söz Azərbaycan, türk və qaqauz dillərində keçi , türkmən dilində geji, özbək dilində keç:i, başqırd dilində kəzə, qaraqalpaq, qumıq, qırğız, özbək, altay dillərində eçki, uyğur dilində eçkö/eçkə/öçkə/öşkə, tatar dilində içki, noqay dilində eşki şəkillərində işlənir.

M. Kaşğari keçi variantını oğuz dillərinin xüsusiyyəti hesab edir [74, s.219].

Təkə sözünə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn,

Quzuqulağı, gülü qərənfil,

*Təkə* saqqalıvü göy sünbül [ AKƏK-3, s.429].

"Azərbaycan dilinin dialektoloji lüğəti"ndə bu sözə təsadüf etmədik. Tapmacada göbələk böyük papağı olan kişiyə bənzədilmişdir.

*Kəhər*- açıq-şabalıd rəngində olan ata deyilir.

Dağdan gəlir kəhər at,
Zalım, gözəl kəhər at,
Ayağında qıl sicim,
Budu gəldi kəhər at ( Qızılquş) [V.X, s.68].

Kəhər atın quyruğu və yalmanı qara rəngdə, dərisi isə kürən olur. Bəzən də mənbələrdə kəhər at "cavan erkək at" anlamında işlədilir. Tapmacada qızılquşun zahiri əlaməti , sürətli uçuşu kəhər ata bənzədilmişdir.

*Nər*-bir hörgülü, nəhəng erkək dəvəyə deyilir.

Gün çıxar axtalanar,
Qapılar taxtalanar,
Meydana bir nər gəlmiş,
Üç yerdən noxtalanar (Gəmi) [N.S., s.76].

Məlumdur ki, birhörgülü dəvə adları ilə ikihörgülü dəvə adları arasında fərqlər vardır. Nər sözü birhörgülü dəvənin erkəyinin adıdır. Bu söz bəzən lök sözünə sinonim kimi işlənir. Bəzi mənbələrdə nər "qorxmaz, güclü, qüvvətli, igid" anlamında da işlədilir. "Kitabi-Dədə Qorqud" dastanlarının dilində bu söz "erkək dəvə" mənasında da işlənmişdir. Müqayisə et: *Qaytabanın mayasını yuklü qoydum, nərmidir, mayamıdır, anı bilsəm* [65, s.97]. Nər sözünə müasir qazax dilində də rast gəlirik. Qazax dilində "erkək dəvə" mənasında nar, narşa sözləri işlənir. Həmçinin qırğız və qaraqalpaq dillərində nar şəklində, özbək dilində narça, nar tuva, uyğur dilində *na/r/* formasında təsadüf edirik.

Nər sözü ilə bağlı eyni xüsusiyyət ədəbi dilimizin əvvəlki dövrlərində də işlənmişdir. Məsələn:

Bən qulıyam dünyada ol nərlərün,
Ki, bu dəm meydanımda kükrəşürlər [AKƏK-3, s. 89]

Ərənlər öz yolunda ər tək gərək,

Meydanda ərkək kişi nər tək gərək [AKƏK-3, s.90]

Der idi: qanı sevgili yaranlar,

Nər arslan kibi ol gürbuz ərənlər [ AKƏK-3, s. 116].

Tapmacada gəmi nərə "erkək dəvə"yə bənzədilmişdir. Gəminin buxtada saxlanması "dəvə"nin noxtalanması ilə müqayisə edilmişdir.

*Madyan - " dişi at " deməkdir.*

Əziziyəm əmər hey,

Beldə gümüş kəmər hey,

Göydə bir madyan gördüm,

Yerdə qulun əmər hey (Bulud, yer*) [H.Z, s.34].*

Tapmacanın konteksində "yağışın yağması"na işarə olunmuşdur.

*Nərdivan-* yuxarı qalxmaq və ya aşağı enmək üçün pilləli qurğu

Salxım-salxım sallanar,

Çox qaldıqda bollanar,

Göydə nərdivan olsa,

Çıxar ordan sallanar (Üzüm*) [N.S, s.25].*

Nərdivan, sözünün əsli nərdiban olub, nərd (vuruş) və ban (van) hissələrindən ibarətdir. Əvvəllər hərbi termin kimi işlədilib, döyüş zamanı hündür qala divarlarına qalxmaq, çıxmaq anlamını əks etdirib. Sonralar nərdivandan yuxarı qalxmaq və ya aşağı enmək üçün pilləli qurğu vasitəsi kimi istifadə olunmuşdur.

Nərdivanla bağlı eyni xüsusiyyət ədəbi dilimizin əvvəlki dövrlərində də işlənmişdir. Məsələn:

Gəlirlər, nərdibanın çaq başinə,

Qulaq ur sən Güləndamın işinə [ AKƏK-3, s.145]

Onu qoydı, birisin dəxi kəsdi,

Qana qərq oldi nərdübanın üsti [ AKƏK-3, s.142]

Nə aydam ki, necə düzdilər anı,

Eşitdüm qırx ayaqdur nərdibanı *[ AKƏK-3, s.141].*

Sonralar həmin söz ədəbi dilimizin fonetik qanununa uyğunlaşdırılaraq nərdivan (pilləkən) şəklində dilimizdə geniş işləklik dairəsi qazanmışdır.

*Çörək-* dəyirmi olan, yuxaya bənzər nemət

Balacayam, sarıyam,
Deməyin ki, darıyam,
Sizə çörək oluram,
Zəmilərin barıyam (Çörək, buğda*)* [N.S, s.41*]*.

Çörək sözünün mənşəyinə dair nəzəri dilçilik ədəbiyyatlarda müxtəlif mülahizələr mövcuddur. H.Zərinzadəyə görə, bu söz milli mənşəlidir. Müəllif öz fikrini əsaslandırmaq üçün S.İ.Ojeqovun tərtib etdiyi "Rus dilinin lüğəti" kitabından sitat gətirmişdir. "*Çurek…Qafqazda böyük yayma şəklində olan çörək"* [79, s.281]

Sonra müəllif lüğətdə "Qafqaz adı yerinə "Azərbaycanda" qeyd edilsə idi, daha dürüst olardı" fikrini də "təəssüflə" açıqlamışdır.

Eyni zamanda klassiklərimizin əsərlərində isə həm "əppək", həm də "ətmək", həm də "çörək" formasında işlənmişdir. Məsələn:

Tək qalmağa adət edib öz qəlbimlə danışdım,
Yavan *çörək* yeyə-yeyə öz süfrəmə alışdım [Yenə orada, s.94].

M.Kaşğarinin "Divani lüğatit-türk" kitabında "çörək" sözünə təsadüf etmədik: onun əvəzinə "əbək", "əbmək", "ətmək", "ətmak" sözləri "çörək" mənasında verilmişdir [38, s. 93- 94; s. 398].

Əksər dilçi tədqiqatçılar, o cümlədən B.Əhmədov da "*çörək*" sözünün fars mənşəli olduğunu, "dəyirmi olan" anlamda işləndiyini göstərir [73, EL, s. 71].

Digər mənbələrdə "çörək" çevrə kəlməsi ilə eyni köklü göstərilir. Fikrimizcə, əksər mənbələrdə "*çörək*" sözünün alınma, *"əppək*" sözünün milli sözümüz olması dəfələrlə qeyd olunduğundan digər faktları sadalamaga ehtiyac duymadıq. Lakin bununla belə, bu sözə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik:

1. *Çörək- Azərbaycan dilində;*
2. *.Çörek- türk, qaqauz, türkmən, qaraqalpaq və özbək dillərində ;*
3. *Çörök- qırğız dilində;*

4. *Sürə̦k-* başqırd dilində [9, s.185] və s.

Tapmacada çörəyin zahiri görünüşünə işarə olunmuşdur.

*Hindi-* oğru, hiyləgər, qaradərili, soyğunçu və s. anlamlarda işlədilir.

Hindi, hindicə,
Burnu əyricə,
Hara gedirsən
Bu yarı gecə (Çöl donuzu) [VX, s.33].

Bu söz klassiklərimizin əsərlərində, o cümlədən ədəbi dilimizdə ümumişlək söz kimi geniş işləklik dairəsinə malik olmuşdur. Faktlara diqqət yetirək:

"...Gül yanağına bir baxunuz şamə görünüz
Bir hinduyilə tənə urur şamə, görünüz" [AKƏK-3 , s.41]
"...Yedi hindi qılıc, yedi gözəl at,
Yügürsə eyləyə karlanqıcı mat" [AKƏK-3, s.117 ] və. s

Tapmacanın konteksinə uyğun olaraq bu kəlmə "quldur, yolkəsən" mənasında işlənmişdir. M.Adilov isə "*hindi-hindicə*"ni ritmik səs toplusundan ibarət vahid adlandırmışdır [4, s.92]. Fikrimizcə, "*hindi-hindicə*" ritmik sözlərinin tapmacanın mətni ilə heç bir semantik bağlılığı yoxdur. Bu sözlər sadəcə olaraq ahəngi müşayiət etmək və ya ritm yaratmaq məqsədilə işlədilmiş tərkiblərdir.

*Çəpər-* "dörd tərəfi bağlı" anlamındadır.

Bir quşum var qulaqları qırx çəpər (Kirpiklər) [VX, s.17].

*Çəpər*, bostan ləklərinin heyvandan, küləkdən qorumaq üçün onun ətrafına yığılmış çör-çöpdən, koldan yığma ibarət hissədir. Bu sözün kökü və mənşəyi haqqında dilçilər tərəfindən müxtəlif fikirlər irəli sürülmüşdür. Fikrimizi əsaslandırmaq üçün faktlara müraciət edək. B.Əhmədov "Etimologiya lüğəti" (araşdırmalar, mülahizələr) kitabında *çəpər* sözünü fars mənşəli hesab etmiş və həmin sözün kökünün *çahar pər* (və ya *çaharpərək*) kimi olduğunu göstərmişdir [EL, s.67]

H.Zərinəzadənin fikrinə görə, *"çəpə***r** *milli mənşəli sözdür, qədimdə "çəprəşmək", "çapraşmaq" feil köklərindəndir".* Müəllifin qənaətinə görə, *"çəpər – ot, ağacıq və s. bir-birinə geyindirilməsi ilə düzəldilən divar, mane anlamındadır".* Sonralar həmin söz dilimizdən fars dilinə keçmişdir [76-FDAS, s.275]. M.Adilov da

*çəpər* sözünün fars dilinə mənsub olduğunu göstərmişdir [4, s.30-31]. Fikrimizcə, həmin sözün fars dilinə mənsub olması mülahizəsi daha inandırıcı görünür. Hətta “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə bu sözün işlənmə məqamına belə rast gəlmədik. Nümunədə kirpiklər hər tərəfdən çəpərlənmiş quşa bənzədilmişdir.

*Adına*- müasir dilimizdə cümə axşamı mənasında işlənir

Bu günü adınadı,
İşlər ovandınadı,
Qaradan ağ boyandı,
Tap görüm adı nədi ( Saçın ağarması) [H.Z, s.13].

Əvvəllər həftənin dörd gününə ( əsasən, cümə axşamına) “adına” demişlər. Bu söz qədim türk lüğətində “*cümə günü*” mənasında verilmişdir. Adına sözü qədim türk mətnlərində və orta əsr yazılı dil mənbələrində də qeydə alınmışdır [4, s.11].

Dil tariximizdə “adina” nın cümə mənasında işlənməsini Nəsiminin bu qəzəlində görmək olar:

*Adinə* günü gördü cəmalını Nəsimi,
Əmdi ləbi-ləli-şəkkərin ol qanə-qanə [22, s.36].

Maraqlıdır ki, bu söz əksər şivələrimizdə işlənərək ayrı-ayrılıqda IV, V, VI günü mənasını verir (Gədəbəy, Gəncə, Qazax, Lənkəran, Salyan, Şəki, Şəmkir, Tovuz, Zəngilan) – 1.*Cümə axşamı*. Böyün adınadı, bazara iki gün qalıy (Zəngilan); 2. *Cümə* (Gədəbəy, Tovuz). Adına ertəsi (Gədəbəy), şənbə. [ADDL, s. 12].

Xalqın dilində *“uğurlu gün*” kimi məna daşıyan bu söz bir xalq məsəlinin tərkibində də özünü göstərir:” *Bu günnəri adınadı, işdər avandınadı”r.*

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, həftə günlərinin sıralanması müsəlman xalqlarında və xristianlıqda fərqli şəkildədir. İslamda həftənin ilk günü şənbə hesab olunursa, xristian ölkələrində (o cümlədən Rusiyada) bazar ertəsi sayılır. Əvvəllər xalqın təsərrüfat tərzi ilə əlaqələndirilən gün adları çox-çox sonralar yazılı fars dili və ədəbiyyatının təbliğatı ilə sıxışdırılıb aradan çıxarılmış, nəticədə gün adları farslaşdırılmışdır.

Orta əsrlərdə beşinci gün mənasında *pənc şənbə* “altıncı gün” yerində “*adna*” işlədilmişdir. XIX əsrdə gün adları türkləşməyə meyil göstərir, təsviri yolla olsa da,

fars sözlərinin yerinə türk adları işlədilir: adına ilə yanaşı, beşinci gün də işlədilməyə başlamışdır. Gün adlarını XX əsrin 20-ci illərində A.Samoyloviç geniş şəkildə tədqiq etmişdir .

*Fərə*- cavan toyuq, bəzi məqamlarda isə kəklik, turac anlamında işlənir.

Qırmızı divar üstə ağ fərələr düzülüb (Damaq və diş) [H.Z, s.53].

Tapmacadakı bənzətmədə divar dedikdə, "damaq", ag fərələr isə "dişlər" nəzərdə tutulmuşdur. Yəni dişlər (ag fərələr) damaq (qırmızı divar) üzərində yerləşdirilmişdir.

*Tas*- su içmək üçün qulplu qabı mənasındadır.

Yük altında iki tas,
Birin qaldır, birin bas ( Körük) [H.Z, s.147].

Əvvəllər iri mis qaba (teştə) *tas* demişlər. B.Əhmədovun qənaətinə görə, ruslardakı "tazik" sözü dilimizdəki tas sözünün azca dəyişmiş formasıdır. A.Axundovun yazdığı "Azərbaycan dilinin izahlı lüğəti"ndə tas sözü omonim söz kimi öz əksini belə tapmışdır.

Tas$^1$ – dairəvi metal qab;

Tas$^2$ – nərd oyunun nəticəsi (3 oyun və ya 1 oyun +mars və ya 1 mars+mars) həmin nəticəni ilk dəfə əldə edən oyunu udmuş olur [ADİL, s.390].

*Kürən*-sarımtıl, sarı-qırmızımtıl rəngdə olan deməkdir.

Bəlli-billi bilən day,
Beli incə kürən day,
Növrən görər kişnəməz,
Göy ot görər dişləməz (Qanadlı qarışqa) [H.Z, s.92].

Əksər dilçilərdən fərqli olaraq, H.Zərinəzadə həmin sözü fars mənşəli deyil, milli sözümüz olduğunu əsaslandırmağa çalışmışdır. Müəllifin ehtimalına görə, bu sözün kökü "kül+rəng"dir, çünki dialektlərimizdə həm "kürən", həm də "kül rəng" formasında işlənir [FDTS, s.375].

Lakin mövcud "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə (2007) bu sözün işlənmə məqamına təsadüf etmədik. Lakin əksər mənbələrdə fars mənşəli söz kimi göstərilmişdir. Tapmacada qarışqanın əlamətləri kürən atla müqayisə edilmişdir.

*Şamama*- ətirli,şirin dadan, adətən, yeyilməyən kiçik dekorativ qovun cinsi.

Eləmi bir tağda,
İki şamama bir tağda,
Hərəmiz birin üzdü,
Biri qaldı bir tağda (Hərəmiz adam adıdır) [V.X, s.118].

Şamama, farsca "şamme" sözündə olub, mənası "ətirli" deməkdir. Qərb dialektlərində "*şamba, sambo*" kimi işlədilir. Məsələn: *şamba* (Goranboy)– şamama – Şambanın toxumu olur, əkillər, yaxşı iyisi olur [ADDL, s.456]. Tapmaca riyazi-məntiqi xarakterlidir. Diqqətli araşdırdıqda məlum olur ki, bir tağda öncədən iki şamama var idi; əgər hərəmiz birini dərsək, deməli tağda şamama qalmalı deyildi. Bəs tağda qalan nədir? Artıq tağda şamama yox, yalnız onu dərənin adı qalmışdır.

*Beçə*- uşaq, kiçik, bala anlamlarında işlənir.

Əzizim becə verər,
Sana gör neçə verər,
Torpaqsız, susuz yerdə,
Yarpaqsız beçə verər ( Maral buynuzu) [N.S, s.105].

Fars dilində beçə sözünün iki mənası var : 1) uşaq, 2) təzə banlamağa başlayan xoruz; xoruzbeçə ( xoruzbeçə isə balaca xoruz deməkdir).

Bu ifadəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn:

Quş *beççələri* ünü yuvadən,
Məktəb ünü tək gəlir həvadən [AKƏK-3, s.415]
Siz sərv kimi sərkeş olub böylə boy atdız,
İllik *beçə* tək banlayaraq xalqı oyatdız [ 30, s.56].

Beçə sözü Azərbaycan dialekt və şivələrində həm eyni, həm də müxtəlif mənalarda işlənməkdədir. Məsələn: beçə sözü Zəngibasar şivəsində "balaca, xırda, kiçik", Salyan şivələrində isə "arabanın qolu" mənasında işlənməkdədir: Arabanın beçəsi dəmirdən olur [ADDL,s.45]. Tapmacada isə maral buynuzunun şaxələnməsinə işarə olunmuşdur.

*Çardaq*- dörd tağı olan ev anlamında işlədilir.

Çardaxda var iki tas,
Birin qaldır, birin bas (Körük) [V.X, s.27].

Çardaq, farsca "çəhər" və "taq" (dörd və til) sözlərindən əmələ gəlib, "dörd tilli" (dirəyi) olan deməkdir.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə çardaq sözü köhnəlmiş söz kimi götürülərək bir neçə mənada işləndiyi göstərilmişdir. 1. Dörd tağı olan ev; 2. Talvar, dirəklər üstündə qurulmuş üstüörtülü kölgəlik. 3. Tənək üçün dirəklər üstündə nazik taxtalar borular qoyulmuş tikili və s.

Tapmacada körük qaldırılan və endirilən qaba bənzədilmişdir.

*Dələmə*- yetişməmiş pendir mənasındadır.

Hələmə küpə, dələmə küpə,
Yüz il qalsa, çürüməz küpə (Tük) [H.Z, s.39].

Dələmə farsca "*dolme*" sözündən olub "qatlaşma" deməkdir. Hal-hazırda dilimizdə dələmə "*təzə*", hələ "tutmamış, yetişməmiş" pendirə deyilir. Təbriz dialektində dələmə tamamilə fərqli anlamda "tapdanma nəticəsində hasarda, çəpərdə salınmış keçid, yol" işlənmişdir; məsələn: – Özümüzdən bağa dələmə var [EL, s.123].

Tapmacada dələmənin yüz il küpədə qalsa da, çürüməməsinə işarə olunmuşdur.

*Veçə*- fayda, yaratma, nəzər mənalarında işlədilir.

Əzizim veçə verər,
Sana gör neçə verər,
Torpaqsız, susuz yerdə
Yarpaqsız veçə verər (Maral buynuzu) [V.X, s.66].

Veçə farscadan alınmadır və "fayda, yaratma, nəzər" mənalarında işlədilir. "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə *veçə* omonim söz kimi bir neçə mənada işlənmişdir.

I. (Quba) – beçə, körpə arı; II (Meğri)– ana arxdan ayrılan kiçik qol; ana arxdan ayrılan su şırımı. Məs. – Veçələrin heç birinə yadızdan çıxıb su quşmamısınız; III (Meğri) – tütün yarpaqlarının gövdəyə birləşdiyi yerdən çıxan kiçik zoğ. – O, təmbekini ki veçə basdı, ondan təmbeki olmaz [ADDL, s. 532].

*Şahin*- qartal, tərlan, ov quşu, yırtıcı quş mənalarında işlənir.

Qatar-qatar uçarlar
Şahin görüb qaçarlar,
Gündüzlər otluyub,
Axamlar uçarlar ( Durna) [V.X, s. 23].

Dilçilik ədəbiyyatlarında *şahin* sözünün mənşəyinə dair müxtəlif fikirlər mövcuddur. Bəzi ədəbiyyatlarda fars [81, s. 267], bəzilərində isə ərəb [80, s.57] mənşəli söz kimi göstərilmişdir. Qədim türk mənbələrində" *şunkar*" [83, s.525], *sonkur* [83, s.508], Altay dilində "*şokar*", qaraqalpaqca "*şukar*", qırğızca" *şumkar*", qazaxca" *sunkar*", buryat dilində" *şonxar*" şahin mənalıdır. "İzahlı lüğət"də şahin-əyridimdikli, iticaynaqlı, yırtıcı quş anlamında verilmişdir [84, s.183]. Hətta vaxtilə ov quşlarının hamısına birlikdə şahin (şahquşu) demişlər. Bu quşun adı " sunqurca" kimi də işlənilib. H. Zərinəzadə göstərir ki, sonqar//şonqar" qırğı cinsli bir quş" şahin mənasında dilimizdən fars dilinə də keçib [ FDAS,320]. E.Əzizov isə qədim türk mənbələrinə istinad edərək şahin quşunun adının beş sözlə ifadə olunduğunu qeyd etmişdir: "Qədim türk mənbələrində şahin quşunun adı; şunkar, laçın,toğan, çarğı, kekuk" adlandırılmışdır. Bu adlardan üçü Azərbaycan dili şivələri üçün səciyyəvi olmuşdur: .... ( laçın, şunqar, toğan)[ ADTD, s.251]. Bəzən klassik ədəbiyyatda şahin quşuna " tərlan" da demişlər. Bəzi mənbələrdə şahin sözü şon, qar sözü ilə sinonim kimi də işlənmişdir. Məsələn, M.P.Vaqif həmin sözləri qoşa (*Şahin-şunqar sürbənizi dağıdar*), Qurbani isə şonqar şəkilində tək işlədib: **(***Gözəllər gözəli, gözəllər xası, silindi qalmadı, könülümün pası, Sinəni bəzətdim şonqar yuvası, Oğlan libasında qıza rast gəldim* "Kitabi-Dədə Qorqud"un dilində sunqur variantı işlənmişdir: *Ağ sunqur quşu erkəgindən bir köküm var* [ KDQ, s.251]. Xalq dastanlarının dilində şonkar şəklindədir: *Göydə şahin,şonqar görüb çaşarsız. Ol uca dağları nə cür aşarsız?* [Əsli və Kərəm, s.317]. Azərbaycanda yer adlarında bu söz işləkdir; Qəbələdə Sonqar bulağı, Qaradağ rayonunda Sonqar qəsəbəsi buna bariz nümunələrdir. Atabəylər sülaləsində "Atabəy Sonqar" ın adı məhz bu sözdəndir.

*Patava*- isti saxlamaq üçün ayağa dolanan sarğı.

Gödəcik kişi

Patavamnan var işi (Ağac kökü) [V.X., s.73]

Patava, farsca “patabe” sözündən olub, iki tərkib hissədən ibarətdir. Tərəflərdən biri alınma, o biri köhnəlmiş sözdür. M.Zeynalova görə, *“pa (farsca) ayaq, tava isə “ toba” sözü olub mənası “ dolamaq, sarımaq” deməkdir”* [90, s.52]. B. Əhmədov isə həmin sözü fars mənşəli hesab edərək tərkib hissəsini belə açıqlamışdır: “patava, farscadır(patabe),pa(ayaq) və tab(isti) hissələrindən ibarətdir, “ayaqisidən” deməkdir. Dolaqdan fərqi odur ki, ayaqqabını patavanın üstündən geyirlər. Dolaq isə baldıra dolanır [ EL, s.207]. “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə patava sözü (gön, yamaq, iş əlcəyi ) anlamlarda öz əksini tapmışdır A.Axundovun “İzahlı lüğəti”ndə patava sözünün mənası belə verilmişdir: “corab əvəzinə ayağa dolandırılan sarğı [ ADDL, s.311]. Ehtimal ki, rus dilindəki “partiyanka” sözü patava sözünün fonetik dəyişməsindən başqa bir şey deyildir. Çünki rus hərbi sistemində əvvəllər hərbçilər corab əvəzinə “partiyanka” adlandırılan sarğıdan istifadə etmişlər. Tapmacada ağac kökünün torpaq altında isti yerdə olmasına işarə olunmuşdur.

*Xəşəm*- kobud,qaba mənasındadır.

Qırmızı xəşəm
Atılıb düşən,
Dəyirmanlardan,
Təndirə düşən ( Buğda) [V.X, s.68]

Tapmaca nümunəsində dəyirmanda üyüdülən buğda suda atılıb-düşən xəşəm balığına bənzədilmişdir.

*Dərviş*-əsasən, sufi təriqətlərindən birinə mənsub olub,qapı-qapı gəzib dini əhvalatlar danışan, cəmiyyət qanunlarına “məhəl qoymayan” adam anlamında işlədilir

Dörd dərviş bir quyuya daş atar. ( İnəyin sağılması) [V.X, s.531]

Dərviş sözünün ilkin mənası “ dilənçi” deməkdir. Görünür bu mənanın yaranmasına səbəb “ dər(qapı) sözü ilə qohumluğudur (qapı-qapı gəzən). Bu ifadəyə ədəbi dilimizin əvvəlki dövrlərində də təsadüf etmək olar. Məsələn:

... Eşq əri bu dünyada dil-riş imiş,
Pəncün içində bu gün *dərviş* imiş,
Geyməkü yeməkdən artux, istəmək
Ər kişinün canına təşviş imiş [ AKƏK-3, s.89]

Fonetik səs cildi baxımından, istərsə də semantik cəhətdən *dərviş* sözü hal-hazırda müasir Azərbaycan dilində əvvəlki mənasına uyğun şəkildə işlənməkdədir. M.Təkləli isə dərviş sözünü türk mənşəli hesab edərək rus dilinə keçdiyini qeyd etmişdir [67, s. 47; s. 93).

Nəticədə verilmiş tapmaca nümunəsini belə kodlaşdırmaq olar: dörd dərviş – insanın əlləri+ inəyin əmcəkləri; quyu- sərinc; daş isə süd anlamındadır.

*Çəpəl* – əsasən,çirkili anlamında işlənir.

Beş-beş anası,
Beş-beş balası,
Onu bilməyən,
Çəpəl balası (Əl və barmaqlar) [V.X, s.104].

Fars mənşəli "çəpəl" sözünün əsli "pəçəl" dir. Azərbaycan dialekt və şivələrinin bəzisində də həmin söz eyni anlamda (pinti, natəmiz, xoşagəlməz) işlədilir. Tapmacada insanın əl və barmaqlarına işarə olunmuşdur. Nümunədə əl və barmaqların sayını bilməyən "pis", "xoşagəlməz" "çəpəl balasına" bənzədilmişdir.

*Xurd-xaşıl*- xırdalanıb bir-birinə qarışan deməkdir.

Uzun-uzun dərvişlər,
Gecə bizə gəlmişlər
O qədər oynamışlar,
Xurdu- xaşıl olmuşlar ( Əriştə) [H.Z, s. 78]

*Xurd-xaşıl*, iki hissədən ibarətdir, birinci hissəsi farsca xord ( xırda) kəlməsinin dəyişmiş formasıdır. *Xəşil (*xaşıl) isə " əzilmiş, qarışmış" deməkdir. Bu sözə nə "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə, nə də A.Axundovun "İzahlı lüğəti"ndə təsadüf etmədik.

Bu ifadəyə ədəbi dilimizin əvvəlki dövrlərinə aid yazılı abidələrində isə (*xurd-xaş/xurd- xaşxaş*) şəkilində təsadüf edirik. Məsələn:

“Dastani-Əhməd Hərami” poemasında: “Yerə toxundu ol dəm endi çün baş, Dağıldı oldı beyni *xurdi xaşxaş* [ AKƏK-3, s.145]; “Hərami olmuş idi *xurdi, xaşxaş*, Nə qol qalmış, nə bud qalmış, nə xod baş” [AKƏK-3, s. 146].

Tapmacada əriştənin zahiri formasına işarə olunmuşdur. Ümumiyyətlə, Azərbaycan tapmacalarında bədii portret yaratmaq meyli həmişə diqqət mərkəzində olmuşdur.

*Bikə*-bəy arvadı, varlı qız deməkdir.

Dağdan gəlir Bikə xanım,
Əlləri xınalı xanım,
Farsı deyər, dil anlamaz
Ala köynək,çit arxalıq ( Kəklik) [H.Z, s.58].

Bikə//pikə söz türkcə “varlı qızı, dövlətli qızı, gözəl qız”, cığatayca” ərsiz qadın”, tatarca bikəc “nişanlı qız,gəlin”, noqay, qumıq dillərində biyke “xanım, ev qadını” mənalarında işlənir. Fikirimizcə, söz tarixən “ bəy arvadı” mənalı olub “ bek+aka” bəyin bacısı, ( aka- cığatay və özbək dillərində “bacı”) kimi iki söz olduğunu qeyd etmişlər [152, s.498-499]. Ehtimal ki, sözdə səs düşümü və əvəzlənmə prosesi baş vermiş, nəticədə mürəkkəb söz sadələşmişdir: beq+əkə-bikə. B. Əhmədovun isə bikə sözünün etimoloji yozumu ilə bağlı verdiyi şərh, demək olar ki, üst-üstə düşür: ”bik(bıy) qəbilə başçısına deyiblər, bikə “bəy arvadı”dır, mənası” xanım” deməkdir [EL, s.47].

Eyni zamanda, bikə sözünə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik:

1.Bikə- Azərbaycan dilində;

2.Biyke- türk,qumıq və qırğız dillərində;

3.Bi:ke- tatar və qazax dillərində;

4.Bikα̯- başqırd dilində;

5.Pike- çuvaş dilində [ 69, s.156].

Bikə sözə dilimizin əvvəlki dövrlərinə aid yazılı abidələrində də təsadüf edirik. Məsələn:

Tapmacada “dağdan gəlir” metaforik qənaəti təsadüfi olaraq işlənməmişdir. Çünki bir çox tapmacalarda “dağlar” bir qrup varlıqların mənbəyi, “yarandığı yer” kimi götürülmüşdür. Ulularımızın inamına görə dağlar bütün varlıq və kainatın yaradıcısıdır. Məhz bu baxımdan tapmacada “dağdan gələn” kəkliyin əlamətləri sadalanmışdır.

*Leylək*- ala-bəzəkli quş deməkdir.

Gedən leylək, gələn leylək,
Dabanı üstə duran leylək,
Həm taxtadı, həm də dirək,
Gecə gedib yatan leylək (Qapı) [H.Z, s. 146].

Fars mənşəli *leylək* sözünün əsli *ləklək* kimidir. Yəni “*ləkəli*”( “üstü alabəzək olan deməkdir). “**Türk sözləri rus dilində**” vəsaitində isə yanlış olaraq, həmin ifadə hər hansı tutarlı mənbəyə istinad olunmadan türk mənşəli söz kimi qeyd olunmuşdur” [85, s.113].

Tapmacada qapının insan kimi həmişə “ayaqüstə gedib- gələnləri” yola salmağına işarə olunmuşdur. Qapı insandan fərqli olaraq, yalnız gecə “yata bilər”. Bu da səbəbsiz deyildir , çünki insanlar yuxuda olarkən qapıdan az istifadə etmələri danılmaz faktdır.

*Cam*- içi boş olan dəyirmi qab anlamındadır

Əzizinəm yasda,
Quyruğu dəstə
Yeddi cam gördüm,
Bir başın üstə ( Həftə və gün) [V.X, s.56]

Cam, farsca “qab” deməkdir. Kasaya oxşar dəmir qab. Ehtimal ki, *cəm//camın* təhrif olunmuş formasıdır. Bu söz ədəbi dilimizin əvvəlki dövrlərində də mövcud olmuşdur. Məsələn:

*Cam* əlinə verün ki, düşə gül yüzi əksi,
Andanbaxunuz caməvü al *camə* görünüz [AKƏK-3, s.41];
Nərgizlər önündə *cam* tutmuş,
Bülbüllər oxur, nizam tutmuş [ AKƏK-3, s.422].

Artıq həmin söz ədəb dilimizdə işləklik dairəsini itirərək köhnəlmiş sözlər sırasına daxil olmuşdur.

Tapmacada günlərin həftə ilə yekunlaşmasına işarə olunmuşdur.

*Çomaq*- dilimizdə dəyənək anlamında işlənir.

Əzizim təpəsinə,
Aşıq çıxıb təpəsinə,
O kimdi çomaq vurdu
Allahın təpəsinə ( Çomaq ) [H.Z, s.87]

Çomaq fars mənşəlidir, qədim mənası "toppuz" deməkdir. B. Xəlilov isə qədim türk lüğətinə istinad edərək çomaq sözünün" ağac, əl ağacı, əsa, dəyənək" anlamlarında da işləndiyini göstərmişdir [32, s.25]. "Kitabi-Dədə Qorqud"da isə çokan kimi işlədilib. "Azərbaycan dilinin izahlı lüğəti"ndə comaq "dəyənək", "başı yumru ağac" mənasında öz əksini tapmişdır. Hal- hazırda çomaqdan çobanlar qoyunun ayağından tutmaq üçün də istifadə edirlər. Tapmacanın kontekstində çomaq "dəyənək" anlamına uyğun işlədilmişdir.

*Şor*- duzlu, duz çox olan mənada işlənir.

Üç bulağım var,
Biri şirin,
Biri acı
O biri şor ( Ağız, qulaq,göz) [V.X, s.105].

*Şor,* farsca "duzlu" deməkdir. Vaxtilə dilimizdə şor yerinə ağrımışıl (ağrımışıq) işlədilib, sonra fars sözü onu işləklikdən "məhrum" etmişdir. Tapmacada bədən üzvləri bulağa bənzədilmişdir. "Şor bulaq" daha çox göz yaşına uyğun gəlir.

***c) Tapmacaların dilində işlənmiş yunan mənşəli leksik alınmalar***

Azərbaycan dilçilik ədəbiyyatlarında ərəb və fars dillərinin dilimizə təsiri nisbətən geniş şərh olunmuşdursa, ərəb və fars dilləri vasitəsilə alınan bir çox sözlərin etimoloji cəhətdən şərhi hələlik səthi xarakter daşıyır.

Məlumdur ki, eramızdan əvvəl İran uzun müddət yunanlarla əlaqədə olmuşdur. Yunan-İran müharibəsi, Makedoniyalı İsgəndərin İranı zəbt etməsi və eləcə də Yunan

və Roma mədəniyyətinin Sasanilər dövlətinə təsiri həmin əlaqələrə bariz nümunələrdir. Şübhəsiz ki, bu əlaqələr fars dilinin leksikasına da öz təsirini göstərmişdir. Fars dilinin tədqiqatçılarından P.Hori göstərir ki, *müasir fars dilində çoxlu Avropa mənşəli söz işlənməkdədir* [153, s.72] Bu fikri L.S.Peyşikov da faktiki dil materialları əsasında təsdiq edir [108 , s. 33].

Hələ qədim dövrlərdə orta fars dilinə keçən yunan sözlərinin bir qismi Azərbaycan dilinə də keçə bilmişdi. Ərəb və fars dilləri vasitəsilə dilimizə daxil olmuş yunan mənşəli sözlərin bir qismi şifahi xalq ədəbiyyatımızda, o cümlədən Azərbaycan xalq tapmacalarının dilində də öz əksini tapmışdır.

*Kilid* - qıfıl mənasındadır

Qırmızı Məmməd, dur get,
Yabılarını sür get,
Otuz iki qapının
Kilidini vur get ( Dil, dodaq) [ N.S, s.153].

Ehtimal olunur ki, *kilid* dilimizə fars dilindən keçmişdir. Lakin E.Əzizov bu sözü fars mənşəli hesab etməyərək öz fikrini belə əsaslandırmışdır: "Kilit" sözünün "açar" mənasında işlənməsi Dərbənd, Cəbrayıl və Ordubad şivələrinə xasdır: – *Kilitlə qıfılı açıllar* (Ordubad) [ADTD, s.261]. M.Adilov isə kilid sözünün yunan dilindən ərəb dili vasitəsilə dilimizə keçdiyini söyləmişdir [4,s.56]. M.Adilovun arqumentləri A.Qarayev tərəfindən də təsdiqlənmişdir [48, s.30]. "Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri" lüğətində də həmin ifadənin əsli yunan mənşəli söz kimi göstərilmişdir [ 47, s. 354].

"Kilid", "açar" sözü, həmçinin Azərbaycan ədəbi dil nümunələrində də işlənmişdir: "Əlli yedi qələnin *kilidini* alan İlək qoca oğlu Alp Ərən çapar yetdi:" Çal qılıcın,ağam Qazan yetdim!" – dedi [KDQ, s.64];

*Kilidin* açalım, malın alalım,
Cəhanda biz ana bir iş qılalım [AKƏK-3, s.110];
Kişvəri, əmnü afiyət mərifətin *kilididir.*
Ey məliki-zəmanə, gəl kəşf edə gör bu kişvəri [AKƏK-3, s.430 ].

Lakin ədəbi dildən fərqli olaraq, dialekt və şivələrimizdə bu qədim söz həm açar, həm də qapıya daldan keçirilən uzun dəmir mənasında işlənir.

*Dinar*- qızıl pul vahididir.

Çəkisi bircə misqal,
Qiyməti mincə dinar (Brilyant) [N.S, s.141].

*Dinar*, pul vahidi kimi dilimizə ərəb dilindən keçmişdir. Həm şəxs, həm də çəki vahidi kimi işlədilmişdir. Təxminən (4,25) qram ağırlığında olub. Yaxın Şərqin bəzi ölkələrində pul vahidi kimi hələ də işlənməkdədir. "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə həmin sözün işlənmə məqamına rast gəlmədik.

Tapmaca nümunəsində isə brilyantın dəyərinə işarə olunmuşdur. Çünki brilyantın çəkisi az olsa da, dəyərinin min dinara bərabər olduğu əks olunmuşdur.

*Pul*- dəyər formasıdır.

Bir quşum var,
Dərisi puldan,
Gözləri nurdan ( Balıq) [ N.S. s.31].

Yunan mənşəli olan "pul" sözü dilimizə fars dilindən keçmişdir. Dəyərinə görə türk mənşəli tengənin beşdə birinə bərabər olub. Tarixi məlumatlara görə, Qızıl Orda dövründə, yəni XIII-XV əsrlərdə pul misdən kəsilmiş "sikkələrə" deyilib. Görünür, pul mis sikkələrin zahiri oxşarlığına, parıltısına əsasən adlandırılmışdır. Bu barədə rus tarixçisi A. Korniloviçin mülahizələri də diqqəti cəlb edir. Müəllifin fikrinə görə, "öncə Qızıl Orda dövründə kəsilmiş dəri puldan( denqadan) istifadə olunmuşdur, sonralar isə Qərbi Avropa dövlətləri ilə əlaqələrin genişlənməsi nəticəsində dəri pulun yerinə Dmitri Donskoyun vaxtında metal monetlər istifadəyə buraxılmışdı. İlk monetlər-sikkələr tatar yazısı ilə idi. Sonralar monetin digər üzü tədricən rusca, daha sonralar isə yalnız rus yazıları ilə buraxılmışdır. Monetlər əvvəlcə Ordada kəsilirdi və türk dünyasında indi də istifadə olunan tanqa(tengə) sözü ilə bağlı olaraq denqa adlanırdı. Gümüş monet denqa, mis monetlər isə pul adlanırdı" [97, s.133].

Azərbaycan türkcəsinin tarixi dövrlərində tengə kəlməsi işlək olmuşdur. Məs.: Şah İsmayıl Xətaidə: Boyandı zəmin həzar rəngə, Əvraqi-şəcər də *təngə-təngə* [ 35, s. 117] və s.

A.Axundovun "Azərbaycan dilinin izahlı lüğəti"ndə isə pul omonim söz kimi iki mənada işlənmişdir: 1. Özü də əmtəə olmaqla bərabər, bütün digər əmtələr üçün ümumi ekvivalent; dəyər forması; 2. Bəzi onurğalı heyvanların dərisini təşkil edən sərt lövhəciklər [ADİL,s. 326].

Azərbaycan dialekt və şivələrində həmin sözün işlənmə məqamına rast gəlmədik.

*Sandıq*- qutu, dolab, kassa mənalarında işlənir.

Kiçik-kiçik sandıqlar,
İçi dolu fındıqlar ( Nar ) [N.S, s.31].

Əsli qədim yunan sözü olsa da, *sandıq* dilimizə ərəb dilindən keçmişdir. Rus etimoloqu M. Fasmer də həmin kəlmənin türk dillərində işləndiyini qeyd etməklə bərabər, sözün ərəb mənşəli "sanduk" sözü ilə bağlılığını qeyd etmişdir [150, III t, c. 803]. "Azərbaycan dilinin izahlı lüğəti"ndə **s**andıq həm paltar və bəzək şeyləri saxlamaq üçün üzəri dəmirlə işlənmiş uzunsov taxta qutu, həm də məcazi "nəşr edilməsi mümkün olmayan, problem təşkil edən əsər" anlamında işlədilmişdir [ADİL, s.343].

Sandıq ədəbi dilimizin əvvəlki dövrlərində də mövcud olmuşdur. Məsələn:

Ləli piruzə cəvahiri- qiyməti,
On yeddi *sandıq*, on iki bin atı [AKƏK-3, s.153];
Yamanlıq sansa bir kişi işinə,
Son ucu *sandıq* gəlir başına [AKƏK-3, s.139].

Nümunədə nar içi fındıqla dolu sandığa bənzədilmişdir.

*Ləyən*- dəyirmi böyük qab anlamındadır.

Ləyəndə, ay ləyəndə,
Gül boynunu əyəndə,
Yeyirlər kal vaxtında,
Yemək olmaz dəyəndə (Xiyar) [V.X, s.**77]**.

*Ləyən* yunan dilində “laqun” şəklində işlədilmiş dəyirmi qabın bir növüdür. Dilimizə ərəb dilindən keçmişdir. Məişətdə ləyən ən çox “əl,” “paltar yuyulan qab”,” mətbəx ləvazimatı” anlamında işlədilməkdədir. Qərb dialektlərində ləyən həm dəyirmi kiçik, həm də böyük qab anlamında da işlədilir.

*Fayton*-üstü açılıb- örtülən dördbucaqlı at arabası.

Faytonum var bir təkərli,
Nənəm sürər tək bir əlli,
Nə izi var, nə tozu var,
Yupyumru yumurtlayır (Cəhrə) [H.Z, s.90].

Fayton dilimizə ərəb dilindən keçmişdir. Tapmaca nümunəsində “cəhrə” faytona bənzədilmişdir. 4 təkərli faytondan fərqli olaraq, cəhrənin yalnız bir “təkəri” olur. “Yupyumru yumurtlamaq isə cəhrənin” istehsal etdiyi” yun düyünçəsinə işarədir.

*Hovur*- bir an, bir az anlamındadır.

Mən aşiqəm könüldən,
Xəbər alın əmirdən,
Bir hovur nübar yedim,
Budaqları dəmirdən (Kabab) [H.Z, s.131].

*Hovur* yunan dilindən dünya dillərinə yayımışdır. Tarixi məlumata görə, Qədim Misirdə e.ə.1300-cü ildən gecə və gündüzün hər biri 12 saatdan hesablamışlar. Babillər də bu bölgünü qəbul etmişlər. Yunanlar bu bölgünün hər bir hissəsinə hour adı vermişlər. Sonralar yunan *hour*→latın→*hore*→fransız→ *houre*→ ingilis→*hour* (saat) şəklində keçmişdir. İngilis dilində vaxt mənasında “saatı” ifadə edən haur sözü qrafik cəhətdən Azərbaycan dilinə transliterasiya olunmuş (hour) və öz semantik mənasını qoruyub saxlamışdır. Hovur sözü Azərbaycan dilində “*birour”, “birhovur*” variantlarından başqa, Y.V.Çəmənzəminli əsərlərində “*bir hor”, “iki hor”, “üç hor” və “bircə hovur”* tərkibləri də sayla işlənir: “…iki hordan geri döndük”, “Axşama üç hor qalmış getdik” [15, s. 27 ].

Həmin söz danışıq dilində, xüsusən də Qərb dialektlərində *hour* şəklində işlənməkdədir. Məsələn: Bir hour dincəl, yaxud bir hour bu uşağa baxsana.

A.Qarayevin hesablamalarına görə, təxminən hind-Avropa dillərindən olan yunan dilindən alınmış 2250-ə yaxın söz Azərbaycan dilində işlənmişdir [48, s.32].
Azərbaycan xalq tapmacalarının dilində isə yunan mənşəli sözlərin yalnız 10-a təsadüf etdik.

**ç) Azərbaycan xalq tapmacalarının dilində işlənmiş Roman dilləri ailəsinə mənsub olan( italyan, ingilis, fransız və. s) sözlər.**

***İtalyan* mənşəli leksik alınmalar**

Azərbaycan dili lüğət tərkibinin zənginləşməsi mənbələrindən biri də rus dili vasitəsilə və vasitəsiz başqa dillərdən, ilk növbədə, Avropa dillərindən alınan sözlərdir. Azərbaycan xalqının dünya xalqları ilə olan bilavasitə və bilvasitə əlaqə və münasibətlərinin qədim kökləri vardır. Bunun nəticəsidir ki, indi dilimizdə külli miqdarda Avropa dillərindən alınan sözlər işlənir. Həmin sözlər Azərbaycan dilinin bütün yaruslarında müəyyən iz buraxmış və dilin müxtəlif üslublarında leksik-semantik çalarlıq yaratmışdır. Avropa dillərindən alınmış sözlər, öncə Azərbaycan ədəbi dilinin, sonra isə danışıq dilinin inkişafına müsbət təsir göstərmişdir. A.Qarayevin qənaətinə görə müasir Azərbaycan dilində 20 Avropa dilinin sözləri işlənməkdədir [48, s. 31]. Avropa dillərindən alınmış sözlərin çoxu və dilimizin lüğət tərkibində fəal işləklik dairəsinə mənsub olan leksik alınmalar, əsasən, Roman dillər ailəsinə məxsusdur. Bu baxımdan tapmacalarımızın dilində işlənmiş Avropa mənşəli alınmaların təsnifində roman dillər ailəsinə mənsub olan sözlərin bir qismini ayrılıqda şərh etməyi məqsədə müvafiq hesab etdik.

Dilimizin lüğət tərkibində, roman qrupundan olan digər dillərlə müqayisədə italyan mənşəli sözlər nisbətən azlıq təşkil edir. İntibah dövründə İtaliya mədəniyyəti, xüsusilə musiqi, təsviri sənət, memarlıq sahəsində dunya mədəniyyətinə çox böyük təsir göstərmişdir. Yuxarıda sadalanan sahələrə aid sözlər və terminlər dilimizin həm şifahi, həm də yazılı nitqində fəal işləklik qazanmışdır. Azərbaycan xalq tapmacalarının dilində işlənmiş bəzi italyan mənşəli sözlərə diqqət yetirək:

*Qaytan*-ip,kəndir anlamındadır

Ağ oxlovum yağlıdı,
Başına qaytan bağlıdı (Şam ) [H.Z, s.46].

Qaytan sözünün mənşəyinə dair iki mülahizə mövcuddur. B.Əhmədovun fikrinə görə, "qaytan italyan mənşəli sözdür, ilk dəfə İtalyanın Qayeta şəhərində düzəldildiyinə görə həmin yerin adı ilə bu cür adlandırılmışdır; "ip", "lent" anlamlarında işlədilir" [ET, s.159].

Rus etimoloqu M.Fasmerin mülahizələrinə görə, "qaytan" latın dili ilə bağlıdır, mənası da "bel" deməkdir. M.Təkləli isə həmin kəlməni türk mənşəli hesab edərək türk dillərindən rus dilinə keçdiyini yazmışdır [67, s.40; s.102] Fikrimizcə, B.Əhmədovun baxışı daha inandırıcıdır. Qaytan İtaliyada şəxs adı kimi də işlədilir. Hal-hazırda İtaliyaya məxsus milli futbol komandalarından birinin məşhur oyunçusunun adı Qaytandır.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə yumşaq iplikdən hörülmüş ip, bağ mənasında götürülmüşdür [ADİL, s.198].

Azərbaycan dialekt və şivələrində qaytan yuxarıda göstərilən anlamlarda işlədilmişdir. Nümunədə "şamın ipi" qaytana bənzədilmişdir.

*Pəs*- aşağı olan, alçaq(hündür olmayan) mənasındadır.

Pəsdədi ha pəsdədi,
Şəki, Şirvan üstədi,
Yemişlərdən hansıdı,
Çəyirdəyi üstədi (Fındıq, şabalıd ) [ H.Z, s.44].

Pəs, fikirimizcə, "bas" kəlməsinin təhrif olunmuş formasıdır. Həmin ifadə hal-hazırda dilimizdə köhnəlmiş söz kimi işlənir.

Məlumdur ki, dilimizdəki italyan sözlərinin bir qismini musiqi terminləri təşkil edir. Elə "pəs"dən səsin tembri (tonu) ilə əlaqədar işlədilir. Poeziya nümunələrində "pəs"lə "zil" səslər bədii təzad kimi işlədilməkdədir.

*Banda*-dəstə, qrup anlamındadır.

Bir damım var,
Bir banda tutmaz,
Üç baş mal tutar (Qarışqa və yuvası) [H.Z, s.65].

İtalyan dilində *"banda"* sözü əvvəllər *"dəstə"* anlamında işlənmiş, sonralar həmin söz "hər hansı bir dəstə" kimi bilavasitə musiqiçilər dəstəsinə aid edilmişdir. Dilimizə isə yalnız "quldurlar dəstəsi" mənasında alınmışdır. Ehtimal ki, rus dilindən dilimizə daxil olmuşdur. XIX əsrdə etibarən həmin söz rus dilində "quldur dəstəsi" anlamında işlənmişdir. Tapmacanın kontekstində o da məlum olur ki, qarışqalar top şəklində "dəstə halında" "qida ehtiyatı" tədarük görürlər.

*Qazamat*- qaranlıq qala anlamındadır.

Qazamatda bir quyu var,
İçi dolu suyu var,
Başında minası var
Qulağında sırğası var ( Lampa), [V.X, s.119].

Qazamat dilimizə digər dillərin vasitəsilə daxil olmuşdur. Belə ki, bu söz, öncə italyan dilindən fransız dilinə, XVII-XVIII əsrlərdə rus dilinə (vaxtilə Rusiyada bir adamlıq kamera da qazamat adlanmışdır) və rus dili vasitəsilə dilimizə daxil olmuşdur. Həmin sözün keçid yolları belədir: İtalyan (kazamatta)→ fransız (casamatta)→rus (kazemat)→Azərbaycan (qazamat). Bir sözlə, "həbsxana" sözünün sinonimi olan "qazamat" dillərdən keçib dilimizə daxil olaraq, əcnəbi rəngini itirmişdir. Azərbaycan ədəbi dilində işlənmiş 200-ə yaxın italyan mənşəli sözlərdən tapmacalarımızın dilində yalnız 3-ə təsadüf etdik.

**d) Tapmacalarının dilində işlənmiş ingilis mənşəli leksik alınmalar**

İngilis sözlərinin Azərbaycan dilinə keçməsinin tarixi olduqca qədimdir. Vaxtilə Səfəvilər dövründə Avropa xalqları ilə mədəni, iqtisadi əlaqələr nəticəsində Azərbaycan dilinə xeyli sayda Avropa mənşəli söz keçmişdir. Məsələn, Səfəvilər dövründə böyük bir ingilis heyətinin Azərbaycana gəlişi və diplomatik əlaqələr nəticəsində tarixi sənədlərdə bir sıra ingilis və başqa Avropa sözləri işlənmişdir. Belə ki, öncə iqtisadi həyatla əlaqədar (alğı-satqı münasibətlərilə) sözlər alınmışdırsa, bu proses getdikcə həyatımızın bütün sahələrinə də şamil olunmuşdur. Hal-hazırda ingilis mənşəli leksik alınmaların əksəriyyətini, əsasən, idman və texnikaya aid sözlər təşkil edir. İngilis sözləri başqa dillərə məxsus sözlərdən fərqli olaraq, iki yolla – ya birbaşa, ya da rus dili vasitəsilə dilimizə daxil olmuşdur.

*Çit*-parça,kətan anlamındadır.

Bir öküzüm var, quyruğuyla çit hörər (İynə) [V.X,s.23].

Çit sözünün mənşəyinə dair müxtəlif mülahizələr mövcuddur. Bəzi tədqiqatçılar həmin sözü hind, bəzisi türk, digərləri isə ingilis mənşəli hesab etmişlər.

Rus etimoloqu M.Fasmer "çit" sözünü hind mənşəli hesab etmiş, "ala-bəzək" mənasını verən leksik vahid kimi təqdim etmişdir. B.Əhmədovun isə həmin sözü türk mənşəli hesab edərək öz fikrini belə əsaslandırmışdır ki, çit sözü "çitəmə", "çətən" sözləri ilə kökdaşdır. Hətta (siteü) formasında rus dilində də işlənir [EL, s.70]

A.H.Qarayev isə bu barədə belə yazır: "*Azərbaycanın Avropa xalqları ilə olan qədim ticarət əlaqələri nəticəsində ingilis dilinə məxsus… bir sıra sözlər, o cümlədən çit (shitting, chiniz)… və s. sözlər dilimizə daxil olmuşdur"* [48, s. 9].

Yüngül pambıq parça mənasında işlənən "çit" sözünə Azərbaycan dialekt və şivələrində rast gəlmədik.

Rus etimoloqları T.L.Fedorova, O.A.Şeqlovanın tərtib etdikləri "Rus dilinin etimoloji lüğəti" kitabında da həmin sözün ingilis mənşəli olduğunu qeyd olunmuşdur [123 , s. 399].

V.V.Radlov isə öz lüğətində həmin sözü hind mənşəli hesab etmişdir.

*Traktor*-dartan,çəkən maşın anlamındadır.

A yolnan gedən kişi,
Torpaqladır hər işi,
Bir oğlaq almışam mən
Nə erkəkdi, nə dişi (Traktor) [H.Z, s.152].

Traktor, əsli latınca "*dartmaq, çəkmək*" mənalı (trahere) sözündəndir. Rus dilinin qrammatik, fonetik, semantik sisteminə tabe olmuş və rus dilində vətəndaşlıq qazanmış traktor sözü, həmçinin başqa slavyan və türk xalqlarının dilinə keçmişdir. Hal-hazırda müasir Azərbaycan dilində bu söz həm söz yaradıcılığı, həm də müstəqil söz kökü kimi işlənməkdədir

**e) Tapmacalarının dilində işlənmiş fransız mənşəli leksik alınmalar**

Fransız mənşəli sözlərin dilimizə daxil olmasında rus dili vasitəçi rol oynamışdır. Tarixi mənbələrdən məlumdur ki, fransız sözləri rus dilinə, əsasən,

I Pyotr dövründə, xüsusilə XVIII əsrin sonu XIX əsrin əvvəlləri rus dvoryanları arasında dəbdə olan zaman kəsiyində daxil olmuşdur. Fransız dilindən dilimizə ələlxüsus hərbi, teatr, eləcə də musiqi, ticarət, dilçilik, ədəbiyyatşünaslıq, tibb, dənizçiliyə və s.-ə aid sözlər keçmişdir.Tapmacalarımızın dilində işlənmiş fransız mənşəli yalnız bir sözə təsadüf etdik.

*Tül*-nazik, yüngül,toxunma parça mənasındadır.

Rəngbərəngdir gül kimi,
Qanadı var tül kimi,
Uçur bağda, çəməndə,
Çox yüngüldür tük kimi (Kəpənək) [H.Z, s.43].

A.Axundovun "Azərbaycan dilinin izahlı lüğəti"ndə həmin söz fransız mənşəli söz kimi götürülərək belə izah olunmuşdur. "Tül –is.fr. yüngül, torşəkilli, şəffaf, saya və ya naxışlı pambıq, yaxud yarımipək parça" [ADİL, s.416]. Tapmacada "kəpənəy"in xarici, o cümlədən qanadları tülə bənzədilmişdir.

## ə) Azərbaycan xalq tapmacalarının dilində işlənmiş hind mənşəli leksik alınmalar

Sanskrit dilinin İran dilləri, slavyan, roman, german dilləri ilə qohum olduğu çoxdan sübut edilmişdir. “Hind-Avropa dilləri ailəsi” termini də bu münasibətlə yaranmışdır. Tapmacalarımızın dilində işlənmiş sözlərin lüğət tərkibində hind mənşəli (ortaq və eyniköklü) sözlərə də təsadüf edilir. Təbii ki, bu cür faktları tədqiqatçılar çox zaman dillərin mədəni, iqtisadi və siyasi cəhətdən bağlılığı ilə əlaqələndirirlər. Fikirmizcə, son dərəcə qədim olan bir çox sözləri keçmə və ya kontakt nəticəsi hesab etmək doğru olmaz. Elə sözlər və ya söz kökləri var ki, dünya dillərinə geniş miqyasda səpələnmişdir və minilliklər keçməsinə baxmayaraq, kiçik fonetik dəyişikliyə uğramışdır. Adi bir faktı qeyd etmək, zənnimizcə, yerinə düşər. Məlumdur ki, şəxs əvəzliklərinin *mi, si* kökləri, demək olar ki, müasir dünya dillərində I və II şəxsi bildirən əvəzliklərin əsasında durur. Məsələn, sanskrit dilində ***me***, Azərbaycan dilində *mən*, fars dilində *mən*, rus dilində *mne*, ingilis dilində *me* və.s bu sözün qədimlərə getdikcə bir köklə bağlı olduğunu göstərir. Dünya dillərinin vahid bir kökdən yaranmış olduğunu söyləməyə imkan verir. Bu baxımdan tapmacalarımızın dilində bəzi hind mənşəli sözlərin işlədilməsinə təbii baxılmalıdır.

*Çaqqal*- leş yeyən vəhşi heyvan anlamındadır.

Haça üstə küp,
Küpün üstə top,
Top üstə meşə,
Meşəni çaqqallar eşə ( Qıçlar, bədən, baş və saç) [V.X, s.130].

Çaqqal sözünün mənşəyini bəzi dilçilər hind, bəzilərii isə fars mənşəli hesab etmişlər. Çaqqal sözü hal-hazırda bir sıra dillərdə geniş şəkildə işlənməkdədir. A.Axundov “çaqqal” sözünü fars mənşəli söz kimi götürmüşdür [ADİL, s.59]. Fikrimizcə, çaqqal qədim hind sözüdür, hind dilindən fars dilinə, fars dilindən bizim dilimizə keçmişdir. Ehtimal ki, məşhur hind eposu “Kəlilə və Dimnə”nin fars dilinə tərcüməsi ilə əlaqədar olaraq bu söz fars dilinin lüğət tərkibinə daxil olub, geniş

işləklik dairəsi qazanmışdır. Lakin dialektlərimizdə (Qəbələ, Oğuz) şivələrində "çaqqal" sözü tamamilə başqa mənə çalarında işlənmişdir.

– Nəsir çaldığı otu çaqqala vurdu [ADDL, s.86].

*Tat*- yerli olmayan, başqa millətdən olan şəxs mənasındadır.

Tat tatını görər,
Tat oğlun götürər,
Oğlu yarpaq götürər,
Yarpaq torpaq götürər ( Ev, dam) [V.X, s.69].

Tat sözü dilçilik ədəbiyyatlarında müxtəlif mənalarda işlənir. M.Qıpçaq həmin sözün işlənmə məqamlarını aşağıdakı kimi təsnif etmişdir:

1.İran dilləri qrupuna daxil olan etnik qrupun adı;

2.Tərəkəmələrdən fərqli olaraq oturaq həyat tərzi keçirən adam;

3.Şəhərdə yaşayan adam;

4.Dini təhsili olan adam;

5.Yad adam [52, s.111].

B.Əhmədov isə "tat" sözünün mənasını belə şərh etmişdir: *"...qədim hind sözüdür, mənası başqa qəbilədən gəlmiş", "yeri olmayan" anlamındadır*". Canlı danışıq dilində daha çox "iranlı" anlamında işlədilir [EL, s. 244].

A.Axundov isə "tat" sözünü irandilli xalqlardan biri və həmin xalqa mənsub adam mənasında işləndiyini göstərmişdir [ADİL, s. 309].

Tapmacanın açması isə "evin tikinti materiallarına" işarə məqsədilə işlədilmişdir [43, s.28] və.s

**f) Azərbaycan xalq tapmacalarının dilində işlənmiş monqol mənşəli leksik alınmalar**

Məlum olduğu kimi, altayşünas alimlərin bir qismi türk dilləri ilə monqol dilləri, eləcə də tunqus-mancur dilləri arasında genetik əlaqə görürlər (Q.İ.Ramstedt, B.J. Vladimirsov, N.N.Poppe, E.D.Polivanov, N.A.Baskakov və başqaları). Bu alimlərin başqa bir qrupu belə hesab edir ki, bu əlaqə tipoloji əlaqədir. Bu dillər arasında genetik qohumluq yoxdur. (B.L.Kotviç, A.M.Şerbak, Q.L.Sanjeyev, B.A.Serebrennikov, H.Dörfer və başqaları). Bu sahədə xüsusi

araşdırmalar aparmış azərbaycanlı alim Ə.Abdullayev isə bu fikirdədir ki, Altay dilləri uzaq keçmişdə qohum dillər olmuş,bu qohumluq xüsusiyyətlərini indiyə qədər dilin müxtəlif qatlarında (yaruslarında) qoruyub saxlaya bilmişlər. Eyni zamanda, Ə. Abdullayev qeyd edir ki, Azərbaycan dili ilə monqol dilləri arasında qrammatika, söz yaradıcılığı, fonetika və semantika səviyyələrində uyğunluq tapmaq olur [3, s. 282]. Bu baxımdan Azərbaycan xalq tapmacalarının dilində işlənmiş aşağıdakı monqol mənşəli sözlərə təsadüf etdik:

*Tən*- bədən, bədənin yarı hissəsi anlamındadır.

Dəyirmana dən gəldi,
Qırmızı don tən gəldi,
Toxunmamış çuvalda,
Üyünməmiş un gəldi (İydə) [H.Z, s.56].

Ehtimal ki tən sözü dilimizə fars dilindən keçib [113, s.248].

"Azərbaycan dilinin izahlı lüğəti"ndə "tən" sözü "bədən, əndam", "bərabər", "məzəmmət", "danlamaq" anlamlarında işlədilmişdir [ADİL, s. 400].

Bu söz ədəbi dilimizin əvvəlki dövrlərində də mövcud olmuşdur. Məsələn:

Şunda ki, qıldum fəda küllümü bən küllünə,
*Tən* tənəvü can cana, dil dilə dəprətməgil [AKƏK-3, s.52],
Naləm gecələr olurdu yahu,
İncəldi *tənim* misali-yekmu [AKƏK-3, s.420]

"Azərbaycan dilinin dialektoloji lüğəti"ndə isə "*tən*" sözü tamamilə fərqli mənada işlənmişdir. Qazax dialektində *"tən*" sözü *"inəyin tənasül orqanı*" mənasında verilmişdir. Məsələn: Bizim boz inəyin təni yaman suyulufdu desəm, büyün doğajax (Qazax) [ADDL, s. 490].

*Cida*- nizə deməkdir.

Başında papaq,
Əlində cida.
Qur-qur quruldar,
Nə əsgər deyil, nə də qurbağa (Sulu qəlyan) [VX, s.166].

Cida sözünün mənşəyi haqqında Əhməd Cəfəroğlunun fikir və dəlilləri daha inandırıcı görünür. Belə ki müəllif bu sözü İbn Mühənnanın lüğətində tapdığını qeyd edir. Məhz həmin lüğətə əsaslanaraq yazır: "...*cida* kəlməsinin hələ İlhanilər zamanında digər əsgəri istilahlarla bərabər Azəri ləhcəsinə daxil olduğunu və özünün əski səklini qoruyub saxladığını söyləmək mümkündür" [13, s.140]. Maraqlı cəhət odur ki, digər türk dillərində həmin sözün işlənmə məqamlarına təsadüf etmədik. Lakin uzun müddət məişətimizdə hər hansı işi, hadisəni başqalarında gizlətmək mümkün olmadıqda zərbi-məsəl kimi "*Cidanı çuvalda gizlətmək olmaz*" ifadəsi işlədilmişdir. Artıq cida sözü müasir Azərbaycan ədəbi dilində işlənmir. Belə ki, nizə sözü bu sözü sıxışdıraraq tarixizmlər sırasına keçirib.

"Azərbaycan dilinin dialektoloji lüğəti"ndə də bu sözün işlənmə məqamına təsadüf etmədik.

Tapmacada sulu qəlyanın zahiri görünüşünə işarə olunmuşdur.

*Xatun*- xanım, kəbinli arvad, bəyin xanımı və s. anlamındadır.

İlim-ilim düyməsi,
İlin xatın düyməsi,
Hər kəs onu tapmasa,
On beş tümən cəriməsi (İstiot) [V.X, s.51].

Xatun sözünün mənşəyinə dair iki baxış mövcuddur. B.Əhmədov bu sözün monqol dilində "*ilk (böyük) arvad*" anlamında işləndiyini göstərmişdir. Hətta müəllif fikrini əsaslandırmaq üçün tacik və özbək dillərində də həmin sözün "*böyük arvad*" mənasında işləndiyini fakt kimi irəli sürmüşdür. Qədimdə xatun sözünün *"kəbinli arvad"* mənasında olduğunu da xatırlatmışdı [EL, s.124].

E.Əzizov isə həmin sözünün milli mənşəli söz olduğunu qeyd etmişdir. Müəllif fikrini sübut etmək üçün "Qədim türk dilləri lüğətində", Azərbaycan dialekt və şivələrində, o cümlədən "Kitabi-Dədə Qorqud"un dilində "xatun" sözünün eyni anlamda (xanım, arvad, qadın) işləndiyini xüsusi vurğulamışdır. Müəllif bu barədə yazır: "*Azərbaycan dili şivələrində xatun//xatın şəklində həm ayrıca, həm də xanım, kişi və qız sözləri ilə yanaşı işlənir*" [ADTD, s. 264].

Eyni zamanda, həmin sözlə əlaqədar "Kitabi-Dədə Qorqud"un dilinə toxunan müəllif dastandan belə bir nümunə də vermişdir: *"Dirsə xanın xatunu söyləmiş, görəlim, nə söyləmiş; Böylə digəc Dirsə xan xatununa cavab verмədi; Dirsə xanın xatunu qaətdə, geri döndü"* [34, s. 264].

H.Zərinəzadə isə "xatun" sözünün qədimdə "qadın", "xanım", "şah və ya xanın kəbinli arvadı" anlamında işləndiyini göstərərək fikrini belə əsaslandırır: "Bu söz XI əsrdən bəri fars dilində işlənməkdədər…hicri IV-V əsrlərdə qadınlar və şah qızlarının adına bir əlavə kimi artırılmış; sonralar türklərin dediyi kimi, onlara (xatun) deyilirdi"; monqollardan sonra isə (xanom) və (beyqom) işlənməyə başlamışdır.

…Səfəvilər dövründə Hindistanda yaşayan türklər (xatun) sözünü kişi adlarına, bir əlavə kimi artırırmışlar" [FDAS, s.287-288].

Bu söz dilimizin əvvəlki dövrlərinə aid yazılı abidələrdə də eyni şəkildə işlənmişdir. Məsələn:

O ruhi- salihə məsturi-*xatun*
Neçə tutsaq əsir almışdı satun [AKƏK-3, s.132].
Dedi xatun ki: nədir söylə halın,
Yumub qürə necə açıldı falın?![AKƏK-3, s.133]
Qızın istəyəlim almaq rəvamı?
Həlalın, xatunun olmaq rəvamı? [AKƏK-3, s.119].

Çoxsaylı ədəbiyyatların təhlilinə əsasən, bu sözün mənşəyinə dair iki fikir söyləmək olar. 1. Bu söz monqol mənşəli olub, ərəb, fars dilinə keçmiş, oradan dilimizə daxil olmuşdur; 2. Türk mənşəli olub monqol dilinə, o dildən də ərəb-fars dilinə keçmişdir. M.Adilov isə deyilənlərin əksinə olaraq, həmin sözün soğdi dilindən alındığını iddia etmişdir [4, s.56].

*Çopur*- ləkəli,yaralı sifət anlamındadır.

Sarı abası var bunun,
Büzmə yaxası var bunun,
Üstü çopur, içi dilim,
Gör nə səfası var bunun (Limon) [V.X, s.41].

Çopur sözünün mənşəyi ilə bağlı 2 mülahizə mövcuddur. B.Əhmədov hər iki mülahizəni belə şərh etmişdir: 1. Çopur – monqol mənşəlidir, əsli çoqur kimidir, "ləkəli" deməkdir; 2. Çopur– türk mənşəlidir və "çökək" sözü ilə qohumdur [EL, s.73]. Lakin həmin sözə nə "Azərbaycan dilinin izahlı lüğəti"ndə, nə də dialekt və şivə sözlərimizin tərkibində rast gəlmədik.

*Darğa*- məhəllənin rəisi, asayış keşikçisi anlamında işlənir.

Dəniz qırağı düzdü,
Sayı əllidi, yüzdü,
Darğa küsdü, baba köçdü,
Əlin baxçada üzdü ( Bal arası) [H.Z, s.113].

Darğa- sözünün mənşəyinə dair müxtəlif mülahizələr mövcuddur. H.Zərinəzadə həmin sözü milli mənşəli hesab edərək öz fikrini belə açıqlayır: "*Bu söz Qacar dövrünün sonuna qədər" polis idarəsi rəisi" mənasında işlənirdi. Klassik fars dilində bu sözün əvəzinə ərəbcə, "*şəhnə"*, müasir fars dilində isə "*şəhrbanu, rəuce-şəhrbanu, rəuce-kəlantəri" *ifadələri işlədilmişdir.*" Müəllifin bu şəhrindən aydın olur ki, darğa sözü dilimizdən fars dilinə keçmişdir [FDAS, s.298]. A.Axundov isə dolayı yolla da olsa, həmin sözün monqol dilinə aid olduğunu təsdiq edir: "*Darğa*- 1. Monqol xalqının vergi toplayan və əhalini siyahıya alan nümayəndəsi 2.şəhər, mahal və s hakimiyyət başçısı 3. Məc. himayədar" [ADİL, s.71]. M. Adilov da darğa sözünün monqol mənşəli olduğu fikrinə tərəfdar çıxaraq yazır: "*.....monqol dilindən alınmış daruqahh-darğa isə əhalidən vergi yığan məmur mənası daşımışdır"*[4, s.55]. Ə. Cəfəroğlu da V.V.Radlova istinad edərək həmin sözün mənşəyinin monqol dili ilə bağlı olduğunu təsdiqləmişdir [13, s.142]. Ə.Z.Abdullayev isə Azərbaycan-monqol leksik paralelliyindən bəhs edərkən monqol dilində *"darqa"* sözünün dilimizdəki darğa sözünə uyğun gəldiyini qeyd etmişdir [3 , s.307].

Darğa sözünə müasir türk dillərində aşağıdakı fonetik variantlarda təsadüf edirik:

*1.Darğa- Azərbaycan və türk dilində;*

*2.Tarğa- tatar, başqırd və yakut dillərində;*

*3.Tarka-qırğız, qazax,noqay, qaraqalpa və uyğur dillərində* [70, s.150] və s. Darğa sözünə ədəbi dilimizin əvvəlki dövrlərinə aid yazılı abidələrdə də təsadüf edirik. Məs.:

Darğa bizdən apardı, çarəmiz yox,
Nə dərdi-yarə, nə dərdi-diyarə [AKƏK-3, s.38] və s.

M. Adilovun digər qənaətinə görə, isə monqol dilinə məxsus darğa//daruğa ( və ya daruxaçı) əslində "əzən, basan" ( buradan da, ümumiyyətlə, " hakim" mənası yaranmışdır) deməkdir. Hətta müəllif folklorşünas alim M.H.Təhmasibə istinad edərək darğa sözünün Azərbaycan dilində *"bazarbəyi"* mənasında işləndiyini də xatırlatmışdır [4, s.281].

*Nökər*-kişi cinsindən olan xidmətçi, qulluqçu və s. anlamlarında işlədilir.

Gündüz ağa,
Gecə nökər (Yorğan-döşək) [V.X, s.163].

Nökər sözünün mənşəyinə dair müxtəlif məlumatlar mövcuddur. Türk dili lüğətlərində " nökər " bir qayda olaraq, həm fars, həm də monqol mənşəli söz kimi göstərilməkdədir. Ə. Cəfəroğlunun məlumatına görə, *əski fars mətnlərində nökər kəlməsinə təsadüf olunmur. Lakin müəllif monqol dilindən türk dilinə daxil olmuş nökər-sərdar tərkibinə əsaslanaraq həmin kəlmənin əsas qaynağının monqol dili olması qənaətinə gəlmişdir* [13, s.134].

Müxtəlif dillərdə işlənən nökər sözünün mənalarında oxşar və fərqli cəhətlərin mövcudluğu da diqqəti cəlb edir. Belə ki, monqol dilində nökər "*yaxın dost", "ortaq", "silahdaş*" mənasında işlənir. Türk dillərindən olan Altay dilində də bu söz köhnə mənasını qoruyub saxlayır. Lakin Azərbaycan dilində, eləcə də türk dillərinin bəzilərində bu söz öz mənasını tamamilə itirərək, əks məna qazanmış, **"***xidmətçi", "ağanın qulluqçusu***"** mənalarını kəsb etmişdir.

Ehtimal olunur ki, nökərlər vaxtilə (orta əsrlərdə) monqol qoşunlarında mühüm mövqe tutan səlahiyyətli şəxslər idi ki, adətən, xalqdan vergini də onlar yığarlarmış. Sonralar isə nökər sözünün həmin mənası köhnəlmişdir.

Bu sözə klassik yazılı abidələrin dilində də rast gəlmək mümkündür. Məs.:

Şah, şahlıq edər çü nökər olsa,

Eşikdə qulami-kəmtər olsa! [AKƏK-3, s.447] və s.

Tapmacada yorğan-döşəyin( cansız varlığın) “funksiyası” canlı varlığın üzərinə keçirilmişdir.

*Canavar*- yırtıcı vəhşi heyvan anlamındadır.

Bir atım var atılar,
Qulaqları çatılar.
Quyruğunu bərk qısar,
Sinib dərədən busar ( Canavar) [H.Z, s.71].

Canavar sözünün mənşəyinə dair müxtəlif mülahizələr mövcuddur. Həmin sözü A.Axundov [ADİL, s.53], S.Altaylı [ATS, s. 168], E. Piriyev fars [157, s. 24], B. Əhmədov türk [ EL, s.58], M.Qıpçaq isə monqol [52, s.56] mənşəli hesab etmişlər. Yuxarıda adları çəkilən alimlər fikirlərini əsaslandırmaq üçün müxtəlif arqumentlər (yozumlar) irəli sürmüşlər. Hər üç arqumentə diqqət yetirək: Məsələn, “Kitabi-Dədə Qorqud”un dilində fars sözlərini tədqiq edən E.Piriyev bu münasibətlə yazır: “Fars sözü olan canəvər müasir Azərbaycan dilində canavar formasında “qurd” mənasında işlənir. Canavar sözü düzəltmə sözdür; can “can” və avar “ daşıyan” (avərdən” daşımaq” feilindən) sözlərindən ibarətdir. Canəvər sözü “heyvan” mənasında “Kitabi-Dədə Qorqud” da işlənmişdir”. B.Əhmədovun qənaətinə görə, türk mənşəli *canavar* sözü , əslində, *qanavar ( qana varan, qan aşiqi, qana gedən, qanı sevən*) kimi olub, sonra ilk samiti dəyişmişdir. M. Qıpçaq isə canavar sözünün monqol mənşəli *çona* ”qurd” və türk mənşəli *börü*” qurd” sözlərinin birləşməsindən yaranması fikrini ağlabatan hesab etmişdir. Fikrimizcə, canavar sözünü türk mənşəli hesab etmək o qədər də inandırıcı görünmür, çünki türk xalqlarının əksəriyyəti canavarı börü adlandırmışlar.

Sual olunur: bəs canavar sözü dilimizdə nə vaxtdan işlədilməyə başlanılmışdır? Ehtimal ki, börü sözünün işlədilməsinə qoyulan yasaqla (tabu) əlaqədar olaraq dilimizdə “vəhşi heyvan” mənasında canavar sözü işlədilmişdir. Qeyd edək ki, canvər sözü canavar fopmasında qaqauz dilində də işlənməkdədir. Lakin *qurd* sözü canavar sözü ilə müqayisədə müasir türk dillərinin çoxunda

işlənməkdədir. Nəticə olaraq edək ki, dünyada saf dil yoxdur. Dilimizin lüğət tərkibindəki sözlərin yarı faizi alınmadır. Lakin bu sözlər dilimizin fonetik quruluşuna müəyyən dərəcədə uyğunlaşıb, xalq tərəfindən mənimsənilib və artıq dilimizin lüğət tərkibinə daxil olub.

### 2.1.2. Tapmacaların dilində işlənmiş köhnəlmiş (arxaik) sözlər

Azərbaycan xalq tapmacalarının leksikasının mühüm hissəsini arxaik sözlər təşkil edir. Tapmacaların dilindəki arxaik sözlər, öncə Azərbaycan yazılı abidələrində işlənmiş, sonralar isə ədəbi dilimiz üçün arxaikləşmişdir. Lakin buna baxmayaraq, həmin sözlərin bir hissəsi tapmacaların leksikasında hələ də qalmaqdadır.

Məlumdur ki, arxaizm adlandırılan bu və ya digər sözün konkret bir dilin əvvəlki dövrlərinə aid yazılı mənbələrində işlənməsi əsas şərtdir. Fikrimizcə, müəyyən bir sözün yazılı abidələrdə işlənməsi həmin sözün qədimiliyinə, tapmacalarımızın dilində işlənməsi isə bu sözün tarixən Azərbaycan dilinə mənsubluğuna dəlalət edir.

Çünki qədim sözlər və sözlərin qədim mənaları konservləşmiş şəkildə xalqın xüsusi məşğuliyyəti ilə əlaqədar olan leksikada, tapmaca nümunələrinin dilində daha yaxşı saxlanılmışdır.

Tapmaca nümunələrində işlənmiş bəzi arxaizmləri nəzərdən keçirək:

*Eşik*- qapıönü, astana, həyət anlamında işlənir.

Eşiyı yaşıl, içi qırmızı lalələr,
Nə atası var, nə anası balalar (Çiyələk) [H.Z,s.125].

Eşik, qədim türk sözüdür. Qədim türk lüğətində eşik sözünün *çöl; bayır tərəf; qapı ağzı; kandar; qapı; ev; saray* və s. mənaları da qeydə alınmışdır [ QTL, s.185] Maraqlıdıdır ki, bu söz canlı danışıq dilində həm *bayır*, həm də “*ev-eşik*” şəklində işlənərək ümumilikdə “ailə” mənasını da verir. Daha çox Qərb qrupu dialektlərində *“evdən kənar, bayır*” mənalarındadır. “Azərbaycan dilinin dialektoloji lüğəti”ndə fonetik variantında (Böyük Qarakilsə, Çəmbərək, Naxçıvan, Oğuz, Tovuz, Zaqatala) həyat mənasında işləndiyi qeyd olunmuşdur. [ADDL, s.163] “Azərbaycan dilinin izahlı lüğəti»ndə bu sözün qarşısında bayır, dişarı, çöl, bayıra çıxan mənası verilmişdir.

Danışıq dilində eşik sözü son dövrlər daha çox “ailə” anlamında işlənməkdədir. Məsələn: Ev-eşik necədir?

Ədəbi dildə isə bu tərkib iki mənada həm yaşayış yeri; həm də ailə məzmununda çıxış edir.

O.Süleymenov “Az-Ya” kitabında bu sözün qədim şumer dilində *ab qapı, eş ev* mənasına ümumitürkdə isə av/ab, ev, eb, üy, es, eşık (eşik) qapı anlamı verilməsini qeyd edir. [64, s.96]

Eşik sözü XIX əsrə qədər demək olar ki, bütün bədii dil mənbələrində, həm də başqa məna çalarlarında işlənmişdir. Məs.: Qapu *eşıgı* üzərindən aqruri qomışlardı [KDQ, s.201]. “Şum rəqib sözü bilə qovdun *eşıgından* məni” [AKƏK-3, s.93; s.107]. Cümlə bu xəlqi-cəhanın qilü qalından mənə; *Eşigində* itlərünün macərası xoş gəlür. [AKƏK-3;s. 94;46] Könül bir yarə vermişdir Xətai; *Eşigindən* sələtınlər gədadır. [AKƏK-3; s.95; s.32] Bu söz müxtəlif türk dillərində fonosemantik fərqlə işlənir. Məs.:

uyğur dilində işık qapı [158, c.173]

altay dilində ejik//eşık qapı [ 159 , c.230]

xakas dilində ızik//qapı [160 , c.438- 440]

qırğız dilində eşık qapını əvəz edən örtük [ 161 , c.970]

tatar dilində üşek qapı [162, c.181]

qaraqalpaq dilində ecik qapı [ 163 , c.201]

qumık dilində eşık qapı [164 , c.560]

tuva dilində eşık qapı [165 , c.607]

F.A.Cəlilov aşka sözünün qapı ağzı, eşik (qapı) anlamını bildirdiyini qeyd etmişdir. [50, s.39] Türk dillərinin etimoloji lüğətində bu *sözün i:şık//iyşık// işik// üöük// ı:şık//eşıq//ejik//ecik/öz:k//yeşik/yışık* [QTL, s.397-397] şəkilləri və onların on bir mənası verilir. Onlardan qapı, qapı ağzı, evin qabağı kimi mənalar Azərbaycan dilindəki məna ilə üst-üstə düşür.

Bizcə, eşik sözünün tarixi-semantik açımı haqqında aşağıdakı mülahizəni söyləmək olar: əvvəla, eşik sözü kök və şəkilçi birikməsidir. Sözün kökünə aş şəklində indiki qaraqalpaq danışıq dilində rast gəlinir. Bu *aş* kökünü *aç* – feilinin fonovariantı kimi götürəndə, *kaha, alacıq, çadır* kimi anlamı daha qədim məna daşıyır: *aç+ıq–*

*aşıq*→ eşik xətti qəbul edilə bilir. Sözün –ik hissəsinə gəldikdə deməliyik ki, bu şəkilçidir, feildən isim düzəldib. Müqayisə et: kəsik, deşik və s. –ıq, -ik, uq, -ük şəkilçisi bütün türk dillərində var. Mütəxəssislər bünün Orxon-Yenisey abidələrində də feildən isim düzəldiyini qeyd etmişlər [57, s.16]

Nümunələrdəki məlumatlardan da görünür ki, eşik daha çox hüzur, məcazi mənada qapı, qapında (qapına gəlmişəm) mənasında işlənmişdir.

*Tümən*- pul vahidi; on minə bərabər müəyyən miqdar sayı.

İlim-ilim düyməsi,
İlim xatın düyməsi,
Hər kəs onu tapmasa,
On beş tümən cəriməsi (İstiot) [V.X, s.51].

Tümən sözünün mənşəyinə dair iki mülahizə mövcuddur. Bəzi dilçilər , o cümlədən B. Əhmədov həmin sözü fars mənşəli hesab etsə də, lakin çoxluq etibarilə, əksər dilçilər həmin kəlməni (B.Xəlilov, H.Zərinəzadə, R. Məhərrəmov, Ə.Tanrıverdiyev və başqaları) milli mənşəli sözlərimizin tərkibinə daxil etmişlər. Ümumiyyətlə, rus dilinə aid lüğətlərin bəzisində, o cümlədən “Xarici sözlər lüğəti” (Словаръ иностранных языка) , “ Rus dilinin izahlı lüğəti” (Толковый словаръ русского языка) lüğətlərində isə tümən sözü fars mənşəli söz hesab edilmişdir. Bəzi dilçilər məhz bu mənbələrdən bəhrələnərək tümən sözünü fars mənşəli hesab etmişlər. H.Zərinəzadə isə həmin sözü milli mənşəli söz hesab edərək aşağıdakı mənalarda işləndiyini göstərmişdir.

1.On min mənasında; 2. Yüz para kənd (Hərəsində yüz kənd olan qəsəbələrin cəmi mənasında); 3.On min dinarə bərabər pul vahidi; 4. On min əsgərdən ibarət qoşun hissəsi və s.

Eyni zaman müəllif qədim zamanlarda “tümən” sözünün qeyri-müəyyən miqdar kimi türk dillərində işləndiyini də qeyd etmişdir.

Ə.Tanrıverdi “Kitabi-Dədə Qorqud” dastanının Drezden nüsxəsinin 17-ci səhifəsində işlənmiş (*Ağ ayıldan tümən qoyun vergil*) cümləsinin tərkibində olan “tümən” sözünün “pul vahidi” məzmunlu yox, say məzmunlu söz olduğunu qeyd etmişdir [ 66, s.111].

Məlumdur ki, qədim türk yazılı abidələrində, konkret desək, Kül Tigin, Bilgə Xaqan, Küli Çor, Moyun Çor kimi abidələrdə də "tümən" sözü on min, on minlik qoşun hissəsi mənasında işlənmişdir. Həmçinin B. Xəlilov da "tümən" sözünün türk dillərində beş mənada işləndiyini göstərmişdir.(I. "on min", "çox,çoxlu"; II. " On min nəfərdən ibarət dəstə"; III. "çox böyük məbləğ, pul"; IV."on min nəfərlik ordunun yerləşdiyi vilayət, dairə, mahal"; V. "yüz kənd tabe olan şəhər(cığatay dilində) . Sonra müəllif V.V. Radlova istinad edərək tümən sözünün cığatay dilində "*varlı olmaq",* tümənlik sözünün Azərbaycan dilində *"qızıl sikkə"* mənalarında da işləndiyini qeyd etmişdir [32 , s.194].

Qeyd edək ki, vaxtilə qədim slavyanlar "on min" sayı əvəzinə "tğma" (nəhayətsiz çoxluq), XVII əsrdə isə milyon sayını "tğma" adlandırmışlar [FDAS, s.245] Ancaq "tümən" sözü Qərb ləhcəsində "on min" mənasında yox, yalnız "pul vahidi" mənasında mühafizə olunmuşdur (məsələn, Qara Məmməd yüzdüx[1] tümənnəri yelə verdi). 1930-cu ilə qədər "tümən" İranda on riala bərabər olan "pul vahidi" kimi də işlənmişdir.Verilmiş tapmaca nümunəsində də "tümən" pul vahidi mənasında işlənmişdir.

*Bay*-dövlətli, zəngin ,varlı və s.

Bay-bay ayaqlı
Mənzər dodaqlı,
Çəkərəm gəlməz,
Banu ayaqlı (Zəli) [N.S, s.12]
Bay-bay uçar,
Bay-bay qonar,
Bay iliksiz,
Bay sümüksüz (Kəpənək) [V.X, s.96].

Bay sözü tapmacaların dilində "varlı" kimi təqdim olunmuşdur. Bu sözə Orxon-Yenisey abidələrində, M. Kaşğarinin lüğətində də eyni mənalarda təsadüf edilir (QTL, s.64). Hətta özbək şairi Ə.Nəvai isə bay sözünü "nökər" sözünün antonimi kimi işlətmişdir [125, s.31].

Bay sözü klassik ədəbi dilimizdən XIX əsrə qədərki yazılı bədii nümunələrdə geniş şəkildə əksini tapmışdır. Məsələn:

"..Dəlim oğlanlar aldı ay surətli,

Gözü nərgiz, yüzi gül, *bay* sirətli [AKƏK-3, s.116]

"Azərbaycan dilinin izahlı lüğəti"ndə bay sözü "dövlətli, zəngin, varlı, bəy" mənalarında verilmişdir [ADİL, s.24 ]."Türkcə-Azərbaycanca-rusca sözlüyü"ndə bay sözünün "cənab" mənası da göstərilmişdir.

Bu söz müasir türk dillərində aşağıdakı fonetik variantlarda işlənir:

1. Bəy- Azərbaycan dilində;
2. Bay- Azərbaycan, özbək, uyğur, qaqauz, qumıq, qırğız, qazax,noqay başqırd, Krım tatar, Qaraçay-Balkar dillərində;
3. Ba:y- Türkmən, yakut dillərində;
4. Pay- tatar, xakas, Altay dillərində;
5. Puy- çuvaş dilində [70, s.153].

   Hal-hazırda müasir ədəbi dilimizdə bay sözü fonetik dəyişikliyə uğramaqla yanaşı, semantik cildini də dəyişmişdir.

*Yemiş*- yeməli meyvə

Astadı hay astadı,
Əlim tükə bəstədi,
Yemiştərdən, nə yemiş,
Tumcığazı üstədi (Qarğıdalı) [H.Z, s.137].

Yemiş, qədim türk və uyğur yazılı abidələrində, qədim türk sözlüklərində qeydə alınmışdır [100, s. 16]

Yemiş vaxtilə bütün yeməli meyvələrin ümumi adı olub. Ehtimal ki, yemək feili ilə bağlı yaranmışdır. Meyvə sözü bizə ərəblərdən keçib.Yemiş sözü şivələrimizdə də yer-yemiş şəklində müxtəlif meyvə qarışığı mənasında işlənir. Lakin ədəbi dildə yemiş sözü semantik daralmaya məruz qalaraq yalnız iki sözdə (qovun və yemşəndə) qalır. Bu qədim sözə orta əsrə aid yazılı dil mənbələrində də rast gəlinir. Məs.: *Yemişin* eyüsin tonuz yeri [ FDAS, s.202]. Mən əfşürəyi-təami-şahəm, *Yemişlər* içində padşahəm [ AKƏK-3, s.201] və s.

Mənbələrə istinadən demək olar ki, meyvə sözü dilimizə keçməmişdən öncə, onu yemiş sözü əvəz etmişdir. Tapmacaların dilində ən çox yemiş sözü işlənmişdir.

### 2.1.3. Tapmacaların dilində işlənmiş dialekt sözlər

Məlumdur ki, Azərbaycan danışıq dili şivələr sistemindən ibarətdir. Öncə sadə danışıq dilindən ibarət olmuş Azərbaycan xalq tapmacaları həm fonetik və qrammatik cəhətdən, həm də lüğət tərkibi baxımından ümumxalq dili əsasında formalaşmış ədəbi dildən fərqli bir sıra xüsusiyyətlərə malikdir. Məhz bu xüsusiyyətlər özünü yazıda nisbətən az, tələffüz isə daha çox büruzə verir. A.Axundov bu barədə belə yazır: "... *hər bir dil öz tələffüz qaydalarına görə müəyyən bir dialekt və ya şivəyə əsaslanır. Belə bir mühüm ictimai vəzifə daşıyan dialekt və ya şivənin müəyyənləşdirilməsi isə linqvistik şərtlərdən daha çox həmin dialekt və şivənin xalqın ictimai, iqtisadi, siyasi, mədəni həyatında oynadığı roldan asılı olur*" [6, s. 15-16].

*Zağa*-mağara, vəhşi heyvan yuvası mənasında

Yekə zağada otuz iki qoşunun bir sərkərdəsi var (Ağız, dil, diş) [V.X, s.87].

Zağa – dialekt sözdür. Azərbaycan dialekt və şivələrində "zağa" omonim söz kimi iki anlamda işlədilir.

Zağa I (Zəngilan) – zəif–Kamil yaman zağadı.

Zağa II (Ağbaba, Çənbərək, Hamamlı, Qax, Naxçıvan, Şərur) –1. Mağara (Ağbaba, Çənbərək, Naxçıvan, Şərur) – Qapalı zağa çox pis yerdədi (Ağbaba); 2. Vəhşi heyvan yuvası (Qax) [ADDL, s. 554].

Tapmacanın dilində "zağa" əsasən 32 dişin yerləşdiyi ağıza işarə olunduğu ehtimal olunur. Digər qohum türk dillərində həmin sözə təsadüf etmədik.

*Ulama*-xışın və ya kotanın calaq hissəsi

Ulama, ay ulama,
Nafil oxu dolama,
Gündüz gedər şah bağına,
Gecə gələr salama (Çıraq ) [H.Z, s.152].

Ulama – Azərbaycan dialekt və şivələrində iki anlamda işlənir.

Ulama I (İmişli) – calaq, II (Ağdam, Basarkeçər, Bərdə, Göyçay, Göygöl, Kürdəmir, Qazax, Oğuz, Şəki, Zaqatala) – xışın və ya kotanın bir hissəsiin adı. [ADDL, s. 517]

Bizcə, ulama – el arasında arabanın dal və qabaq oxlarını birləşdirən ağaca da deyirlər. Çünki bu sözün kökü «il» feili əsasında yaranmış "ilmək", "ilgək"; "ilmə", "ilişmək" sözləri kimi əlaqə yaratmaq mənasına uyğun gəlir. *"Türk dillərinin geneologiyası: şumer və türk leksik paralelləri" sözlüyündə də "ulama" sözü (birləşdirmək, əlaqə) məna çalarlarında işləndiyi göstərilmişdir"* [EL, s. 317].

Qeyd edək ki, bəzi türk dillərində (başqırd, tatar, qazax və s.) xəstəliyin yoluxmasına da "ulaşma" deyirlər. Məhz dilimizdə də "ilişmək" sözü bu mənada işlədilir. Ehtimal ki, elə "yoluxmaq" kəlməsi də "ulaşmaq" sözünün təhrif edilmiş formasıdır.

*Yarmaça*-odun parçası

Bir damım var içi dolu ağ yarmaça (Ağız və dişlər) [V.X, s.256].

Yarmaça – Azərbaycan dialekt və şivələrində (Gədəbəy, Gəncə, Göyçay, Qazax, Borçalı, Lənkəran, Mingəçevir, Salyan, Zəngilan) "odun parçası" mənasında işlədilir. Məs.: Ələkbər meşədən bir yük yarmaça gətdi (Zəngilan) [ADDL, s.542]. Ehtimal ki, yarmaça "yarmaq" feilindən əmələ gəlib "yarılmış odun parçası" anlamındadır.

*Lələ*-ata, tərbiyəçi mənasında

Lələyəm, ləlındiyim,
Bələyə, bələndiyim.
Əkdim, biçdim,
Sovurdum, şələndiyim ( Qurşaq) [H.Z, s.306].

Qeyd etmək lazımdır ki, bu söz (lələ) Azərbaycan dialekt və şivələrində "ata", "böyük qardaş", "nökər", "baba", "uşaq saxlayan" anlamlarında işlədilir. [ADD, s.178]

Həmçinin H.Zərinəzadə də Azərbaycan dilinin Şamaxı rayon şivəsində "lələ" sözünün "ata" və "məsləhətçi", Xələc şivəsində isə "qardaş" mənalarında işlədildiyini göstərmişdir. Şifahi xalq ədəbiyyatı nümunələrində daha çox "tərbiyəçi" anlamında işlədilmişdir. Fikrimizcə, tapmacanın kontekstində işlədilmiş "bələk", "şələnmək" sözləri imkan verir ki, "lələnin" kimliyini müəyyən edək. Tapmacada yuxarıda

sadaladığımız mənalarda ən çox “uşaq saxlayan” “tərbiyəçi” mənaları daha uyğun gəlir.

*Çul*-taqətdən düşmək anlamında

Çullaram çulun salar (Sac) [ N.S, s.178].

Çul – dialekt sözdür. Azərbaycan dialekt və şivələrində (Cəbrayıl, Mingəçevir, Salyan, Oğuz) “yorulub əldən düşmək”, “taqətdən düşmək” anlamlarında işlədilir. Məs. O qədər işdəmişəm ki, yap çul düşmüşəm. (Cəbrayıl) [ADDL, s.107]

Çul “sarımaq vasitəsidir”. Çullamaq nəyi isə başqa əşyaya sarımaqdan ibarətdir. Dialektlərdə “eşşəyi çullamaq” dedikdə, adətən, palanı eşşəyə sarımaq mənasında işlədilir. Hətta bəzi dialektlərdə (Borçalı, Şəki) “çox paltar geyinmiş adama bərk çullanmısan” ifadəsi də işlənir. Məhz tapmacanın açmasını belə yazmaq olar. Sac çullanır, yəni əsasən, çörək bişirmək aləti olan sac, ilk növbədə, xəmir kündələri ilə yüklənir (çullanır), sonra isə bişmiş çörəklər sacdan götürülür, yəni sac çulundan (yükündən) azad olur.

*Həprim* – qocalıb əldən-ayaqdan düşmək, qocalmaq, yaşlaşmaq və s.

Anası yayma xatın,
Atası həprim qoca,
Qızı ellər gözəli,
Oğlu ellər dəlisi (Meynə, üzüm tənəyi) [N.S, s.155].

*Həprim* – Azərbaycan dialekt və şivələrində (Mingəçevir, Borçalı, Şərur, Göyçay) “qocalıb əldən düşmüş”, “qocalmaq” anlamlarında işlədilir.

– Ay bala, mən indi çox həprimişəm [ADDL, s.202]. Nümunədə üzümün gövdəsinin əyilmiş formada olmasına, bir növ, qocalıb əldən düşmüş görkəmə malik olduğuna işarədir.

*Vərdənə*-yoğun oxlov

Bir dağarcıq unum var,
İçində bir vərdənə ( İydə) [H.Z,s.208].

Vərdənə – Azərbaycan dialekt və şivələrində (Ordubad, Ağbaba, Ağdam, Astara, Lerik, Şuşa, İrəvan, Zəncan və s.) “yoğun oxlov” anlamında işlənməkdədir. Məs.: Kündəi əvvəlcə vərdənəynən yayıllar, oxluynən də yuxa; çıllar <yuxa açırlar>

(Şuşa); Xəmiri kündəlirix, vərdəneynən vərdənəli: rıx, oxlovnan açırıx. (Ordubad) [ADDL, s. 533]

Bəzi dilçi mütəxəssislər isə bu sözü yanlış olaraq, fars mənşəli hesab etmişlər. B.Əhmədov bu barədə yazır: *"Sözün əsli "kərdənə"dir, fars mənşəlidir, mənası "fırlanan", "dolanan" deməkdir, gəriftən məsdəri ilə bağlıdır. Farslar şiş mənasında gərdənə kəlməsindən istifadə edirlər".* [EL,s. 265]

*Çanaq*-ölçü vahidi

Bir çanaq üzüm,
Yollara düzüm,
Boğazı, beli
Büzüm ha büzüm ( Qarışqa) [V.X,s.248].

Çanaq – Azərbaycan dialekt və şivələrində (Ağdam, Gədəbəy, Yevlax, Zəngilan) "şəxsi kasa", "ölçü qabı", "ölçü vahidi" anlamlarında işlənməkdədir. [ADDL, s. 89] Əslində çanaq "içi oyuq" deməkdir. Vaxtilə ,əsasən, ağacdan oyulmaqla düzəldilən qab növü olmuşdur. Sonralar içi oyuq dəyirmi formalarda olan qablar da çanaq adlandırılmışdır.

*Çala*-çökək yer

Ağ çala qara toxum,
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm (Yazı) [N.S, s.290].

Çala – dialekt və şivələrdə müxtəlif anlamlarda (çəltik ləki, biçənək, tarla düşərgəsi, yer, sahə, təndir) işlənsə də, Bakı, Yardımlı, Saatlı, Zəngibasar dialektlərində "dərə" anlamında işlənməkdədir. Fikrimizcə, çala "su çökəkliyi" ilə bağlıdır. Eyni zamanda, çala bəzən "çuxur, çökək yer" mənalarında da işlənməkdədir.

*Köndələn*-tərsinə,mailli anlamında

Bir evdə bir kişi var,
Köndələn yatışı var (Pişik) [V.X, s.194].

Köndələn sözü Azərbaycan dialekt və şivələrində (Tovuz) "tərs, tərsinə" (Füzuli, Masallı, Şəmkir, Şuşa) – "maili, yanakı, yanı üstə" anlamlarında işlədilir. Məs.: Yeşix[1]ləri köndələn yığ ki, yer çox qalsın (Şuşa). Arxı köndələn çəkifsən (Şəmkir)

[ADDL, s. 261] tapmacanın kontekstinə uyğun olaraq həmin söz “əyri, tərs yatmış” mənasındadır.

*Şal*-baş örtüyü

Dili var, insan deyil,
Tikişi var, şal deyil,
Yarpağı var, gül deyil ( Kitab) [N.S, s.279].

Azərbaycan dialekt və şivələrində “şal” yumşaq, nazik yundan və sairədən toxunmuş baş örtüyü anlamında işlədilir. Şəki dialektində isə “şal” üstünə tut çırpmaq üçün xüsusi tikilib hazırlanmış iri parça mənasında işlədilir. Məs.: Tutu şala sirkəleyrix, bəhməz qayrırıx [ADDL, s.455].

*Dədə*-ata mənasında

Vay dədə papağım ağacda qaldı ( Qoz ləpəsi) [H.Z, s.139].

Dilçilik ədəbiyyatlarında “dədə” sözünün mənşəyinə dair müxtəlif mülahizələr mövcuddur. Bəzi mütəxəssislər “dədə” sözünü qədim hind sözü kimi qeyd edərək, “ata” mənasında işləndiyini göstərmişlər [101, s.14]. Bizcə, Qərb dialektlərində hal-hazırda ata mənasında həm dədə, həm də lələ sözləri paralel işlənməkdədir. Güman etmək olar ki, dədə türk mənşəli sözdür, dad (dadsızdır, dadlı), yəni yem anlamı ilə bağlı olub, “qidalandıran” deməkdir. Dədə Qorqudu xatırlayaraq, demək olar ki, dədə “öyüd-nəsihət verən”, “rəhbərlik edən” başçılıq etmiş şəxslər nəzərdə tutulmuşdur. “Azərbaycan dilinin izahlı lüğəti”ndə “dədə” sözü ata; ataya müraciət anlamlarında işlədilmişdir [102, s.75].

*Diqqana*-kiçik, bir az

Bir quşum var diqqana,
Gecə çıxar dik qana,
Ürəyi şir ürəkli,
Özün yaxar oddana (Pərvanə) [H.Z, s.112].

Dıqqana sözü Ağdaş, İmişli, Borçalı, Kürdəmir, Mingəçevir dialekt və şivələrində “bir qədər, bir az “anlamlarında işlədilir [ADDL, s.130]. Ehtimal etmək olar ki, tapmacada diqqana kəlməsi “dıqqılı” sözünün qafiyəyə uyğun fonetik dəyişməsidir.

*Kərk*i-əyri dəmir alət

Nə baltadır, nə kərki,
Bütün kəsərdən iti (Söz) [V.X, s.142].

Dialekt və şivələrimizdə (Ağdam, Bakı, Cəbrayıl, Kürdəmir, Qusar, Ordubad, Şamaxı, Şərur, Salyan, Zaqatala, Yardımlı və s.) kərki sözü kətmən və yaxud qənd doğrayan çəkic anlamlarında işlədilməkdədir [ADDL, s. 251]. Əslində kərki sözü "əyri" deməkdir. Kərki formaca toxayabənzər (əyri) dəmir alətdir, ağzı içəriyə doğru əyilmiş olur. Eyni zamanda, dialektlərimizdə "kərki" sözü hal-hazırda işlənməkdədir. Fikrimizcə, bunların hər ikisi eyni sözün müxtəlif formalarındadır. "Azərbaycan dilinin izahlı lüğəti"ndə kərki sözü enli tiyəli, uzun saplı kəsici alət kimi qeyd olunmuşdur [ADİL, s.170].

*Dağara*-davakar, inadcıl

Dağdan gəlir Dağara xanım,
Əlləri xınalı xanım,
Farsı çalır, türk oynayır,
Ay keçi köynəkli xanım ( Kəklik) [H.Z, s.120].

Azərbaycan dilinin dialektlərində "dağara" sözü "oyunun gedişində ümumi qaydanı pozan, cığal", "davakar", "inadkar", "sözə baxmayan" anlamlarında işlədilir. Məs.: O, dağal adamdı (Laçın) [ADDL, s.110]

Ehtimal ki, dağara (cığal sözünün) təhrifi də ola bilər. Onu da qeyd edək ki, cığal sözü isə fars mənşəli sözdür, mənası "yalançı" deməkdir. İndi dilimizdə məna bir qədər dəyişilmişdir.

*Qulun*-at balası

Dar küçədə qulun kişnər. (Güllə), [V.X, s.15]

Qulun//qulan – yeni doğulmuş at balası. Bu söz müasir türk dillərindən özbək dilində *kulon*;qazax dilində *külan*; qırğız,noqay, qaraqalpaq, uyğur dillərində *kulan*; türkmən dilində *qulan*; tatar dilində *kolın*; tuva dilində isə *kulun* şəklində işlənir [103, s. 52]. "Azərbaycan dilinin izahlı lüğəti"ndə qulun və qulan sözləri sinonim hesab edilir. Burada qulan və qulun sözləri "körpə at balası", *qulunca* isə "yeni doğulmuş at balası" mənasında şərh olunur (ADİL, I, c., s. 572). Azərbaycan dili

şivələrində hər iki sözə rast gəlirik. Qulun sözü “bir yaşar at balası” mənasında Qazax, Tovuz, Şəmkir və Cəbrayıl şivələrində işlənir (ADDL, s.153-155). Qərb dialektlərində qulun kəlməsi daha geniş şəkildə işlənməkdədir.

*Qaşqa*-heyvanın başında (alnında) olan ağ ləkə

Qaşqa inəyi
Bir gün itirdim,
Üç aya tapdım (Arpa) [H.Z, 27].

*Qaşqa*, sözü əksər dialekt və şivələrdə işlənir. Qədim türk mənbələrində bu sözün aşağıdakı mənaları göstərilmişdir: ulduz /qaşqa at – ulduzlu at/ [105, s. 431]. Azərbaycan dilinin dialekt və şivələrində bu söz müxtəlif mənaları olan omonim kimi çıxış edir. Belə ki misal olaraq Qazax, Borçalı, Tovuz, Balakən, Şəmkir və Şəki dialektlərində bu sözün aşağıdakı mənaları var: 1. Heyvanın alnı; heyvanın alnında ağ ləkə [ADDL, s. 124; s. 30; s. 13].

Bundan başqa metaforik mənası olan bu söz Şəmkir, Qazax, Borçalı, Laçın dialektlərində “tərs”, “dəcəl”, “utanmaz”, “arsız” və b. mənalarda üzə çıxır. Yuxarıda göstərilən tapmacada bu söz alnında ağ ləkəsi olan mənasını verir.

Qeyd edək ki, Anadolu türklərində qaşqa yerinə akıtma işlədilir.

*Oğlaq* – buzov

Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi,
Əyilir su içməyə,
Bəyirir oğlaq kimi (Yel, sel) [V.X, s.46].

Heyvandarlıqla əlaqədar olan oğlaq sözü Azərbaycanın bu təsərrüfat növü ilə məşğul olan rayonlarında geniş işlənir. Ümumdialekt sözü olan oğlaq sözünün “Azərbaycan dilinin orfoqrafiya lüğətin”ə daxil edilməsinin [104, s. 391] səbəbi kimi onun ümumişlək olması göstərilir. Bəzi mənbələrdə oğlaq sözünün başqa mənası da “altıaylıq buzov” göstərilir [106, s. 49; s. 124; s. 79].

*Vəcə* - cavan arı

Əzizim vəcə verər,
Sana gör necə verər

Torpağsız susuz yerdə

Yarpağsız vəcə verər (Maral buynuzu) [V.X, s.123].

"Azərbaycan dilinin dialektoloji lüğətin"də göstərilir ki, Quba dialektində vəcə sözü "cavan arı" mənasında işlənir [ADDL, s. 98]. Qeyd etmək lazımdır ki, bu söz də ümumdialekt xarakterli olaraq Azərbaycan dilinin bir çox dialektlərində işlənir. Ümumxalq danışıq dilində bu söz "bəhər /meyvə" mənası daşıyır. Şəki və Zaqatala dialektlərində bu söz müəyyən fonetik dəyişikliyə məruz qalaraq beçə formasında da işlənir. Bakı və Salyan dialektlərində bu söz feili birləşmənin tərkibində "vecə gəlmək" – "gərəkli, xeyirli olmaq" anlamında işlənir. Nümunə olaraq: Bu xərəbdü, vecə gəlməz (Bakı dialekti); Ona didim vecə gəlmədi (Salyan dialekti).

*Eymə*-qoyun dərisi

Bat-bat ayaqlı,
Eymə dodaqlı,
Belində var dağ,
Ayağında yağ ( Dəvə) [V.X, s.91].

Eymə, əksər Azərbaycan dialekt və şivələrimizdə" *içində süd məhsulları saxlamaq üçün yundan təmizlənmiş, tüksüz qoyun dəris*i"nə deyilir. Eymə sözünün semantikasına və digər qohum dillərdə işlənmə məqamlarına diqqət yetirək:

*Eymə* sözünün kökü *ey* bir sıra türk dillərində müxtəlif mənalarda işlənir. Misal olaraq türkmən dilində ey – "dərinin emalı üçün istifadə olunan duzlanmış turş süd", qaraqalpaq dilində "dərinin aşılanması üçün istifadə olunan maya, aşılanma", qırğız dilində "aşılama", qazax dilində isə "dərinin emalı" mənası daşıyır [107, s. 236]. Deməli, **ey** əksər türk dillərində (aşılamaq) kəlməsi zəmnində əmələ gəlib. Hətta eymə leksik vahidi Azərbaycanın qoyunçuluqla məşğul olan bölgələrində, xüsusilə Qazax, Gədəbəy, Naxçıvan dialekt və şivələrində də işlənir [ADƏ, s.210; s. 98; s.233].

Hal-hazırda eymə, əsasən, qatığın və yağın saxlanılması üçün istifadə olunmaqdadır.

*Firəngi* – qatlanmayan dəmir bıçaq.

Həvəng - həvəng içində,

Həvəng də zəng içində,

Nə yerdədi, nə göydə,

Əsil firəng içində ( Qoz ləpəsi) [V.X,s.38].

Firəngi sözü "bıçaq" mənasında Qazax və Borçalı dialekt və şivələrində ("firəngliyi mənə ver"), "qalaq, alışqan, kibrit" mənasında isə Naxçıvanın Şərur rayonunun şivəsində də işlənir [ADƏ, s. 404].

*Paça*- iki ayağınarası.

Balaca Bəsti

Yanları yası

Sənəm paçası

Zərdi haçası (Nehrə) [ H.Z, s.248].

Paça, farsca *pa*( ayaq) sözü ilə *haça* sözünün birləşməsindən əmələ gəlmişdir. Sonralar sözdəki *ha* hissəsi düşmüş, nəicədə yeni söz (paça) yaranmışdır. Şuşa rayonu şivələrində paça "ayaq" mənasında da işlənmişdir. Bəzi şivələrdə köçürmə və bənzətmə əsasında paça "evin dirəkləri"nə də deyilir [93, s.221]. Dilimizdə əvvəllər paça sözünün yerinə "çatqı" (haça olan) işlədilib. Qərb dialekt və şivələrində isə "qasıq" deyilir, mənası "qarının budlara toxunan alt tərəfi", "dəri"(qırış) deməkdir.

*Daylaq* – cavan dəvə, dəvə və at balası (köşək).

Dam üstə daylaq oynar,

Yerə dəyib oyular. (Dolu), [ V.X, s.47]

Mövcud ədəbiyyatda daylaq sözünün "dəvə balası" mənasında işlənməsi Şamaxı dialektində qeydə alınmışdır [ADDL, s. 160]. Bu da həmin tapmacanın Şamaxı ərazisində əmələ gəldiyini söyləməyə əsas verir.

O faktı da qeyd etmək yerinə düşərdi ki, Şamaxı dialektində hazırki dövrdə də bəzi digər türk dillərində işlənən maldarlıqla əlaqədar sözlər mövcuddur. Nümunə olaraq bunları göstərmək olar: köşək (dəvə balası) [ADƏ, s.568; s.76; s. 416], muşqur (dəvənin yəhərlənməsi üçün istifadə olunan vasitə), (Sən nə muşqur kimi yapışmısan qopmursan?) və s.

*Donqar*- qozbel

Dədəsi donqar əli

Anası yastı pəri

Qızı ellər gözəli,

Qardaşı yaman dəli (Tənək yarpağı, üzüm,çaxır) [N.S, s.214].

Donqar sözünün kökü *"don"* dur(müqayisə et; donba, donbalmaq). Azərbaycan dialekt və şivələrində (Borçalı, Hamamlı, Qazax, Tərtər,Tovuz) *donqar* sözü ədəbi dildə olduğu kimi fonetik və semantik dəyişikliyə uğramadan öz əksini tapmışdır. 1.əyri, əyilmiş- Uşağın beli donqardı. 2.qozbel- Bizim dildə adamın belində olan xuza donqar de:illər [ADDL, s.140].

*Çölmək* – yemək hazırlanması üçün gil qab, qazan.

Bir yerdə bir çölmək var,

Durub onu bölmək var.

Səksən səkkiz çatıdı

Doxsan doqquz ilmək var (Balıq toru) [H.Z, s.206].

Çölmək sözü, əsasən,Naxçıvan dialekt və şivələrində istifadə olunur [ADƏ, s.270].

Azərbaycan xalq tapmacalarının dilində məişət və təsərrüfat fəaliyyəti ilə əlaqəli, konkret mənası olan sözlərdən başqa ,eləcə də, mücərrəd mənalı, ümumi anlayışları; hərəkət, vəziyyət, əlamət, keyfiyyət və s. bildirən kifayət qədər söz var.

*Lobbaz* – gopçu, lovğa.

Ağ atım, lobbaz atım,

Qayadan qopbaz atım ( Kərtənkələ) [ H.Z, s.94].

Tovuz rayonu şivəsində lobbaz sözü "lovğa" mənasında [ADƏ, 306], Qərb dialekt və şivə qruplarında isə ümumiyyətlə "gopçu", "özünü öyən" mənasında işlənir [ADƏ, s. 227]. Bu zonada həm də bu leksemdən yaranmış – lobbazdanmaq (öyünmək, özünü tərifləmək, lovğalanmaq) feili də işlənir [ADƏ, s. 88].

*Mozu*-xəsis, kal, nəhəng

Dagdan gəlir bir mozu

Bir burnu var, qırx gözü (Carıq ) [ H.Z, s.76].

Mozu, "Azərbaycan dilinin dialektoloji lügəti"ndə müxtəlif dialekt və şivələrdə üç anlamda işləndiyi göstərilmişdir.

Mozu I (Borçalı)- xəsis,-mozu adam pulunu xaşdamaz,malını yeməz

Mozu II (Borçalı)-kal,yetişməmiş. Mozu meyvə yeməli olmaz, adam yesə,naçag eliyər.

Mozu III (Cəbrayıl, Füzuli)-1.Cox böyük, nəhəng. Sən mozu Cəlalı tanırsan?; 2.böyük, yumru (daş) [ADDL,s.361].Tapmacada çarığın forması insanın üz cizgilərinə bənzədilmişdir.Çarığın ucu insanın burnuna, bağ yerləri isə gözünə

*Mırıq*- dişsiz, dişi tökülmüş

O nədi ki, əyri ayaq, çəpbel qulaq,
Dodağı mırıq, ağzı çırıq (Dovşan) [V.X, s.72].

Mırıq sözü Azərbaycan dialekt və şivələrində müxtəlif mənalarda işlənməkdədir. 1.Çapıq ( Qazax, Tovuz, Şəmkir); 2.Dişsiz, dişi tökülmüş(Gəncə),----Yazığın dodağı bərk yaralanıf, mırığ olajax ( Qazax) [ADDL, s.356]. Güman etmək olar ki, vaxtilə mırıq " yırtıq " sözü ilə qohum olmuşdur. İndi isə əvvəlki mənadan uzaqlaşıb-ön dişlərin düşməsi və çürüməsi ilə bağlı işlədilir.

Tapmacada dovşanın zahiri əlamətləri, görünüşü qabardılmışdır.

Qeyd edək ki, nümunədə" dodagı mırıq" deyimi düz deyil. Yəqin ki toplayıcı və ya söyləyənin diqqətsizliyi üzündən" dişləri mırıq"fikri təhrif edilmişdir.

*Pıçalaq*-sulanmaq

Ağac başında gözü pıçalaqlı(kişi) oturubdur (Əzgil) [V.X, s.60].

Pıçalaq, dialekt sözü, əsasən, "*sulanmaq*" anlamında işlədilir. Bir qayda olaraq, "gözün yaşarmasına, sulanmasına" aid edilir." Quzunun gözü pıçalaxlıyıf" (Ağcabədi) [ADDL, s.402]. Nümunədə ağac başındakı yetişmiş əzgilə işarə olunmuşdur. Belə ki, yetişmiş əzgil "gözü sulanmış" kişiyə bənzədilmişdir.

*Minək*-üçyaşar at

Bir balaca minək nar,
Yerə vurram sınar (Sünbül) [V.X, s.56].

*Minək* - "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə "minəy" fonetik variantında (Qazax, Tovuz) üçyaşar at mənasında işləndiyi qeyd olunmuşdur.

Minək sözünə digər türk dilləri və ya onların dialekt və şivələrində rast gəlmədik. Tapmacada sünbül kiçik, yetişməmiş nara bənzədilmişdir. Fikrimizcə, nardan fərqli olaraq, sünbülün dənəsini (buğdasını) sındırmaq olmaz. Ehtimal ki bu dolaşıqlıq tapmacanı toplayanın diqqətindən yayınmışdır.

*Sıpa//sura*-eşşək balası

Sıpa gödəni
Eşər təpəni (Porsuq) [H.Z, s.98].

Sıpa//supa- sözünün qədim Midiya sözü "spaka"(sobaka) ilə eyniliyini irəli sürən Abayev əslində Herodotun məlumatına əsaslanır və supa sözünün vaxtilə heyvan ( it, eşşək) mənasında işləndiyini irəli sürür.

B. Əhmədov da həmin fikri təsdiqləyərək yazır: " El arasında eşşək balasına sıpa deyirlər. Qədim mənası" iki ayaqlı day" demək olub"[ EL, s. 226].

A. Axundov "İzahlı lüğəti"ndə sıpa sözünün leksik mənasını "yaşlı qoduq( eşşək balası)"kimi təqdim etmişdir [ADİL, s.356]. Azərbaycan dialekt və şivələrində sıpa (Quba, Zərdab) - "donuz balası" kimi öz əksini tapmışdır [ADDL, s.433]. Müasir danışıq dilində sıpa sözü bəzən "xarici görkəmi biədəb olan, dolu bədənli insana" da şamil olunur. Tapmacada təpəni eşən porsuğun "yöndəmsiz" bədəninə işarə olunmuşdur.

Əriş-hündürə qalxan iplər

Ərşin ayaq,
Bənövşə qulaq ( Siçan) [H.Z, s.73].

*Əriş*-xalça və ya başqa toxunma mallarda uzununa müvazi gedən əsas iplərdir. Daha doğrusu, hanada dikinə gedən iplər nəzərdə tutulur. Sözün kökü ör- feil, -iş isə ad düzəldən şəkilçidir. Bunu başqa türk dillərinin faktları da sübut edir. Bəzi tədqiqatçılar bu sözün kökünü er- feili hesab edir[108, s.346]. .Halbuki hör şəkilində Azərbaycan dilində, xakasca ur, özbəkcə, ur; tuva, türk, türkmən, qırğız,qazax,oyrot, qaraqalpaq dillərində or sözü işlənir və er-də onların fonovariantıdır.

B. Əhmədov isə *əriş* sözünün etimologiyasını belə şərh etmişdir*: "ər (or) sözünün bir mənası"hündür" deməkdir. Ör-hündür, "örüş" deməkdir. Əriş*

*"örüş"ün dəyişmiş formasıdır. Əriş hanada dikinə gedən iplərdir, ona görə də hündür anlamı ilə bağlıdır"* [EL, s.104]. Tapmacada siçanın zahiri görünüşünə işarə olunmuşdür.

Şılığ-əzilmiş

Ağac başında bir şılığ,

Kor qarı oturub (Əzgil) [V.X, s.61].

*Şılığ,* "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə şılıx fonetik variantında (Qazax) "əzik", "qırıq" mənalarında işləndiyi qeyd olunmuşdur [ADDL, s.464]. Tapmacada "əzgil" ağac başında oturmuş kor qarıya bənzədilmişdir. İlk növbədə, sual olunur; nə üçün bir sıra tapmacalarımız məhz "ağac başında" ifadəsi ilə başlayır? Bu barədə R. Qafarlının yozumu diqqəti cəlb edir: *"....Ağac torpaqdan baş qaldırır, illərin bir-birinin ardınca calanması ilə böyüyür, daim yüksəklərə - günəşə doğru can atır....Tanrı məkanına can atan yer varlığının- ağacın başında ulularımız alma, zoğal, qoz, fındıq, əzgil, əncir və b. meyvə möcüzələrini görmüşlər:*

Ağac başında al yanaqlı qız.( Alma )

Ağac başında qırmızı qız.( Zoğal)

Ağac başında gözü çıpalaqlı qoca.( Əzgil)...

*....Ona görə ki, həmin ləziz meyvələrin vətəni cənnət bağı sayılır. Tapmacalarda məhz İlahi aləmə can atan meyvələrdən bəhs açılır"* [109, s.145]. Təbii ki, bu fikirlər müəllifin səxsi qənaətinin "məhsulu"u olsa da, ulularımızı həmişə "ağac" və başındakı "meyvələr " düşündürmüş və maraq dairələrinə səbəb olmuşdur. İstehsaldan kənar ulu babalarımız gündəlik "qida ehtiyacının" bir hissəsini məhz meyvələrin hesabına tədarük etmişlər. Digər səbəb isə ondan ibarətdir ki, ulu əcdadlarımızın təsəvvürünə görə, başlanğıc mərhələdə ağac, bağ və quş dünyanın əsas atributlarıdır. Məhz ağac ruhi aləmlə cismani aləm arasında körpü yaradan , nəsli,şəcərəni simvollaşdıran vasitədir ("Kitabi-Dədə Qorqud" da əsir düşmüş Uruzun dar ağacına gətirilərkən qənarə ağacı ilə söhbəti buna bariz nümunədir)

Qısır-doğmayan

Gecə qısır,

Gündüz boğaz. ( Ayaqaqbı), [H.Z, s.124]

Qısır, qədim mənası "dişi" deməkdir. M. Kaşğarlı qısır sözünə belə tərif vermişdir: " Doğmayan qadınlara və heyvanlara deyilən söz" [38; MK-I., s .344] . Həmin lüğətdə " adğır(ayğır), qısır( madyan) kişnədi" cümləsi var . Cümlədəki "qısır" sözü " dişi" anlamındadır ( fars mənşəli " madyan" sözünün "mad" hissəsinin də mənası " dişi" ( madyan"dişi at" deməkdir)). V.V. Radlov bu sözün bir mənasını da ( doğmayan) kimi vermişdir . Fikrimizcə, kök hesab etdiyimiz "qıs" sözü əslən "qırsaq" ilə bağlıdır. Qırsaq sözünün təkrarı qıs-qısraq olmalı idi. Güman ki, "qıs- qıvraq" ilə qarışmamaq üçün "qısır" işlənməli olmuş və "qısır-qıvraq" tərkibi yaranmışdır. Sonra isə "qısır" bu tərkibdən ayrılmışdır. A. Axundovun "Azərbaycan dilinin izahlı lüğəti"ndə qısır sözü "uzun müddət doğmayan ana heyvanlar" anlamında verilmişdir [ ADİL, s.206]. Tapmacada ayaqqabının gündüz geyinilməsinə, gecə isə boş qalmasına işarə olunmuşdur.

Beləliklə, tapmacalarda dialekt sözlərinin istifadəsi xalq məişətinin bütün sahələrinin, o cümlədən gündəlik həyat tərzinin, ünsiyyət vasitələrinin və.s. əks olunması ilə bağlıdır.

### 2.1.4. Tapmacaların dilində işlənmiş təqlidi sözlər

Türkologiyada son illərdə belə bir fikir yaranmışdır ki, təqlidi sözlər nitq hissələrindən fərqli fonetik, morfoloji və semantik-sintaktik xüsusiyyətlərə malik leksik-qrammatik bir kateqoriyadır. M.Adilov da " Azərbaycan dilində təqlidi sözlər" əsərində bir növ həmin mülahizəni təsdiqləyərək yazır: *"... Artıq türkologiyada bu sözlərin müstəqil nitq hissəsi olduğu fikri sabitləşmişdir və heç bir etiraz doğurmur"* [4, s.65]. Məlumdur ki, dilçilik ədəbiyyatlarında təqlidi sözlər müxtəlif adlar altında( "mimemlər", "mimeoqrafik sözlər", "onomatopoetik sözlər", "obrazlı sözlər" və.s) işlədilmişdir. Azərbaycan tapmacalarının dilində yalnız təqlidi sözlərin mühüm tərkib hissələri olan səs təqlidi, təsviri və obrazlı sözləri bədii nümunələr əsasında araşdırmağı qarşımıza məqsəd qoymuşuq.

***a) Azərbaycan tapmacalarının dilində işlənmiş obrazlı sözlər***

Obrazlı sözlər əşya və hərəkətin xarici görünüşü haqqında təsəvvür yaradan sözlərdir. Əslində obrazlı sözlər görmə duyğuları ilə bağlı olan təqliddir. Tapmacalarımızın dilində obrazlı söz təqlidləri geniş işlənmişdir. Fikrimizi əsaslandırmaq üçün bədii nümunələrə diqqət yetirək.

Işım-ışım ışıldar,
İlan kimi xışıldar,
İlan deyil yarpaqdı,
Yatdığı yer torpaqdı ( Kələm) [V.X, s.77]
Səhərçağı sarıca qız,
Yığdı balaların başına,
Otdu dız-dız ağladı (Samovar) [VX, s.114]
Dilim-dilim nar,
Dizinətən qar,
Uçdu bir kəklik,
Qondu bir dilbər ( Odun, kül, tüstü,od) [V.X, s.151]
İriz-iriz gedirəm,
İrizbana gedirəm,
Gəncədə su içmişəm
Xoruzbana gedirəm (Yol) [V.X, s.172]
Şappur-şuppur çay keçdim,
Şapırına batmadım,
Qırmızıdan don geydim,
Nişanəsin tapmadım (Yuxu) [V.X, s.189].

Nümunədə işlənmiş "ışım-ışım ışıldamaq", "dız-dız ağlamaq", " iriz-iriz getmək", " şappur-şuppur keçmək" və.s. ifadələri obrazlı söz təqlidləridir. Qeyd edək ki, səs təqlidi sözlərindən fərqli olaraq, obrazlı sözlərdən çox nadir hallarda feillər əmələ gəlir. Buna səbəb odur ki, istər köməkçi feillər, istərsə də feil düzəldən leksik şəkilçilər bir qayda olaraq, obrazlı sözlərə qoşula bilmir. Obrazlı sözlər olsa-olsa, birləşdikləri feillərlə müəyyən frazeoloji birləşmələr əmələ gətirir.

**b)Tapmacalarımızın dilində işlənmiş təsviri sözlər (təqlidlər)**

Təsviri sözlər insanın müəyyən fizioloji hərəkətləri ilə əlaqədar meydana gələn sözlərdir. Məsələn, insan su içəndə, nədənsə narazı qalanda, bir şeyi udanda və s. müəyyən səslər yaranır. Bu səslər fonemlər vasitəsilə təsvir ediləndə müvafiq sözlər əmələ gəlmiş olur. Belə sözlərə təsviri sözlər deyilir. O da söz köklərindən düzəlmiş feillərə aşağıdakıları nümunə kimi göstərmək olar: pıçıldamaq, öskürmək, udqunmaq, sümürmək, hıqqanmaq, iyləmək, çeynəmək, tüpürmək və.s. Tapmaca nümunələrində təsviri sözlərdən ibarət təqlidlər nisbətən az yayılmışdır.

Taxçadan düşdü, tap elədi,
Gülsənəm onu hop elədi (Siçan və pişik) [H.Z, s.92]
Vay-vay uçar,
Vay-vay qonar,
Vay iliksiz,
Vay sümüksüz (Ağcaqanad) [V.X, s.83]
Aşağı gedərəm ley-leyi,
Yuxarı gedərəm ley-leyi,
Nə sümüyü var, nə iliyi (Su ) [V.X, s.134].

Təsviri təqlidlərdə hadisələrin aniliyi, başqa sözlə desək, qısa müddətdə baş verdiyi də öz əksini tapır. Verdiyimiz birinci tapmaca nümunəsindən məlum olur ki, siçanın taxçadan ( taxça- fars mənşəli sözdür, dilimizdə qaranlıq oyuq mənasında işlənir) düşməsi ilə ani olaraq pişiyin onu yeməsi( tutması) qısa müddət ərzində baş vermiş hadisədir.

***c) Tapmacalarımızın dilində işlənmiş səs təqlidi sözlər***

**C**anlı və cansız varlıqların (əşyaların) çıxardığı müxtəlif təqliddən düzəlmiş sözlərə səs təqlidi sözlər deyilir. Bu sözlərdə konkretlik, əyanilik əsasdır,bunlarda məfhumilikdən daha çox hadisənin obrazlı şəkildə təxmini əksi birinci yer tutur.

Vurhavurla uçan quşum,
Çiçək üstə qaçan quşum,
Öz-özünə xəlbir toxur

İçərisi şərbət qoxur (Arı pətəyi və bal) [V,X, s.86]

*Vıy-vıyıldar,*

Vıy sızıldar,

Vıy iliksiz

Vıy sümüksüz ( Milçək) [V.X, s.118]

Qara toyuq *qaqq elədi*,

Qanadları şaqq elədi,

Dəmir salıb ürkütdüm,

Qapısını bərkitdim (Sancaq) [V.X, s.146]

*Taqqır-tuqqur* ləzgilər,

Bizə qonaq gəldilər,

Qoyun- keçi yunundan,

Evə palaz sərdilər (Ocaq) [V.X, s.243].

Əslində arı vızıltısı və ya toyuq qaqqıltısı bizim təqlid etdiyimiz kimi olmur.Biz bu hadisələri yalnız təxmini şəkildə təqlid edə bilirik. Bir növ səs təqlidləri obyektiv aləmin səslərini təxmini əks etdirir. Onu da unutmaq olmaz ki, təxmini də olsa, təqlidi söz həmişə təqlid olunan hadisə ilə əlaqədar olur.Daha doğrusu, hadisənin özü, bilavasitə inikası sayılır.

**ç)Tapmacalarımızın dilində işlənmiş təqlidin fonetik xüsusiyyətləri**

Təqlidi sözlər tapmacaların dilində sadə və mürəkkəb formalarda mövcuddur. İki və ya üç səsdən ibarət olan təqlidi sözlərə də sadə təqlidi sözlər deyilir.

*Fır-fır ötər*,

Ağ-ağ tökər ( Dəyirman) [V.X, s.422].

"Nümunələrə əsasən demək olar ki, birhecalı sadə təqlidi sözlər də ya sait uzadılır, ya da samit qarşılaşdırılır. Tapmacaların dilində qa, ruf, tap, hop, har, vız, dız və s. təqlidlərə daha çox rast gəlmək olur. Tapmacaların tərkibində iki səsdən ibarət olan heca açıq, üç səsdən ibarət olan heca isə qapalı şəkildə təzahür edir. Açıq hecanı təşkil edən təqlidi sözlər, ancaq canlıların səslərinə təqliddir və miqdarca çox azdır" [41, s.184].

O yana gedər hi,

Ayaqsızdı hi,

Dayaqsızdı hi (Nənni,beşik) [V.X, s.260]

Bir belə bəsti,

Dəstəsi yastı,

Balış lanqıcı,

Ağzı fis (Tuluq) [V.X, s.226].

Tapmacaların dilində sadə formanın ən çox yayılmış növü samit+sait+samit şəkilində olan növüdür.

Tap-tapmaca,

Qab atdaca (Qab altında saxlanan pay) [H.Z, s.105]

Yalnız tapmacalarımızın dilində deyil, eyni zamanda, klassik poeziyanın dilində də sadə formalı səs təqlidlərinə tez-tez təsadüf olunur. Məsələn, Ş.İ.Xətainin " Dəhnamə" poemasının "Bahariyyə" hissəsində bu misra diqqəti cəlb edir: "*Qum- qum* der idi ağacda qımrı" [35, s.415]. Mürəkkəb formalı səs təqlidləri isə daha çox səslərin təkrarilə, yaxud da ha bitişdiricisinin köməyi ilə əmələ gəlir.

*Tap-tapı*, dəmir qapı,
On iki budaq, iki yarpaq (Saat) [H.Z, s.12]
Dağdan gəlir danqıra,
Quyruğu zildən qara,
Yerişi tapur-tapur
Dırnağı səksən para (Nənə) [V.X, s.74] və s.

***d) Tapmacaların dilində ritmik sözlər***

Ritmik sözlərə dair dilçilik ədəbiyyatında iki baxış mövcuddur. Bir qrup dilçilər, ümumiyyətlə, ritmik sözləri bir mənalı şəkildə söz hesab etmirlər.Məsələn, Seyran Kazımoğlu " Türk dili" vəsaitində bu barədə belə yazır: *"....ritmik sözlər əslində söz sayılmır, çünki onların heç bir mənası yoxdur və ayrılıqda işlənmir. Belə sözlər səslərin uyğunluğuna xidmət edir və ümumi mətn ilə məna bağlılığı yoxdur. Bu cür sözlər daha çox uşaq oyunlarında işlənir"* [39, s.118] . İkinci qrup

dilçilər isə daxili mənadan məhrum olsa da, müəyyən funksiya daşıdığına görə belə səs komplekslərini söz hesab edirlər. M. Adilov isə ritmik sözləri belə səciyyələdirmişdir: *"Daxili mənadan məhrum, lakin müəyyən funksiya (ritmik funksiya, ahəngdar funksiya) daşıyan sözlərdir"* [4 , s.65]. Fikrimizcə, ritmik sözlər daha çox tapmaca, atalar sözləri və mahnılarda ahəngi müsayiət etmək və ya ritm yaratmaq məqsədi ilə işlənmiş sözlərdir. Təkrarlanan məzmunsuz- mənasız səs komplekslərindən ibarət olan ritmik sözlər heç bir leksik (və ya hər hansı) məna bildirmədiyi üçün tapmacaların dilində istənilən misrada görmək mümkündür. Həmin misraların tapmacanın məzmunu ilə heç bir əlaqəsi olmur.Tapmacaların dilində ritmik sözlər bir ümumilik, qeyri- müəyyənlik ifadə etmə məqamında işlədilir.

Hili-hilicə kəhər at,
Hilisi gözəl kəhər at,
Ayağında qıl sicimi,
Düyünü gözəl kəhər at ( Saz) [V.X, s.146],
Hini-hinisə,
Burnu əyricə.
Hər nəyə vursan,
Bölər ikicə ( Dəhrə) [V.X, s.54],
Milit-milit,
Qapısı kilit,
Ya bunu tap,
Ya burdan get (Açar ) [V.X, s.152]
Hədəndi, ha hədəndi,
Dörd qırağı bədəndi.
Yaşıl vurdum,al çıxdı,
Görəsən bu nədəndi (Saqqal) [H.Z, s.69].

Aşıq ədəbiyyatında ritmik sözlərə " bəzək" və ya "xal" da deyilir. O. Sarıvəlli "Aşığın poetikası" məqaləsində yazmışdır: " Bəzək" sözləri yerində işləndiyi zaman mahnılara şirinlik gətirir. Lakin bəzən çalınan hava ilə oxunan söz

arasında müəyyən uyğunsuzluq olur. Aşıqlar bu uyğunsuzluq duyulmasın deyə "körpə quzu", " ala göz maral", "dərdin alım", "qurban olum", "neynim-neynim" və i.a kimi köhnəlmiş bəzək sözləri işlədirlər"[117 ,s.23].

### 2.1.5. Tapmacaların dilində işlənmiş "gizli" (eyhamlı) nitqin təzahürü

Tarixdən məlum olduğu kimi ibtidai dövrlərdə insanlar təbiətin sirlərinin səbəbini dərk edə bilmədiyindən təbiət hadisələrini, səma cisimlərini canlı, qeyri-adi bir varlıq kimi təsəvvür etmiş, Allahın, müqəddəs ruhların göydə məskən tutduğuna etiqad bəsləmişdilər. İbtidai insan əmin idi ki, heyvan və ov silahlarının adını çəkmədən hazırlıqlarını gizlətməklə heyvanların təhlükələrdən xəbər tutmasına imkan vermir və bununla da ovunun uğurlu olmasını təmin edir. Məhz ibtidai ovçunun, heyvandarın və əkinçinin inancına görə insan həmişə və hər yerdə - tarlada, meşədə, sularda və yaşadığı yerdə özündə uğursuzluqlar, epidemiyalar, bədbəxtliklər, yanğın və səfalət gətirən canlı, şüurlu düşmənlə qarşılaşır. Bu qüvvəni aldatmaq lazımdır, bunun üçün isə gizli şərti nitq lazımdır.

Rus folklorunda, o cümlədən bəzi türk xalq tapmacalarında da eyhamlı (gizli) nitqə təsadüf olunur. Qazax alimi J.D.Adambayevanın "Qazax tapmacalarının ədəbi-üslubu və dil xüsusiyyətləri" əsərində qazaxlarda qədim şərti nitqin qalığı kimi eyhamlı toy nitqinə dair verilmiş nümunələr diqqəti cəlb edir [77 , c. 6].

Tapmaca ilə şərti nitqin əlaqəli olmasına dair faktlara başqırd xalq tapmaca-larında daha çox rast gəlinir. F.A.Nadrişina bu münasibətlə yazır: *"Bu gün də Başqırdstanın bir çox yerlərində keçmişdə başqırdların şərti eyhamlı dilinin və ya tabu sözlərin olduğunu sübut edən inanclara rast gəlmək mümkündür. Misal üçün, bəzi heyvan, ev həşəratlarının , ayrı-ayrı xəstəliklərin adlarını çəkmək yasaqdır.*
*Adətən, qadağan olunmuş yasaq sözlər dəyişdirilmiş adlarla əvəz olunur: "kuyan" (dovşan əvəzinə "şeş kulak"/ dik qulaq, "ayin" /ayı əvəzinə "babay"/baba, "yılan"/ ilan) əvəzinə "kamsı" (qamçı, "kır təkəhe"(çöl qoyunu əvəzinə "şaltəkə") boz qoç və s.* [107 , s.19].

Bu gün biz Azərbaycan toy mərasimləri, uşaq folkları və tapmacalarda şərti nitqin izlərinə rast gəlirik. Tədqiqatçı alim G. Axundova da Azərbaycan xalq tapmacalarının

meydana gəlməsinin şərti nitqlə bağlılığını inandırıcı surətdə faktlarla sübut edir [8 , s.141].

Şərti nitq (əvəzləyici söz)

*İlan* – qamçı

Tapmacalar

Bir qamçım var,

Əlimə ala bilmirəm ( İlan) [N.S, s.23]

*Dovşan* - əyri ayaq/

O nədir ki, əyri ayaq,

Çəpbəl qulaq

Dodağı mırıq,

Ağzı cırıq (Dovşan) [N.S, s.19]

*Şir* – at

Bir atım var, minə bilmirəm,

Ağzın açsa, dinə bilmirəm (Şir) [N.S, s.301].

Qeyd edək ki, bir sıra türk dillərinə xas olan tapmacalarda şərti nitq (əvəzləyici sözlər) demək olar ki, müştərəkdir.

*Azərbaycan tapmacalarında* (ilan haqqında):

Yer altında yağlı qamçı,

Suyu içər damcı-damcı.

*Qırğızda*:

Tosoq arasında maylı kayış.

*Anadolu türkcəsində*:

Yer altında yağlı qayış.

*Azərbaycanda:*(at quyruğu haqqında)

1) Suya girdi dağıldı,

Sudan çıxdı yığıldı.

2) Suya girər açılar,

Sudan çıxar yumular.

*Tatarcada:*

Suğa girsə minin bolur,

Sudan çıqsa bir bolur.

*Azərbaycanda*:(yumurta haqqında)

1) Bir bardaqda iki su,

2) Bir sucam var, iki rəngli su tutur.

*Tatarcada:*

Bir qıçada iki rəng su,

Suğa salsa, su bolur,

Otqa salsa, moz bolur.

*Azərbaycanda*:(Ay, gün, buğda haqqında)

1) Yerə vurdum baltanı,

Ağzı gümüş xaltanı.

Yerdən bir oğul çıxdı,

Cümlə cahan sultanı.

2) Burdan vurdum baltanı,

Ordan çıxdı qaltanı,

Anam bir oğlan doğdu

Yerin, göyün soltanı.

*Türkməncədə:*

Yerə uldum haltanı,

Ağzı gümüş paltanı,

Yerdən bir oqlan çıqdı,

Ulu ilin sultanı [ 118 , s.13; s.14]

Animistik və totemistik görüşlərlə əlaqədar olaraq, qədim insanlarda guya heyvanların da insanın dilini, fikrini başa düşdüyü əqidəsi yaranırdı. Ona görə də ibtidai ovçu vuracağı heyvanın, quşun,silahın adını açıq şəkildə deməkdən çəkinmiş , onların adını gizli, yəni heyvanların başa düşə bilməyəcəyi bir dildə söyləyirmiş. Beləliklə, o, vuracağı ev heyvanlarını guya aldadırmış. İnsanlar nəinki ov heyvanları haqqında belə düşünürmüş, hətta elə zənn edirlərmiş ki, meşənin, səhranın, suyun və sairənin də guya ecazkar görünməz sahibi varmış. Onları da müxtəlif yollarla aldatmaq

lazım imiş. Beləliklə, ilk gizli-sirli danışıq dili əmələ gəlməyə başlayırdı ki, bu da tapmacalarda, cüzi də olsa, öz izlərini saxlamışdır.
[ 119, s.7]

"Tapmacaların dilində işlənmiş miqdar sayları da eyhamlı nitq nümunəsi ola bilər. Azərbaycan xalq tapmacalarında iki dişi olanda – maşa, üç dişi olanda – yaba, beş dişi olanda – ding və s. nəzərdə tutulmuşdur.

Bütün bu deyilənlərə yekun vurmaq olar ki, tapmacalarda eyhamlı (gizli)
nitq insanın dünyanın sirlərini öyrənmək tələbatından yaranmışdır" [40, s.284-285].və.s

# III FƏSİL
# AZƏRBAYCAN TAPMACALARININ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

## 3.1. Azərbaycan tapmacalarının fonetik səviyyədə obrazlığının təzahürü

### 3.1.1Assonans

Tapmacalarımızın dilində fonetik səviyyədə obrazlığın təzahürü, əsasən, aşağıdakı poetik kateqoriyaları əhatə edir: *assonans, alliterasiya, leksik-morfoloji təkrarlar, anastrofa, anafora-epifora* və s.

Poetik kateqoriyalar sırasında xüsusi yeri olan assonansın iki mühüm cəhəti göstərilir: eyni bir saitin təkrarlanması, yaxud da eynicinsli saitlərin bir-birini izləməsi (ahəng qanunu). Poetik-üslubi keyfiyyətə malik olan assonans tapmacalarımızın dilinə xüsusi təravət, incə zövq, ritmikliklə yanaşı, ahəngdar melodiyanın ünsürlərini də bəxş etmişdir. Çünki tapmacalarımızın dili daha çox poetik şeir dili ilə xarakterizə olunur. Bu mənada fonetik obrazlılığın səciyyəvi cəhəti kimi tapmacalarımızın dili assonans üçün ən optimal tədqiqat obyekti rolunu oynayır. M.Hüseynovun qeyd etdiyi kimi, *"alliterasiya və assonansın ritmik çalarları sistemi şeir dilinin ecazkarlığının mühüm amilidir. Ritmli səs füsunkarlığı şeir mətninin (tapmacaların –A.K.) struktur quruluşuna estetik gözəllik verməklə bərabər, forma və məzmun gözəlliklərinin əsas mənbələrindən biridir*" [29, s.17 ]. Bu baxımdan Azərbaycan tapmacalarının dilində assonansın hər iki mühüm cəhəti diqqəti daha çox cəlb edir. Məsələn:

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı.
Üçü yığar gətirər
Üçü vurub, dağıdar(İlin fəsilləri) – tapmacasında eyni bir saitin ("ü"-nün) 4 dəfə söz əvvəlində, 5 dəfə söz daxilində təkrarlanması tapmacanın poetik dilini qüvvətləndirmiş, məna tutumuna axıcılıq, həlimlik gətirmişdir. Bu barədə vaxtilə folklorşünas V.V.Mitrofanova belə yazmışdır: *"Bəzən tapmacada elə səs təkrarları olur ki, sözün semantik mənası həmin təkrarın hesabına aydınlaşır"* [105, c.15].

Azərbaycan tapmacalarının dilində müşahidə olunan assonansları iki istiqamətdə qruplaşdırmaq olar: 1. Qalın saitli sözlərdə assonans; 2. İncə saitli sözlərdə assonans. Yeri gəlmişkən qeyd edək ki, saitlərin assonanslığı tapmacalarımızın dilində ahəngdarlıq yaratmaqla yanaşı, eyni zamanda, nümunədəki semantik dinamikanı şərtləndirərək əsas sözü qüvvətləndirir.

1.Tapmaca dilində müşahidə olunan qalın saitli sözlərdə assonans.

Azərbaycan tapmacalarının dilində müşahidə olunan qalın saitlərin assonansının ümumi mənzərəsi aşağıdakı kimidir:

“a”-nın assonanslığı daha çox;

“o” və “u” assonanslığı nisbətən zəif;

“ı”nın assonanslığı ədəbi dildən fərqli olaraq yalnız bir nümunədə əhatə olunmuşdur. Fikrimizi əsaslandırmaq üçün faktlara müraciət edək:

“a”nın assonansı:

Aşıq aşığı pişirər,

Naşı aşı pişirər.

Aşıq belə şey görüb,

Ayaq başı pişirər ( Balıq, ayı, dəyirman, halva) [V.X, s.36]

Ağ atı, atda gördüm,

Qızılı soratda gördüm,

Altı ulduzlu

Bir ayın altda gördüm (At nalı və mıxları) [H.Z, s.10]

“**A**” saitinin assonansı nümunədə ahəngdarlıq yaratmaqla yanaşı, “alt” sözünün mənasını da qüvvətləndirir.

“**U**”nun assonansı:

Ulama, hay ulama,

Ucuna qıl dolama,

Gedər Şah dağına,

Gələr bizə salama (Narınc, oruc, namaz) [H.Z, s.168]

“O”nun assonansı:

Otuzunda nadan olur,

On dördündə kamala yetər (Ay) [H.Z, s.36].

Ahəngdar səslənən bu nümunədə "otuz", "on dörd" sayları "u" saitinin assonansı ilə gücləndirilmişdir. Şübhəsiz ki, burada nümunənin, əsasən, qalın saitli sözlərdən formalaşmasını da inkar etmək olmaz.

2.Azərbaycan tapmacalarının dilində müşahidə olunan incə saitlərin assonansı:

Tapmacalarımızın dilində incə saitlərin işlənmə dairəsini təxmini olaraq aşağıdakı kimi şərtləndirmək olar:

"İ"nin assonansı: İki gəlin, ikisi də bir boyda (Qapı) [H.Z, s.22]

"Ə"nin assonansı: Əl ilə əkilər, dil ilə biçilər (Quran kitabı) [V.X, s.57]

"E"nin assonansı: "Ev, ev içində" (Yastıq) [V.X, s.19].

Bu nümunədə "e"nin assonansı məhz "ev" sözünün mənasını qüvətləndirmişdir. Ümumiyyətlə, tapmacaların dilində sait səslərin assonanslığı daha geniş yayılmışdır.

### 3.1.2. Alliterasiya

*Alliterasiya* – şeirdəki ( bəzən də nəsrdə) sözlərdə eyni samit səslərin təkrarlanması ardıcıllığından əmələ gələn ifadə vasitəsidir. Digər folklor nümunələri kimi tapmacaların dilində alliterasiyanın mövcudluğu xüsusilə diqqəti cəlb edir. Dil, həm də üslub səviyyəsində müşahidə olunan alliterasiya barədə A.Axundov yazır: *"...alliterasiya türk dilində iki səviyyədə – dil və üslub səviyyələrində özünü göstərir. Bunlardan birincisi obyektiv səviyyədə olub, ənənəvi modellər şəklində mövcuddur. Onlar qədim tarixə malikdir və buna görə də frazeoloji birləşmələrin, atalar sözlərinin, məsəllərin, idiomatik ifadələrin, ümumiyyətlə, sabit söz birləşmələrinin tərkibində daha çox subyektiv səciyyəvidir*"[6, s.139]

Alliterasiya "elementi"nin təzahür etdiyi folklor nümunələrindən biri də məhz tapmacalardır. Apardığımız müşahidələrə əsasən, demək olar ki, tapmacalarda alliterasiyanın müxtəlif formalarından məqsədəuyğun surətdə istifadə olunmuşdur. Tapmacalarımızın dilində alliterasiyanın hər iki formasına: güclü və zəif formalarına təsadüf olunur. Güclü alliterasiya nəsrlə olan tapmacalarda daxili bölgünün ahəngdar səslənməsini təmin edir. Daxili bölgüdə ahəndarlığın yaranmasının bilavasitə səbəbkarı məhz alliterasiyadır. Nəsrlə olan

tapmacalarımızda ahəngdarlığın formalaşmasına zəmin yaradan amillərdən biri də misra daxili bölgüdə ilk səslərin oxşarlığıdır. Məsələn: *Qara qul// qapılar gəzər; Qara köpək // qapıda yatar; Qara toyuq// qarnı yırtıq; Çəpər üstə//çal xoruz* və.s.

Verilmiş nümunələrdə misradaxili bölgülərin önündəki "q" və "y" səsləri ahəndarlıq və ritm yaratmış vasitələrdir. Daxili bölgüdə alliterasiyanın yaranmasında yalnız ilk səslərin oxşarlığı yox, eyni zamanda tələffüz baxımından səs yaxınlığı da mühüm rol oynayır. Məsələn: *Aləmi bəzər// özü lüt gəzər; Üstü dəri //içində şəkər pəri; İçi darı// çölü sarı.* və.s

Tapmaca nümunələrundə daxili bölgülərin sonunda işlənən " b-g", " d-p", " d-**s**" səs uyumu alliterasiya yaradaraq ahəngdarlıq və ritmyaradıcı vasitə kimi çıxış etmişdir. Azərbaycan xalq tapmacalarınin istənilən yerində: misranın əvvəlində, sonunda, ilk hecasında və s. güclü alliterasiyanın təzahürünə rast gəlmək mümkündür. N.Hacıyeva tapmacalarımızın dilində güclü alliterasiyanın bu cür təzahürünü təsadüf hesab etməyərək, onu sözlərin semantik-üslubla əlaqədə olması baxımdan izah etmişdir [124, s.86]. O da məlumdur ki, Azərbaycan tapmacalarının dilində işlənmiş alliterasiyalar daha çox üslubi səciyyəlidir. Məhz bu baxımdan alliterasiyalı sözlər tapmacalarımızın dilində rəngarəng uslubi çalarlarda özünü göstərir.

*a)* Tapmacaların dilində işlənmiş ilk hecadakı sözün ilk səsi alliterasiya yaradır: ***Bəlli- billi bilən day, Beli incə kürən day.***

***b)*** Bəzi tapmacalarımızın sonuncu misrasında işlənmiş iki sözun birinci səsi alliterasiya yaradır. Məsələn: ***Çilə, bülbülüm,çilə, Şeh düşüb qızılgülə, Quşlardan hansı quşdu,Yumurtası qalar ilə; Qar kimi ağdı, Su kimi axdı; Əl-ələşə qarğalar, Dar ayaqda qarıldar.***

***c)*** Tapmacalarda daxili bölgünü təşkil edən ilk və orta söz alliterasiya yaradır: ***Yer altında yasa gedər. Yol üstə yoğun oxlov. Çil toyuq, çiləmə toyuq, Başını kəsdim qanı yox.***

ç) Misraların orta sözləri güclu alliterasiya ilə müşayiət olunur. Məsələn: ***Alaca mənzər, Qapılar gəzər; Bir atım var minə bilmirəm, Ağzın açsa, dinə bilmirəm; Boyu bənzər əriyə, Qaçar girər dəliyə.***

d) Tapmacaların dilində işlənmiş eyniköklü sözlərdə bəzən alliterasiya yarada bilir. Həmin eyniköklü sözlər daxili obyektli feillərə oxşasa da, spesifik xüsusiyyətlərinə görə (semantikasına və sintaktik əlaqəsinə) fərqli ifadə vasitələrinə malik ayrı-ayrı sözlərdir. Məsələn: ***Bay-bay uçar, bay qonar, Bay iliksiz, bay sümüksüz. O nədir ki, boyanıbdı boyaqsız, dayanıbdı dayaqsız.***

ə) Tapmacaların dilində bəzən ayrı-ayrılıqda müxtəlif səslər alliterasiya yaradır: **Bapbalaca boyu var, dam dolusu toyu var.**

f) Tapmacalarımızda bəzən üç sözün ilk səsi alliterasiya yaradır: **Qurd quyuda, qulaqları bayırda; Bir cüt quyum var, qıraqları qırx çəpər; Quru qovaqda qudurmuş ilan .**

Tapmaca nümunələrinə əsasən, demək olar ki, eyni heca daxilində samitin özündən sonra gələn saitlə birlikdə təkrarlanması fəal alliterasiyanın meydana çıxmasına zəmin yaradır.

Nəsrdən fərqli olaraq, nəzmlə yazılmış tapmacaların bir sıra spesifik cəhətləri (ölçü, qafiyə) gözlənməli, poetik əlvanlıq, ritm və ahəngdarlıq yaradan vasitələr zəruri elementlər kimi öz əksini tapmalıdır. Digər tərəfdən, nəzm şəkilində olan tapmacalarda alliterasiyanın ifadə imkanları nəsrlə olan tapmacalara nisbətən daha çoxdur. Nəzmlə yazılmış tapmacalarda alliterasiyanın müxtəlif formaları diqqəti cəlb edir.

a) İki misradan ibarət olan tapmacalarda hər misranın ilk səsi alliterasiya təşkil edir: Bel sapı, balta sapı, Bir budaq, beş yarpağı; Qırxca dənə gözü var, Qıllıcana üzü var; Gecə qısır, Gündüz boğaz**.**

**V**erilmiş tapmaca nümunələrində *"****b****", "****q****","****g****"* samit səslərinin alliterasiyası özünü göstərir.

b) Nümunələrdə bəzə dörd misralı tapmacanın üç misrasının ilk səsləri alliterasiya yaradır:

Qara toyuq qaqq elədi,
Qanadları şaqq elədi,
Dəmir salıb ürkütdüm,
Qapısını bərkitdim (Sandıq) [V.X, s.126]

Alını atda gördüm,
İzin soratda gördüm,
Ayparanı bir atın,
Ayağı altda gördüm (Nal) [V.X, s.94]
Qaradır, qarğa deyil,
Qanadlıdı, quş deyil.
Qoxu bilir, it deyil,
Şirni yeyir, bit deyil ( Milçək) [V,X, s.88]
Tut-tut tuburğu,
Tutda bitər tuburuğu.
Tutdan bir şuy çıxıbdı,
Nə tutdu, nə tuburğu (Qatır) [H.Z, s.77]

Verilmiş nümunələrin birincisi və ikincisində " q", ikincisində "a", dördüncüsündə "t" səsi üç misranın əvvəlində alliterasiya yaratmışdır.

c) Bəzən elə tapmaca nümunələrinə rast gəlmək olur ki, dörd misralı şeirin bütöv misralarındakı ilk səslər alliterasiyalaşmışdır.

Vay-vay uçar,
Vay-vay qonar,
Vay iliksiz
Vay sümüksüz (Ağcaqanad) [V.X, s.87]
Vıy vıyıldar,
Vıy sızıldar,
Vıy iliksiz,
Vıy sümüksüz ( Milçək) [V.X, s.87]
Zər zərə yapışdı,
Zər divara yapışdı,
Zərgər oğlu gəlməmiş,
Zər divardan qopmadı (Açar) [V.X, s.129]

ç) Azərbaycan xalq tapmacalarında elə nümunələrə təsadüf olunur ki, dörd misralı tapmacada ilk səsləri alliterasiyalaşan misraların arasında onlara uyğun gəlməyən başqa misralar işlənir:

Faytonum var, birtəkərli,
Nənəm sürər tək, birəlli.
Nə izi var, nə tozu var,
Yupyumru yumurtlayar (Cəhrə) [V.X, s.135]

Bizdə bir kişi var,
Əyri-müyru işi var,
Bizə gələrsən,
Gülməkdən ölərsən ( Cəhrə) [ H.Z, s.123].

Birinci tapmaca nümunəsində "n", ikinci nümunədə isə "b" səsinin ahəngdarlığı müşahidə olunur.

Dörd misralı tapmacaların bəzilərində əvvəlki nümunələrdən fərqli olaraq, yalnız bir misra daxilində bütün sözlər alliterasiyallaşır:

Bir atım var dərində,
Bağlamışam sərində,
Gecə- gündüz yol gedir,
Yerindədi, yerində (Yel dəyirmanı) , [ N.S, s.153],

Yolla gedir dörd ulaqlı,
Dəmir mıxlı, gen qulaqlı,
Yüyürər, yüyürər yumbalanar,
Yüyürər, yüyürər yumurtlar (Cəhrə) [H.Z, s.130].

İkinci tapmacanın üçünçü və dördüncü misrasında, birinci tapmacanın sonuncu misrasında " y" səsinin tam alliterasiyası özünü göstərir. Hər iki nümunədə "y" səsi poetik əlvanlıq, ritmik ahəngdarlıq yaratmışdır.

Qeyd edək ki, tapmacalarımızın dilində işlənmiş alliterasiyalar təkcə poetik səslənməni, əlvanlığı təmin etmir, həmçinin nəzərdə tutulan gizli mənanın əlamətini qüvvətləndirir. A.Axundovun təbirincə demək, **s**, **z**, **y**, **t**, **d**, **ç**, **l**, **m**, **n** və **ş** samitlərinin

alliterasiyası ahəng və melodiya, səs tembrinin, cinas qafiyələrin formalaşmasında daha fəal və işləkdir.

Azərbaycan tapmacalarının dilində öncə qeyd olunan samitlərin, demək olar ki, hər birinin alliterasiyasına rast gəlinir. Faktlara və tapmaca nümunələrinə nəzər yetirək:

"R" samitinin işlənmə mövqeyi. Məlum olduğu üzrə, türk dillərində, o cümlədən Azərbaycan dilində sözönündə "r" samit işlənmir. Həmin samitin Azərbaycan dilində keçdiyi tarixi inkişaf yolu haqqında müxtəlif mülahizələr mövcuddur. H.Mirzəzadənin fikrinə görə, *"dilimizin inkişafı boyu [r] səsi sabit bir vəziyyətdə olmamışdır. "R" dildə özünü hiss etdirmək üçün ya özündən əvvəl bir sait qəbul etmiş, söz ortasında yerini dəyişmiş, ya da sözün axırında gəldikdə çox təsadüfdə düşmüşdür"* [58, s.50]. N.K.Dmitriyev isə türk dillərində r, l, n sonor samitlərinin qeyri-sabit vəziyyətindən bəhs edərək, bu xüsusiyyətin türk dillərində qədim bir hadisə olduğu qənaətinə gəlmişdir[ 86, s.21].

A.Axundov isə söz sonunda r samitinin düşməsini müxtəlif morfoloji məzmuna bağlı olması ilə əlaqələndirərək yazır: "Şeir dilində bu hal, yəni **r** samitinin düşməsi özünü -lar şəkilçisinin, qeyri-qəti gələcək və indiki zaman, habelə üçüncü şəxsin xəbər şəkilçisində göstərir. Nəticədə isə yalnız üçüncü şəxsin xəbər şəkilçisində işlənmir….şeirdə bu, vəzn və ahənglə əlaqədardır və daimi xarakter daşımır. Nəzərdə isə ümumxalq dilinin təsiridir. Nəsr dilində özünü göstərən həmin xüsusiyyət müasir şifahi dilimizə də keçmişdir. Nəhayət, r samitinin işlənməsi, ancaq şəkilçi mövqeyində özünü göstərir ki, bu da onu bütün türk dillərindəki ümumi müştərək fonetik hadisələrini izah etməyə, əlbəttə əsas vermir" [6, s.147]

Azərbaycan tapmacalarının dilində müşahidə olunan alliterasiyalar ən səciyyəvi xüsusiyyət kəsb edən samitlər sistemini nəzərdən keçirək.

**"y"-**nın alliterasiyası

Yemişim yemişdim,  
Yeməsəydim ölmüşdüm,  
İndi olsa yemərəm,  
Yeməsəm də, ölmərəm ( Ana südü) [H.Z, s.18].

Bu nümunədəki «y» samitinin hesabına ahəngdarlıq yaradılmış, eyni zamanda körpənin ilk qidası ana südü olsa da, böyüdükdə artıq ana südünə ehtiyac yoxdur. «*Yeməsəm ölmüşdüm, yeməsəm ölmərəm*» frazeminin alt qatına daha çox diqqət yetirilir. Gizli mənaltı məna insanı daha çox düşündürür. «O nədi ki əvvəl yeməsə, ölərdi, indi isə, əksinə, yeməsə, ölməz». İlk baxışdan tapmacaların cavabı insanda müxtəlif qida mənbələri haqqında fikir söyləməyə maraq yaradır. Lakin tapmacanın cavabının «ana südü» olması hər kəsi təəccübləndirir. Rus folklorşünası V.A.Vasilenko bu haqda yazır: «Əksər halda cansız əşyalar tapmacada canlı varlıq kimi insan kimi göstərilir» [84, s.147] Doğrudan da belədir. «Yemək – cansız əşya, ana döşləri canlı əşya» kimi təsbit olunmuşdur. Bu da bilavasitə «y»nın alliterasiyasının sistemli şəkildə işlədilməsinin təzahürüdür.

***«d», «q», «b»***-nın alliterasiyası

Dinnənər bir canavar gördüm,
Döşü şir döşünə bənzər,
Qənətdəri qırqız qənədinə,
Qıçı dəvə qıçına bənzər,
Qarnı əqrəb qarnına.
Quyruğu at quyruğuna bənzər
Başı da at başına (Çəyirtkə) [H.Z, s.54].

*“d”, “q”, “b*” samitlərinin alliterasiyası “çəyirtkə”nin təsvirini vermişdir. Tapmacada canavarın bədən üzvləri digər heyvan və həşəratların üzvlərinə bənzədilmişdir. Belə ki, canavar döşü – şir döşünə; qanadı – qırqız qanadına, qıçı – dəvə qıçına, qarnı – əqrəb qarnına, quyruğu – at quyruğuna, başı – at başına bənzədilərək həmin əlamətlərin çəyirtkə üzərində cəmləşdiyinə işarə olunmuşdur. Tapmacada mükəmməl təşbehin əlamətləri göz qabağındadır.

Bir tərəfdən, (d, q, v) alliterasiyaları tapmacada poetik ahəngdarlıq yaratmış, digər tərəfdən, müqayisə (bənzədilən) obyektlərin təsvirini vermişdir.

**“m”-**in alliterasiyası:

Milli, milli mərcümək,
Şirin dilli mərcümək,

Aləmi gəzdi gəldi

Başı güllü mərcümək ( Qəlyan)  [V.X, s.26]

“m”in tapmacaların dilində həm xarici, həm də daxili alliterasiyası qovuşuq şəkildədir. Bu da poetik səslənmə ilə yanaşı, qəlyanın cəmiyyətdə geniş şəkildə yayılmasına bir işarədir. Nümunədə xarici alliterasiya qabarıqdır.

**“k”-**nın alliterasiyası:

Kilit–kilit içində,

Kilit sandıq içində,

Binəyə bir od düşdü

Biz də yandıq içində ( Güzgü)  [H.Z, s.27]

Kor öküz koldan baxar  (Tüfəng)  [V.X, s.31].

Tapmacaların dilində “k”-nın alliterasiyası işlənmə dairəsinə görə nisbətən zəifdir. Bu da çox alınma sözlərin tərkibində müşahidə olunur.

**“t”-**nin alliterasiyası:

Toburğu, hay toburğu

Tutta bitər tobuğu.

Gəzdim uzun meşəni,

Tapmadım düz toburğu  (Keçi və buynuzu)  [H.Z, s.91]

Tat tatı tutdu,

Tat oğlun tutdu.

Oğlu cidasın getdi,

Yarpağı yarpağ götdü  (Ev)  [V.X, s.22]

Hatım, hatım, həttadı,

Hatım koxa kənddədi.

Dişi qarnı altdadı,

Dodağı dalı qattadı  (Xırman vəli)  [H.Z, s.42]

**“h”-**nın alliterasiyası:

Hilim, hilim dügməsi,

Hilim xatun dugməsi.

Hər kim onu tapmasa,

Altı min onun cəriməsi (Qabaq) [ V.X, s.54]

**“l”n**in alliterasiyası:

Ləgən, ləgən ləgəndə,

Ləgən boynun əyəndə.

Yemiştərdə nə yemiş

Yemək olmaz dəgəndə (Badımcan) [V.X, s.54]

Lam lam üstə,

Lam mim üstə.

Lam üstə meşə,

Çaqqallar onu eşə ( Baş, tük, bit) [V.X,s.81]

**“p”-**nin alliterasiyası:

Pirəmə, pirəm içində,

Saqqalı pirəm içində (Qarğıdalı) [V.X, s.65]

**“ç”-**nin alliterasiyası:

Çin çinarın başında,

Çin qaranquş oturur.

Hər qanatın çırpanda,

Bir ovuc qum tökülür (Qamış) [V.X, s. 55]

Çullaram çülük salar,

Çullamaram qulun salar (Saç) [H.Z, s.26].

“**z**”-nın alliterasiyası:

Zər zərə yapışmış

Zər duvara yapışmış.

Zərgər oğlu gəlməmiş,

Zər duvardan qopmamış (Sandıq və açar) [ H.Z, s.24]

Zəng zəng içində,

Zəng firəng içində,

On iki ay firəng içində (Saat) [V.X, s.115]

**“q”-**nın alliterasiyası:

Qara tavuq qaqaq eylədi,
Qanadları şaqaq eylədi.
Ay tut, ay baş
Qala qapısın bərk çaqaq eylədi  (Sandıq)  [V.X, s.24]
Qara atı yağladım,
Qaya dibində bağladım ( Qıfıl)  [V.X, s.27]
Qolu var, qıçı yoxdur,
Qarnını yırtarsan, qanı yox  (Köynək)  [V.X, s.29]
Sağsağanlar sayrışı,
Quyruğu sənin əlində,
Qoz ağacı kurullar,
Quyruğu mənim əlimdə  (Tüfəng)  [V.X, s.31]
Qaraca, qaraca qarğalar,
Qapıdan qapıya yorğalar  (Saç)  [H.Z, s.77]
"s"-nın alliterasiyası:
Suva girər lilləni,
Sudan çıxar dilləni.
Suya girər lillənər,
Sudan çıxar dillənər  (Yuxu)  [V.X, s.32],
Suya girdi dağıldı,
Sudan çıxdı yığıldı  (At quyruğu)  [H.Z, s.43]
"g"-nın alliterasiyası:
Gecə gəzər leyli xan,
Gündüz gəzər leyli xan.
Gök otların başında,
Dügmə düzər leyli xan  (Qoyun)  [V.X, s.40]
"d"-nin alliterasiyası:
Dərə təpə düz oldu,
Dörd yanı yarpız oldu.
Durun balalarım,

Analarınız qız oldu (Qoz) [N.S, s.60]

“b”-nın alliterasiyası:

Bizdə bir kişi var,
Beş dişi var ( Ding) [V.X,s.64]
Baldan şirin, baltadan ağır ,
Bazara gedər satılmaz ( Salam) [N.S, s.68]
Biri deyir bay başım,
Biri deyir bay leşim (Sütun) [V.X, s.22]

“x”-nın alliterasiyası:

Xəstədir, ay xəstədir,
Əlim kitab üstədi.
Yemişlərdə nə yemiş var,
Çərdəkləri üstədir (Böyürtkən) [N.S, s.57]

“ş”-nın alliterasiyası:

Şap-şap ayaqlı,
Şap-şap dodaqlı,
Şana buynuzdu,
Əzrayıl üzdü (Camış) [H.Z, s.8]
Şıldırım, şıldırım su keçdim,
Şıldırıma batmadım.
Qızıl-gümüş don geydim,
Qıxmağın da tapmadım (Yuxu ) [V.X, s.115].

Tapmacaların dilində “f”, “r” samitlərinin alliterasiyası, demək olar ki, görünmür. Beləliklə, alliterasiya Azərbaycan tapmacalarının dilində xüsusi çəkiyə malik poetik kateqoriya kimi görünür.

### 3.1.3.Leksik-morfoloji təkrarlar

Tapmacalarımızın dilində ahəngdarlıq və melodiyalılığı təmin edən vasitələr sırasında leksik-morfoloji təkrarların rolu danılmazdır. *Işım-ışım işıldamaq, par-par parıldamaq, zır-zır ağlamaq, fır-fır fırlanmaq* kimi leksik-morfoloji təkrarlar tapmacalarımızın dilinə təkcə şeiriyyət gətirmir, həm də mətnin semantik tutumunu qüvvətləndirir. Qeyd edək ki, bu cür leksik-morfoloji təkrarlar dilçiliyimizdə müxtəlif başlıqlar altında öyrənilmişdir. Məsələn, M.Hüseynzadə bu tip vahidləri "yamsılamalar" başlığı altında təqdim edir: *"... yamsılamalar intensivlik ifadə edərək, eyni kökdən düzəlmiş feillə birlikdə işlənir: zar-zar zarımaq, fır-fır fırlanmaq, şır-şır şırıldamaq, gur-gur guruldamaq, ışım-ışım ışıldamaq"* [30, s. 312]. M.Adilov isə bu sözləri təqlidi sözlər adlandırmışdır.

T.Hacıyevə görə, *"ışım-ışım ışıldamaq, par-par parıldamaq, zar-zar zarıldamaq, qatım-qatım qatlamaq və s. qəlib konstruksiyalardakı leksik-morfoloji təkrarlar, dilə intensivlik, ekspressivlik verməklə, həm də alliterasion ritm yaradır"* [26, s.22]

Başı qələm bağlayıb,
Qarnı vərəm bağlayıb,
Balalarını başına yığıb,
Zır-zır ağlayır (Samovar) [V.X, s.26]
Işıl-ışıl ışıldar,
Qıl torbada mışıldar (Qoz) [V.X, s.88]. və s.

### 3.1.4.Anastrofa

Azərbaycan tapmacalarının dilində anastrofalar (sözlərin əks sıra ilə düzümü) özünəməxsusluğu ilə seçilir.

Bir dağım var əzimlərin əzimi,
İldə verir otuz salxım üzümü,
Ağı haramdı, qarası halal ( Orucluq) [V.X, s.47]
Biri gedir,
Biri oturur,

Biri yatır (Çay, ağac, torpaq) [H.Z, s.36],

Əl ilə əkilər, dil ilə biçilər (Kitab) [N.S, s.336].

Bu tapmaca nümunələrində poetik səslənmə, ahəngdarlıq, eyni zamanda misraların semantik tutumunun qabarıq şəkildə görünməsi birbaşa anastrofa ilə bağlıdır. Onu da qeyd edək ki, Azərbaycan tapmacalarının dilində yüksək bədii-estetik dəyərə malik anastrofalara tez-tez təsadüf olunur.

### 3.1.5.Anafora və epifora

Anafora və epifora bədii ifadə vasitələridir. Anafora (yunancadır, "anaphora"- yuxarı aparmaq deməkdir) şeirdə misraların başında, nəsrdə cümlələrin əvvəlində səs birləşmələrinin və sözlərin təkrarlanması nəzərdə tutulur . Epifora isə anaforanın əks tərəfində (sonunda) qərarlaşır.

Azərbaycan tapmacalarının dilində ahəngdarlıq, səs çeşidləri poetik mənanı gücləndirən anafora (təkrar olunan söz və ifadələrin misraların əvvəlində gəlməsi) və epiforaları (təkrar olunan söz və ifadələrin misraların və s. sonunda işlənməsi) təsadüf olunur. Bəzi tapmacalarımızın dilində müşahidə olunan anafora və epiforalara diqqət yetirək:

Başı duman, dumanın altı çəmən,
Çəmənin altı çıraq, çırağın altı bulaq,
Bulağın altı kərki, kərkinin altı nərək (Samovar) [V.X, s.69]
Biz idik, bizlər idik, otuz iki qızlar idik (Dişlər) [H.Z, s.17]
Hini, hini kəhər at,
Hini gözəl kəhər at.
Ayağında qıl sicim
Düyünü gözəl kəhər at (Beşik) [V.X, s.65]
Yerdə uzun uzanıf,
Uzun burun uzanıf.
Dört qırağında karyol,
Ortada qoyun uzanıf ( Xiyar) [V.X, s.71]
Qaraca, qaraca qarğalar,

Qapıdan qapıya yorğalar ( Saç) [N.S, s.77]

Lam lam üstə,

Lam mim üsdə.

Lam üstə meşə,

Çakallar onu eşə (Baş, tük, bit) [V.X, s.81**]**.

Bu nümunələrdəki anaforaların hər biri tapmacadakı fikri qüvvətləndirən, emosionallığı artıran, misraların düzgün qafiyələndirilməsinə kömək edən detallardır.

Araşdırmalar Azərbaycan tapmacalarının dilində hər iki təkrarın geniş işləndiyini göstərir

## 3.2.Azərbaycan tapmacalarının leksik səviyyədə obrazlığının təzahür

### 3.2.1.Frazeoloji vahidlər

Frazeoloji vahidlərin zənginliyi Azərbaycan tapmacalarının dilində də müşahidə olunur. Əsasən, nəzm şəklində olan tapmacalarda misradaxili frazeoloji vahidlərə daha çox təsadüf edilir.

Qutu qutu içində,

Qutu İsfahan içində,

İsfahana bir od düşdü,

Biz də onun içində ( Güzgü) [H.Z, s.80].

Azərbaycan tapmacalarının dilində işlənmiş frazeoloji vahidləri komponentlərinin sayına görə 2 yerə bölmək olar: a) ikikomponentli frazeoloji vahidlər***:*** *əl tutmaq, od yaxmaq, atıb-keçmək, vərəm bağlamaq*; b) üçkomponentli frazeoloji vahidlər:*cümlə cəhanı yıxmaq; xoruz xuda çağırır; xurd-xəşil olmaq* və s.

Frazeoloji sinonimlər tapmacaların dilində qabarıq şəkildə görünür: hirsi başına vurmaq – *cin atına minmək, dişi bağırsağını kəsmək.*

Tapmacalarımızın dilində feili frazeoloji vahidlərin üstün mövqedə çıxış etməsi müşahidə olunur: *keçi buynuzu tutmaq, qırğın gəlmək, kök atmaq, yarpaq çıxartmaq*. Bu tip feili frazeoloji vahidlərdəki baş, burun, buynuz, qırğın, kök, yarpaq və s. kimi

əşyaların adını bildirən sözlərlə feillərin sintaktik-semantik bağlılığı vardır ki, bu da tapmacaların dilindəki mənanı açmağa imkan yaratmışdır.

Göydən gəldi dərvişdər,
Kürkün yerə sərmişdər.
O qədər oynamıştar,
Xurd xəşil olmuşlar (Qar), [ V.X, s.38]
İynə gözündən baxdım,
İstanbulda od yaxdım (Tüfəng) [ V.X, s.31]
Qalın qamış içində xoruz xuda çağırır (Tüfəng) [H.Z, s.31]
Dəyirmana dən doldu,
Züf üzümə bənd oldu.
Üç yüz altmış taxta,
Bir mismara bənd oldu ( İl) [ V.X, s.74].

### 3.2.2. Epitet

Ədəbiyyatşünaslığımızda, o cümlədən üslubiyyatda epitetə belə tərif verilir: "Məcaz növlərindən biri kimi müəyyən bir sözün mənasını qüvvətləndirmək məqsədilə ona əlavə edilmiş söz və birləşmələr epitet adlanır". Azərbaycan tapmacalarında işlədilmiş epitetlər zənginliyi ilə seçilir. Bu mənada tapmacalarımızda müşahidə olunan epitetlərin üslubi-poetik məqamlarına diqqət yetirək:

Dağdan gəlir banı xanım,
Əlləri xınalı xanım.
Dindirərsən farsı danışar,
Tükləri tehrani xanım ( Kəklik) [H.Z, s.46]

Epitet qeyri-təyini söz birləşməsi – "əlləri xınalı" ilə ifadə olunmuşdur. Kəkliklərin məskəni dağlar, yamaclardır. Dağlardakı mamırlı daşlar sürtüldükdə xınaya çevrilir. Tapmacada kəkliyə əlavə edilən söz (əlləri xınalı) epitetdir.

Mat-mat ayağlı,

Mədinə dodağlı,

Çəkərəm uzanar,

Vay qəyiş ayağlı (Zəli) [ V.X, s.52].

Bu tapmacalarda zəlinin ayaq və dodaqları (Mədinə kimi incə dodaqlı) çəkəndə uzandığına görə qayışa bənzədilmişdir.

Uzun hoqqar, sarı saqqal,

Onu tapmayan olsun çaqqal (Qarğıdalı) [V,X, s.55].

“Qarğıdalı” tapmacada “sarı saqqal”, “uzun hoqqar” epitetləri ilə səciyyələndirilir. Tapmacalarda işlənmiş “uzun” və “hoqqar” sözlərinin hər ikisi Azərbaycan dilinə məxsus olan komponentlərdir. “Uzun” sözündən fərqli olaraq “hoqqar” ən çox canlı danışıq dilinə xas olan dialekt sözdür. Dialekt sözü kimi “hoqqar”da “uzun”, “daha uzun” adam anlamında işlədilir.

Anası yayma xatun,

Atası həprik qoca.

Qızı ellər gözəli,

Oğlu ellər dəlisi ( Üzüm tənəyi, gövdəsi, giləsi, şərab) [H.Z, s.104].

Tapmacada “yayma xatun”, “həprik qoca”, “ellər gözəli”, “ellər dəlisi” ifadələri epitetlərdir. Belə üzümün əyri-üyrü formada olan gövdəsi əldən düşmüş qocaya, üzüm giləsi gözəl qıza, üzümün yarpaqları yayma xanıma, üzümdən hazırlanmış şərabı içib sərxoş olan oğul isə ellər dəlisi adlandırılmışdır.

“Həprik” ifadəsi dialekt sözdür. Ən çox Qazax, Borçalı dialekt və şivələrinə məxsusdur. Əldən düşmüş, dişləri tökülmüş, taqətsiz ahıl adamı bəzən “həprik qoca” adlandırmışlar.

Baldan şirin, baltadan ağır,

Bazara gedər satılmaz (Salam) [ N.S, s.368].

“Salam” tapmacada “baldan şirin”, “baltadan ağır”, “bazarda satılmayan” epitetləri ilə səciyyələndirilmişdir.

Yəni baldan şirin, baltadan ağır olan salam heç vaxt bazarda satılmaz. Bu tapmacadan salama verilən qiymət, ölçü dəyərləndirilmişdir.

Qat ipək, qatlanmış ipək,

Çil ipək, çillənmiş ipək. (Kitab), [H.Z, s.70]

Tapmacada "kitab"ın cildinin hazırlanmasında istifadə olunmuş ipəyin əlamətləri göstərilmişdir.

### 3.2.3.Təşbeh

Azərbaycan tapmacalarının dilində ən geniş işlənmiş məcaz növlərindən biri də təşbehlərdir. Tapmacaların dilində təşbehlər təkcə sayı və intensivliyinə yox, həm də semantikası və poetik siqlətinə görə xeyli fərqlənir. Tapmacaların dilində təşbehlərin mənbəyi bilavasitə insanla təbiətin müqayisəli təsvirinə söykənir. Qısaca olaraq belə xarakterizə etmək olar: tapmacalarımızda ya təbiət insanla, yaxud da insan təbiətlə müqayisə edilmişdir, hər ikisində ən ümdə cəhətldər qabarıq şəkildə səciyyələndirilmişdir. Bu barədə T.Hacıyev yazır: "İnsan təbiətin varlıqlarından biri kimi özünü ümumi canlılar sistemi ilə müqayisə edir. İnsan öz ibtidai düşüncəsində insanlarla heyvanlar, insanlarla quşlar, insanlarla ağaclar, insanlarla bitki və çiçəklər arasında analogiya görür. İnsanların da heyvanlar, quşlar kimi güclüsü və zəifi, mərdi və namərdi, yaraşıqlısı və eybəcəri, ağaclar kimi qollu-budaqlısı vardır. Güclü kişini şirə, aslana, palıda, çinara, gözəl qadını tovuza, pəriyə, bənövşəyə bənzədiblər. Buna görə də insan dolayı şəkildə, sxem qurmaq yolu ilə getdiyi kimi, birbaşa da özünü güclü təbiət varlıqları ilə yanaşı qoyur" [25, s. 28]. Bu fikirlər sanki şifahi xalq ədəbiyyatı janrlarına, o cümlədən sirli-soraqlı tapmacalarımıza istinadən söylənilib. Çünki tapmacalarımızın böyük qismi cəmiyyət, heyvanat, təbiət aləmi ilə bağlıdır.

Altı tabaq-tabaq,
Üstü çanaq-çanaq.
Keçi kimi mələyər
Ot yeyəndə ağzı göyərər (Tısbağa) [V.X, s.47]
Dağdan gəlir dağ kimi,
Qolları budaq kimi,
Əyilir su içməyə,
Çığırır oğlaq kimi ( Sel) [V.X,s.35].

### 3.2.4.Metafora

Tapmaca, əsasən, metafora şəkilində qurulmuş düşündürücü suallardan ibarətdir. Tapmacada hər hansı hadisə və əşyanın müəyyən əlaməti, keyfiyyəti və ya xasiyyəti dolayı yolla anladılır, başqa cəhətləri isə gizlədilir. Yunan filosofu Aristotelə görə, tapmaca yaxşıca düzəldilmiş metaforadır. Məhz bu baxımdan tapmacanın cavabını tapmaq üçün, ilk növbədə, nəzərdə tutulan metaforik fikri açmaq lazımdır. Lakin fərqli nüans

dilçilik ədəbiyyatlarında, bir qayda olaraq, metaforanın əşya və hadisələrin hər hansı bir cəhətdən oxşarlığına əsasən söz və ifadənin məcazi mənada işlədilməsidir. Belə ki, metaforanın (metaphore) - hərfi mənası” köçürmə” dir, söz və ifadələrin dolayı mənada işlənməsinə əsaslanan məcaz növüdür. Azərbaycan xalq tapmacalarının dilində tam xarici bənzərlik əsasında metaforanın ən sadə növləri yaranmışdır. Məsələn: “baş” həqiqi mənada bədən üzvü kimi, metaforik mənada isə: a) zirvə, təpə, üst; b) kənar, qıraq, yan; c) hörmətli yer; ç) uc, qurtaracaq; d) başlanğıc və s. Fikrimizi əsaslandırmaq üçün faktlara müraciət edək:

Ağac başında ağca yumaq (Qar) [ V.X,s.105]

Başı daraq, quyruğu oraq,
Tezdən durar, surun vurar ( Xoruz) [ V.X, s.173].

Təşbehlərdən fərqli olaraq metaforalarda qarşılaşdırılan tərəflərdən biri iştirak etmir.

Azərbaycan tapmacalarının dilində metaforalar təşbehlər nisbətən daha çox müşahidə olunur ki, bu da qarşılaşdırılan tərəflərdən birinin ixtisar olunması ilə, yəni üslubla bağlıdır.

Balaca mənzar evləri gəzər (Qayçı) [H.Z, s.29]

Dağdan gəlir, dağarcıq,
Ağzında qabırğacıq.
Girdi dərzi dükanına
Tökdü xırda mırdacıq (Qayçı) [V.X, s.29]

Balaca motal, qapıda yatar ( Başmaq) [V.X, s.30]

Qaz qağıldar, sağsağan iliyini tökər (Dəyirman), [H.Z,s.65]

Sağsağan səkər,

Bildirçin bükər,

Qaz qaqqıldar,

İliyin tökər (Dəyirman) [ V.X, s.65]

İki eşşək bir dərdə,

Bir-birin çeynəyirlər (Dəyirman) [V.X, s.65]

Bir div oturub

Bir qulağını altına qoyub,

Bir qulağını üstünə ( Dəyirman) [V.X, s.65]

Badanı, gəzər obanı,

Altı qıçı var, iki dabanı (Tərəzi ) [ H.Z, s.67]

Qara toyuq çökdü yerə,

Bağırsaqların tökdü yerə ( Allah), [V.X,s.71]

Əzizim, ay mələr,

Bulut yox, ay mələr.

Qoç bir quzu doğdu,

Süd deyir, ay mələr (Orucluq ) [V,X,s.72].

Tapmacalardakı təsvirlərin əsasında məhz qan yaddaşından keçən universal obrazlar durur və əvvəlki mənasında anılaraq müqayisəyə gətirilir. Əks halda, quş şəkilində təsəvvürə gətirilən dünyanın bir qanadı ağ, digəri qara təqdim olunmazdı. Məhz bu baxımdan quşlar, heyvanlar və digər canlılarla bağlı verilən tapmacaların cavabları, bir qayda olaraq, insanlara məxsus xüsusiyyət və keyfiyyətlərə görə tapılır. Növbəti tapmaca nümunələrinə diqqət yetirək:

O neçə quşdu ki, insan kimi süd əmər? (Yarasa balası) [V.X, s.169]

O hansı quşdu - yazı,yayı işləyər,

İnsan kimi özünə azuqə yığar? ( Qarışqa) [ H.Z, s.76].

O hansı heyvandı, yuvasını çiynində gəzdirər? ( İlbiz) [N.S, s. 105].

Məlumdur ki, yarasa balası da digər heyvanlar kimi süd əmir. Birinci, tapmacada yarasa balasının süd əmməsi insanla müqayisədə verilmişdir. Çünki yenicə doğulmuş körpənin ana döşündən süd əmməsi təbii haldır.Tapmaca qoşan

nümunənin cavabını asan tapmaq üçün “süd”də bədii detal kimi istifadə etmişdir. Məqsəd nümunədə axtarılan obyekti öz körpəliyi ilə əlaqələndirib cavabı aydın təsəvvür edə bilməkdir. İkinci nümunədə isə qarışqanın insan kimi yaz, yay işləyib azuqə (tədarük) toplamasına işarə olunmuşdur. Üçüncü nümunədə isə qəribə mənzərə ilə rastlaşırıq; insandan fərqli olaraq ilbizin zahiri forması qabardılmışdır.

Yaxud:

Göydən bir ağac düşdü,
Barsız, budaqsız.
Onu bir quş yaladı,
Dilsiz, dodaqsız (Qar, günəş) [V.X, s.64].

Tapmacada metaforik müqayisə bundan ibarətdir: qışın qarı barsız, budaqsız ağaca, günəş isə onu dilsiz, dodaqsız yalayan quşa bənzədilmişdir. İlk baxışdan bu müqayisədə qəribə bir mənzərə ilə qarşılaşırıq. Çünki ağacla qar, quşla günəş arasında metaforik müqayisə aparmaq hədsiz dərəcədə təəccüblü görünür. Lakin tapmacaya əski mifoloji modellərlə yanaşıldıqda “təəccüblü ünsürlər“ tədricən aradan qalxır. Belə ki, əski inanclarda qış barsız, budaqsız ağac, günəş isə dilsiz, dodaqsız quş kimi kodlaşdırıldığına görə, birincinin arxasında təbiətin soyuqda, şaxtada yuxuya getməsi, ikincidə isə göy cisminin”uçması” və görünməz isti şüaları ilə yer üzündə hər şeyi yalaması hadisəsi gizlənmişdir [122, 135-136]. Qeyd edək ki, nümunədə “dodaqsız” ifadəsi düzgün işlədilməmişdir. Çünki “quşda dodaq olmur”, əslində nümunədə “dimdiksiz” ifadəsi işlədilməlidir.

### 3.2.5.Metonimiya

Metonimiya mənanın bir sözdən başqasına müəyyən səbəb əsasında köçürülməsidir.

Tapmacaların dilində metonimiyalara az təsadüf olunur. Bu da səbəbsiz deyildir. Çünki tapmacaların daxilində gizli mətnaltı məna metonimiyalardan fərqlənir.

El yatdı, oba (aləm) yatdı,
Ölü ayağın (qıçın) uzatdı (Cəftə) [ V.X, s.23]. və.s

### 3.2.6.Mübaliğə və litota

Ümumiyyətlə, şifahi xalq ədəbiyyatında mübaliğə və litotadan istifadə xüsusi səciyyə daşıyır. Bu baxımdan tapmacalarımızın dilində hər iki məcaz növünün müvaze şəkildə işlənməsi aktuallıq kəsb edir:

İynə gözündən baxdım,
İstanbula od yaxdım (Tüfəng) [ H.Z, s.31]
Balta vurdum nimçəyə,
Səsi getdi Gəncəyə (Göy gurultusu ) [V.X, s.57]
Burada vurdum qılıncı
Dəhnədə oynar ucu ( İldırım) , [V.X, s.37]
Hacılar, haca gedər,
Cəhd eylər gecə gedər.
Bir yumurtanın içində,
Qırx-əlli cücə gedər (Nar) [N.S, s.58]
O yanda bir qoç durub,
Buynuzlarını burub,
Cümlə aləmi udub
Yenə yerində durub (Dəyirman) [V,X, s.65].

Tapmaca nümunələrində insana aid əlamətlərin təbiət varlıqları ilə müqayisəli şəkildə təqdimində maraqlı mübaliğələrə rast gəlmək mümkündür.

O necə göldür, suyunu içmək olmaz,

O necə dağdır, otun biçməklə qurtarmaq olmaz (Göz yaşı və saç) [H.Z, s.11].

Metaforik müqayisədə insanın göz yaşı göllə, saçı dağın otu ilə əlaqələndirilmişdir.

### 3.2.7.Antiteza

Azərbaycan tapmacalarının dilində antiteza rəngarəngliyi ilə seçilir. Tapmacaların dilində antiteza yaranma vasitələri aşağıdakılardır. Həmin vasitələrin bəzisini nəzərdən keçirək:

1. Misra daxilində antonimlərin işlədilməsi yolu ilə:

*şirin-acı-şor*:

Üç bulağım var,
Birinin suyu şirin,
Birinin acı, birinin şor (Ağız, qulaq, göz) [H.Z, s.17]

*uzun-gödək*:

Uzun leylək, gödək leylək,
Bir qıç üstə duran leylək (Qapı) [H.Z, s.22]

*qara-ağ:*

Qara eşşək, ağ palan (Saç) [N.S, s.26]

*enli-dar:*

Ağızdan enni,
Dibdən dar (Piyalə) [V.X, s.27]

*erkək-dişi:*

A kişi-kişi,
Əlində şişi,
Mənə bir at ver,
Nə erkək olsun, nə dişi (Gəmi və ya beşik) [V.X, s.16]

*gedən-gələn:*

Gedən leyli, gələn leyli,
Bir qıç üstə duran leyli (Qapı) [V.X, s.22]

*getmək-dayanmaq:*

Mən dayannam o gedər,

Mən gedərəm o qalar.

Mən gedərəm o da gedər ( Külək) [N.S, s.18]

*batmaq-çıxmaq:*

Burdan batar,

Ordan çıxar,

Filfil atar, yonca bitər (Xış və əkin) [H.Z, s.53]

*içəri-çöl:*

Biri içəridə, ikisi çöldə. Ölü torpaq, yaxşı-pis əməlləri çöldə ( Ad ) [ V.X, s.21]

*yayda-qışda:*

Yayda gedər, qışda gələr (Nəfəs) [H.Z, s.19],

Nədi ki, yayda durar, qışda açılar (Nəfəs) [H.Z, s.23]

*axşam-səhər:*

Axşam boşaltdım,

Səhər doldurdum.

Cam xudan, cümlə xatun ( Sac ), [H.Z, s.4],

*gündüz-gecə:*

Gündüz qalxar, gecə saxlar,

Əyrim-üyrüm hara gedirsən.

Papağı cırıq, sən nə deyirsən? ( Cəftə, baca, tüstü) [V.X, s.211],

Gecə qulluqçu, gündüz xanım (Yorğan-döşək) [ N.S, s.24]

*yer-göy:*

Mən aşıq bir yerdə,

O göydə, bir yerdə.

Yaradıb, görməyib onu,

Görməmişik biz yerdə (Meyit) [V.X, s.20]

*haram-halal*:

Əti haram, südü halal (Ana) [V.X, s.21]

*aşağı-yuxarı:*

Ağzım aşağı eylərəm dolar,

Yuxarı eylərəm boşalar *(Papaq) [H.Z, s.29]*

*hündür-alçaq*:

Atdan hündür,

İtdən alçaq ( Qaltağ, yəhər) [H.Z, s.32]

*sərmək-yığmaq*:

Bir palazım var,

Sərəndə sərirəm,

Yığanda yığa bilmərəm (Göy-səma) [ N.S, s.35].

Tapmacaların dilində üstün mövqedə görünən bu tip antitezalarla bağlı bəzi cəhətləri ümumiləşdirmək lazım gəlir: təqdim olunmuş antonimlər əsasən türk mənşəlidir, haram-halal kimi vahidlər istisna təşkil edir; bəzi misralarda antitezalar silsiləsi müşahidə olunur (gecə-gündüz, hündür-alçaq, yer-göy); bu tip antitezalar tapmacalarımızın dilində üstün mövqedə çıxış edir. Belə antitezalar tapmacaların dilində intensivliyi ilə seçilir. Tapmacaların dilində üslubi antonimlər vasitəsilə yaradılmış antitezalara da təsadüf olunur:

O nədi ki, diki çıxar,

Enişi enə bilməz (Dovşan) [H.Z, s.40]

Əkdim palıt, çıxdı şabalıt,

Ortasından bir zoh çıxdı,

Nə palıtdı, nə şabalıt (Qatır) [ V.X, s.41]

Dağlarda sümük olmaz,

Hər gördüyünü demək olmaz.

Kalın yemək olar,

Dəymişin yemək olmaz ( Maral balasının buynuzu) [V.X, s.40]

Altı qoyun, üstü keçi,

Başı fındıq, üstü qayçı (Qaranquş ) [N.S, s.143].

Tapmacalarımız əksəriyyəti ziddiyyətlər üzərində formalaşmış şifahi xalq ədəbiyyatı nümunəsidir. Tapmacaların məzmununda bir tərəfdən təbiətdəki, digər tərəfdən isə cəmiyyətdəki ziddiyyətlər dayanır. Eyni zamanda, tapmacalarda cansız əşyalar canlı varlıqlar kimi, insan kimi göstərilir.

Ey quş hardan gəlirsən?

Qanlı qaya dibindən!

Qanın nə üçün quruyub?

Allah belə buyurub! (Kəklik quyruğu) [N.S, s.43]

Dörd abdal bir quyuya daş atdı ( İnək, yaxud camış əmcəyi) [ V.X, s.43]

Dostum mənə nar göndərdi,

Yox demədi, var döndərdi.

Çalxanmış qatıqdan

Çalxalanmamış yağ göndərdi (Qoyun quyruğu) [V.X, s.43].

### 3.2.8.Cinas sözlər

Daha çox təcnis üçün səciyyəvi olan cinas qafiyələrə tapmacalarımızın dilində daha çox təsadüf olunur.

Mən aşıq bir ata,

Bir oğulla bir ata,

Səksən dəvə, yüz qatır,

Yüklənibdir bir ata ( At çulunun üstündəki dəvə və qatır şəkilləri) [ H.Z, s.212].

Dördüncü misradakı "ata" (üzərində bəzəkli yəhər olan at) birinci və ikinci misradakı "ata" sözünü ilə təkcə forma deyil, həm də semantik baxımdan qüvvətləndirir. Mətndəki ahəngdarlığı da cinas qafiyələrlə alliterasiyaların sintezi təmin edir.

Mən aşıq yüz yer aşar,

Basılmış yüz il yaşar.

Bu dağın kənarında

On kotan yüz yer eşər (Əl) [N.S, s.18].

Tapmacanın dilində işlədilmiş "aşar-yaşar-eşər" sözləri cinas qafiyələrdir.

Cinas qafiyələrdə işlənmiş sözlərin mənaları müxtəlifdir: *aşmaq–gəzmək, yaşar–yaşamaq, eşər–kotanla torpağı eşmək* anlamındadır.

Mən aşiqəm buz bağlar

Qışda çaylar buz bağlar,

Aşıq bir hikmət görüb

Od içində buz bağlar (Qaymaq) [N.S, s.124].

Birinci və ikinci misralarda söhbət qışda çayların buz bağlamasına işarə olunmuşdur. “Od içində buz bağlar” ifadəsi isə ocaq üstə bişən südün yavaş-yavaş soyuduqca “buz bağladığına, qaymaq tutduğuna” işarədir. Yəni soyuduqca suyun üzündə buz qalınlaşdığı kimi, qaynanmış südün üzündə də qaymaq qatı yaranır.

Mən aşiq, göydə nə var?

Göy yemiş, göy dana var.

Ayaqları yerdədir,

Bədəni göy dana var [N.S, s.88].

Birinci misrada aşıq soruşur: göydə nə var? İlk nəzərdən adama elə gəlir ki, aşıq “göydə nə var?” deyəndə göy üzündə, səmada, asimanda nəyin olduğunu soruşur. Lakin ikinci misradan məlum olur ki, aşıq göy deyəndə səmanı, asimanı deyil, yaşıl çəməni, göy zəmini, otlağı nəzərdə tuturmuş. Belə ki, göy dana yaşıl çəmən və ya göy zəmidə ot yemişdir. Üçüncü misrada ot yeyən dana ayaq üstə olduğundan ayaqları yerdədir. Dördüncü misrada isə göy çəməndə ot yeyən dananın bədəni (başı ot yeməyə qarışdığına görə) tamamilə göy rəngə bürünmüşdür.

Mən aşiqəm, bu göldə

Yeddi can var bu göldə.

Üçü göyə çəkildi

Dördü qaldı bu göldə [H.Z, s.102].

Bu bayatı kənd həyatı ilə bağlıdır. Heyvandarlıqla məşğul olanlar yaxşı bilir ki, yayda camışlar günortadan axşam sərininə qədər göldə yatışır. Aşıq da baxır ki, göldə əvvəlcə yeddi camış var idi. Sonra camışlardan üçü göyə çəkilir, yəni göy çəmənə otlamağa gedir (B. Əhmədov “göyərti” sözünün etimologiyasını belə izah etmişdir. “Göyərti” sözünün kökü göy kimi olur – su, yaşıl anlamları ilə bağlıdır. Göyərti həmişə sulu olur, quruyanda artıq suyunu, yaşıllığını, rəngini itirir. Deməli, göyərti “sulu” deməkdir. Göldə isə camışlardan yalnız dördü qalır.

Mən aşıq, qoyun dərdi,

Çobanın qoyun dərdi.

Bağban bir gül üzüncə,

Çoban bir qoyun dərdi  [ H.Z, s.213].

Bu bayatı bağlama "qoyun" cinas sözü üzərində qurulmuşdur. Birinci misra açar rolunu oynayır. "Mən aşiq qoyun dərdi" misrası aşiqin dərd əhli (yar əhli) olduğuna işarədir. İkinci misrada çobanın qoyun-quzu dərdindən, qayğısından danışır. Üçüncü misrada bayatı-tapmacanın məğzi, əsas fikri açılmağa başlayır. Bu misradan məlum olur ki, bağban bağdan, güllükdən bir gül üzməmiş (dərməmiş), çoban isə tələm-tələsik bir qucaq (qoyun) gül dərməyə çalışır. Yəni hər kəs bir-birinin dərdini çətin anlayır. Bağbanın çobanda olan qoyun-quzu dərdini anlamadığı kimi çoban da bağbanın min qayğı ilə bəslədiyi gülün qədrini bilə bilməz. Ona görə də bağban gülü bir-bir üzür, hətta gülü üzməyə əli də gəlmir. Ancaq çoban necə gəldi gülləri üzür ki, təki qucağı güllə dolsun, aşıb daşsın.

Mən aşiqəm, gələn yaz,

Al əlinə qələm yaz.

Aşı Payız bişirdi

Yağı tökdü Gələn Yaz  [H.Z, s.301].

Bu bayatı tapmacada işlədilmiş "Payız" və "Gələn Yaz" qız adlarıdır. Bu qız adları anadan olduqları, doğulduqları fəsillərin adına uyğun verilmişdir. Belə ki, qızlardan biri payızda, digəri isə yazda anadan olmuşlar.

Aşıq məsləhət görür ki, yaddan çıxmamış əlinə qələm alıb yaz ki, gələn (yaxınlaşan) yaz aşı Payız adlı qız bişirmiş, yağını isə Gələn Yaz adlı qız tökmüşdür.

Mən aşiq, güney dərdim,

Gül dərdim, lala dərdim.

Güneydə qarı gördüm

Quzeydə lala dərdim  [ H.Z, s.117].

Əslində bu tapmacada söhbət qardan, lalədən, güneydən və quzeydən getmir. Aşıq bu bayatısında sadəcə olaraq gözəlin sifətini təsvir edir. Aşıq güney tərəfdən baxanda gözəlin sifətində qar kimi ağlıq, quzey (gün düşməyən) tərəfdən baxanda isə lalə kimi qırmızılıq görmüşdür. Aşiq gözəlin ağlı-qırmızılı sifətini böyük heyranlıqla təsvir və tərənnüm etmişdir.

### 3.3. Tapmacalarda obrazlığın qrammatik səviyyədə təzahürü

Tapmacalarda obrazlığın qrammatik səviyyədə təzahürü dedikdə daha çox inversiya və ellipsis nəzərdə tutulur. Bu mənada tapmacalarımızın dilində müşahidə olunan inversiya və ellipsisin səciyyəvi cəhətlərini nəzərdən keçirək.

#### 3.3.1. İnversiya

Daha çox şeir dili üçün xarakterik olan inversiya (cümlədə söz sırasının qəsdən pozulması) tapmacalarda bədii təsviri qüvvətləndirən vasitələrdən biridir. Bəzi nümunələrə diqqət yetirək:

Yumdum ovucumla,
Pər açdım evnən bir ( Çıraq)  [ V.X, s.25]
Çıxdım təpəyə,
Düşdü ayağım küpəyə ( Ayaqqabı) [V.X, s.30],
Dam üstə dana dingillər  (Dolu)  [V.X, s.38],
Çıxdım Qız qalasına,
Ox atdım balasına.
Quşlardan necə quş var,
Süd verir balasına  (Yarasa) [H.Z, s.42]
Əkdim noxud, çıxdı şüyüd,
Tut yarpağın, dər şabalıt ( Buğda)  [V.X, s.56].

#### 3.3.2. Ellipsis

Ümumi dilçilikdə bu hadisənin əhatə dairəsi dəqiqləşdirilmişdir: şəkilçilərin ellipsisi (ixtisarı); sözlərin ellipsisi, baş cümlənin ellipsisi. Tapmacaların dilinə bu müstəvidə yanaşma bir sıra maraqlı nəticələr söyləməyə imkan yaradır.

1) Şəkilçilərin ellipsisi.

2) Tapmacaların dilində şəkilçi morfemlərinin ixtisarını nəzərdən keçirək:

-dır$^4$ xəbərlik şəkilçisinin ixtisarı.

Quyu quyunun içində,

Suyu suyunun içində,

İlan ilanın ağzında  (Lampa)  [V.X, s.25].

Misraların sonunda işlənmiş “içində, ağzında” xəbərinə -dır$^4$ şəkilçisi asanlıqla artırıla bilir: içində+dir=içindədir. Tapmacaların dilində -dır$^4$ şəkilçisinin ixtisarına daha çox təsadüf olunur.

-dı$^4$ şəkilçisinin ixtisarı (“idi” hissəciyinin qısadılmış forması olan -dı$^4$  morfemi nəzərdə tutulur).

b) Sözlərin ixtisarı. Belə ixtisarlara nümunə olaraq aşağıdakıları göstərmək olar.

Uzun ulacım,

Göydə qılıncım.

Şaftalı börküm,

Divanı kürküm  (Duman)  [H.Z, s.208].

Bu nümunədə “*var*” xəbəri ellipsisə uğramışdır.

Dağ, daşı dolanır,

Nə qanadı var, nə canı  (Bulud) [V.X, s.37].

Nümunədəki ikinci misranın sonuna “var” sözünü artırmaq mümkündür…nə canı; nə canı var;

Bizim eşiyə bir ağac yıxılıb,

Nə buzu var, nə budağı.

Bir quş gəldi onu yedi,

Nə dili, nə dodağı  (Qar-günəş)  [N.S, s.38].

Nümunədəki ikinci və dördüncü misraların sonuna “var” xəbərini artırmaq mümkündür: nə buzu, nə budağı var; nə dili, nə dodağı və s.

# NƏTİCƏ

Azərbaycan tapmacalarının dilinin linqvistik xüsusiyyətlərini araşdırarkən aşağıdakı nəticələri əldə etdik:

1.Azərbaycan tapmacalarının dili mürəkkəb quruluşludur, burada həm dialekt, həm də ümumxalq canlı danışıq dilinin elementləri qorunub saxlanılmışdır. Lakin funksional dil spesifikası ilə əlaqədar olaraq tapmacalarda, həmçinin özünəməxsus leksik və sintaktik qatlar da mühüm rol oynayır.

2. Azərbaycan tapmacalarının dilində mövcud səslərin dəyişmələri ( səs uyğunluqları) bilavasitə linqvistik amillərin təsiri ilə bağlıdır. Tapmacaların dilində səs uyğunluqlarının əmələ gəlməsinə təkan verən başlıca amil fonetik sistemdə dəyişmələrin – qalınlıqdan incəliyə, karlardan cingiltiyə doğru meyli ilə səciyyələnir. Nəticədə güclü səslərin zəif refleksləri yaranır, zəif reflekslər də öz növbəsində güclü səslər mövqeyində çıxış etmək imkanı qazanır. Məhz bu baxımdan tapmacalarımızın dilində səslərin dəyişmə hüdudunun öyrənilməsi sözlərin fonetik dəyişikliyə uğraması prinsiplərini, habelə onların törəmə formalarını, qohum dillərdəki leksik-semantik xüsusiyyətləri aşkara çıxarmağa geniş imkan verir.

3. Tapmacaların dilində tarixi və elmi nöqteyi-nəzərindən, şübhəsiz, maraq doğuran müxtəlif səpkili leksik vahidlər və qrammatik formalara da rast gəlinir. Azərbaycan tapmacalarının söz tərkibi ümumxalq danışıq dilinə yaxınlığı ilə səciyyələnir. Bütün dillərdə danışıq üslubunun, danışıq elementlərinin intensiv şəkildə ədəbi dilə daxil olma prosesi baş verdiyi və burada folklor nümunələri mühüm rol oynadığı üçün tapmacaların linqvistik cəhətdən öyrənilməsi tarixi qanunauyğunluqların və ədəbi dilin inkişafının əsas tendensiyalarının üzə çıxarılmasında xüsusi əhəmiyyət kəsb edir. Ümumxalq danışıq dilinin elementlərinin tapmacalarda istifadə edilməsi onların dil xüsusiyyətlərinin təkrarolunmazlığını şərtləndirir və onların emosional-ekspressiv təsirini artırır.

4. Tapmacalarda, həmçinin dialekt leksikası da geniş təqdim edilmişdir, onların istifadə edilməsi faktı, əsasən, bu və ya digər tapmacanın yaranma yeri və yayılması ilə bağlıdır. Tapmacaların başlıca xüsusiyyətlərindən biri onlarda metaforanın istifadə edilməsidir. Metafora həqiqəti obrazlı şəkildə əks etdirmək üsullarından biri olduğu üçün şifahi xalq yaradıcılığının digər janrlarından (nağıl, atalar sözü, bayatı və s.) fərqli olaraq, tapmacalarda üstünlük təşkil edir. Tapmacalarda üslub rolu oynayan metaforalar, eyni zamanda, ümumişləkdir və ümumxalq danışıq dilinin incilərindən bəhrələnir, çünki tapmacaların yaradıcısı xalqdır. Azərbaycan tapmacalarında metaforlaşmaya təkcə isimlər, feillər deyil, həm də saylar məruz qalır. Miqdar bildirən sözlər (saylar) tapmacalarda təkcə konkret mənada deyil, həm də özünəməxsus semantika nümayiş etdirərək, hiperbolik / metaforik mənada çıxış edir.

Azərbaycan tapmacalarında leksikanın müəyyən hissəsini, həmçinin toponimlər və antonimlər tutur, onların istifadə edilmə tezliyi isə o qədər də yüksək deyil. Onların tapmacalarda istifadə edilməsi tapmacaların ritmik tərtibatı, alliterasiyası, bir sözlə, tapmacaların estetikası ilə bağlıdır. Tapmacaların sintaksisi də ümumxalq danışıq dilinin normalarına yaxınlığı ilə səciyyələnir. Azərbaycan xalq tapmacalarında dildə qənaət prinsipi ilə bağlı olan elliptik konstruksiyalar geniş təqdim edilmişdir. Tapmacalarda ellipsis üç səviyyədə verilir: şəkilçi, söz və cümlə səviyyəsində. Digər paremiyalar üçün səciyyəvi olan ellipsis tapmacalarda onların konkretliyinə, lakonikliyinə və ekspressivliyinə kömək edir. Elliminasiyanın köməyi ilə minimal dil vasitələri ilə dinləyicinin diqqətini tapılacaq əşyaya yönəltmək və tapmacanın açılmasını asanlaşdırmaq mümkün olur. Beləliklə, tapmacalarda ellips onların janr və üslub xüsusiyyətidir.

Azərbaycan xalq tapmacaları üçün onların ritmik tərtibatına xidmət edən sintaktik təkrarların müxtəlif növləri səciyyəvidir. Təkrarlar emosionallıq, ekspressivlik və üslublaşdırma barədə əlavə, əhəmiyyətli məlumat verir və bundan başqa, cümlələr arasında əlaqə vasitəsi olur. Azərbaycan tapmacalarının dilində təkrarlar söz birləşməsi və cümlə səviyyəsində meydana çıxır. Tapmacalarda şifahi nitq, folklorun bir çox nümunələri üçün səciyyəvi olan bölünməyən cümlələr geniş təqdim edilmişdir. Lakin folklorun bu janrında yalnız tapmacalara xas olan və onların spesifikasını

müəyyən edən bölünməyən cümlələr də vardır. Bunlar standart ifadələr adlandırılan və bölünməsi mümkün olmayan ifadələrdir. Tapmacalarda onların istifadə edilmə tezliyi janrın poetik xüsusiyyətləri , onların ritmik tərtibatı ilə izah edilir.

5. Azərbaycan tapmacalarına, onların yadda qalmasına, qafiyələnməsinə, poetikliyinə kömək edən sintaktik paralellik xasdır.

Tapmacalarda sintaktik paralelliyin yaranmasında həm müəyyən formal göstəricilər (zaman, şəxs, xəbər şəkilçiləri və s.), həm də leksik-semantik vasitələr böyük rol oynayır. Azərbaycan xalq tapmacalarında mürəkkəb sintaktik vahidi təşkil edən bir çox zəncirvari birləşdirici konstruksiyalar mövcuddur. Onların inisial komponentləri zaman münasibətləri ilə bağlıdır, onların formal göstəricisi feilin keçmiş zamanının olmasıdır.

Buna əsaslanaraq, biz əmin oluruq ki, türk dillərinin erkən abidələri üçün səciyyəvi olan qrammatik formanın olduğu Azərbaycan tapmacaları çox qədimdir və dilin tarixinin öyrənilməsi üçün qiymətli mənbədir.

6. Tapmacalarda təkcə dilin müasir vəziyyətinin fonetik və leksik normaları deyil, həm də onun inkişafının daha erkən mərhələləri öz əksini tapmışdır.

7. Azərbaycan tapmacalarının tədqiqi dilimizin fonetik və leksik xüsusiyyətlərinin zənginliyi, onların ümumxalq danışıq dilinə yaxınlığını əyani şəkildə nümayiş etdirir. Özündə daim inkişafda olan ümumxalq danışıq dilinin bir çox xüsusiyyətlərini əks etdirməklə, tapmacalar, eyni zamanda, təkcə dilin müasir vəziyyətinin deyil, həm də onun inkişafının daha erkən mərhələlərinin öyrənilməsi üçün qiymətli mənbədir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abdullayeva, Q.A. Kül Tigin abidəsi/ Q.A.Abdullayeva. – Bakı: Azərnəşr, – 2007. – 214 s.

2. Abdullayeva, Q.A. XVII əsr Azərbaycan ədəbi dilinin fonetik və leksik norma demokratizmi / Q.A.Abdullayeva. – Bakı: Elm və təhsil, – 2019. – 384 s.

3. Abdullayev, Ə.Z. Azərbaycan dili məsələləri / Ə.Z. Abdullayev. – Bakı: Bakı Universiteti nəşri, – 1992. – 329 s.

4. Adilov, M.İ. Azərbaycan dilində təqlidi sözlər / M.İ. Adilov. – Bakı: ADU, – 1979. – 95 s.

5. Ağasıoğlu, F. Azər xalqı (Seçmə yazılar) / F.Ağasıoğlu. – Bakı: Ağrıdağ, – 2005. – 436 s.

6. Axundov, A.A. Azərbaycan dilinin fonetikası / A.A.Axundov. – Bakı: Maarif, – 1984. – 392 s.

7. Axundov, A.A. Azərbaycan dilinin tarixi fonetikası / A.A.Axundov. –Bakı: ADU, – 1973. – 111 s.

8. Axundova, G.İ. Azərbaycan xalq tapmacalarının leksik və sintaktik xüsusiyyətləri / G.İ.Axundova. – Bakı: Elm və Təhsil, – 2014. – 191s.

9. Azərbaycan aşıqları və el sairləri: [I cild] / tərt. ed. M. Həkimov, H. Arif. – Bakı: Maarif, – 1983. – 360 s.

10. Azərbaycan dilinin orfoqrafiya lüğəti / Red. hey. sədri A.A.Axundov. – Bakı: Lider, – 2004. – 728 s.

11. Bayramova, A.İ. Leksik alınmaların dilin zənginləşməsində rolu / A.İ.Bayramova. – Bakı: ADU, – 2009. – 163 s.

12. Cəfərli, Ə. Azərbaycan dilinin Qazax dialekti: /filologiya elmləri namizədi ... dissertasiya) / – Bakı, 1961. – 153 s.

13. Cəfəroğlu, Ə. Azəri ləhcəsində bəzi monqol ünsürləri (II məqalə) // Azərbaycan dilçiliyi müntəxəbatı: [3 cilddə] – Bakı: Abis Alarco, – c. 1. – 2013. – 303 s.

14. Cəlilov, F.A. Azərbaycan dilinin morfonologiyası / F.A.Cəlilov. – Bakı: Maarif, – 1988. – 285 s.

15. Çəmənzəminli, Y.V. Qızlar bulağı / Y.V.Çəmənzəminli. – Bakı: Yazıçı, – 1987. – 112 s.

16. Çobanzadə, B.V. Seçilmiş əsərləri: [5 clddə] / B.V.Çobanzadə. – Bakı: Şərq-Qərb, – 2007. – 336 s.

17. Dəmirçizadə, Ə.M. Azərbaycan dilinin qrammatikası: [2 hissəli] / Ə.M.Dəmirçizadə. – Bakı: AEA, – h. 1. – 1951. – 468 s.

18. Dəmirçizadə, Ə.M. Müasir Azərbaycan dili (Fonetika, orfoepiya, orfoqrafiya) / Ə.M.Dəmirçizadə. – Bakı: Şərq-Qərb, – 2007. – 345 s.

19. Əfəndizadə, Ə.R. Azərbaycan dilindən düşündürücü suallar və onların izahlı cavabları / Ə.R.Əfəndizadə. – Bakı: ADPU, – 2013. – 286 s.

20. Əhmədov, B.B. Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli / B.B.Əhmədov. – Bakı: ADPU, – 1990. – 81 s.

21. Əhmədov, B.B. Azərbaycan dili şivələrində fonosemantik söz yaradıcılığı / B.B.Əhmədov. – Bakı: BDU, – 1994. – 200 s.

22. Əliyeva, E. Azərbaycan və ingilis dillərində tapmacaların linqvistik təhlili: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası/ – Naxçıvan, 2011. – 144 s.

23. Əlizadə, S.Q. Orta əsrlərdə Azərbaycan yazı dili / S.Q.Əlizadə. – Bakı: ADU, – 1985. – 85 s.

24. Əskər, R. Mahmud Kaşğari və onun "Divani-lüğat-it-türk" əsəri / R.Əskər. – Bakı: MBM, – 2008. – 432 s.

25. Hacıyev, T.İ. Azərbaycan dili tarixi / T.İ.Hacıyev, K.N.Vəliyev. – Bakı: Maarif, – 1983. – 188 s.

26. Hacıyev, T.İ. Azərbaycan ədəbi dilinin tarixi: [2 hissəli] / T.İ.Hacıyev. – Bakı: Elm, – h. 1. – 2012. – 475 s.

27. Hacıyev, T.İ. Cəbrayıl şivəsi / T.İ.Hacıyev. – Bakı: Elm, – 2018. – 403 s.

28. Hüseynli, N. Türk dillərinin genealogiyası: şumer və türk leksik paralelləri / N.Hüseynli, J.Məmmədova. – Bakı: Nağıl evi, – 2012. – 355 s.

29. Hüseynov, M. Dil və poeziya / M.Hüseynov. – Bakı: Elm, – 2008. – 433s.

30. Hüseynzadə, M.H. Müasir Azərbaycan dili. Morfologiya: [4 hissəli]: Dərslik / M.H.Hüseynzadə. – Bakı: Maarif, – h. 3. – 2007. – 321 s.

31. Xəlilov, B.Ə. Feillərin ilkin kökləri / B.Ə.Xəlilov. – Bakı: ADPU, – 1998. – 220 s.

32. Xəlilov, B.Ə. 224 qədim türk sözü / B.Ə.Xəlilov. – Bakı: Elm və təhsil, – 2010. – 350 s.

33. Xəlilov, B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası: Dərslik / B.Ə. Xəlilov. – Bakı: Nurlan, – 2007. – 280 s.

34. Xəlilov, B.Ə. Türkologiyaya giriş: Dərslik / B.Ə.Xəlilov. – Bakı: Nurlan, – 2006. – 384 s.

35. Xətai, Ş.İ. Seçilmiş əsərləri / Ş.İ.Xətai. – Bakı: Şərq-Qərb, – 2005. – 506s.

36. Xudiyev, N.M. Azərbaycan ədəbi dilinin təşəkkülü / N.M.Xudiyev. –Bakı: ADPU, – 2002. – 230 s.

37. Kaşğari, M. Divanü lüğat-it türk: [3 cilddə] / M. Kaşğari. – Bakı: Ozan, – c. 1. – 2006. – 512 s.

38. Kaşğari, M. Divanü lüğat-it türk: [3 cilddə] / M. Kaşğari. – Bakı: Ozan, – c. 3. – 2006. – 400 s.

39. Kazımoğlu, S. Türk dili: Dərslik / S.Kazımoğlu. – Bakı: Elm və təhsil, – 2007. – 242 s.

40. Kazımov, A. Azərbaycan xalq tapmacalarında "gizli" (eyhamlı) nitqin təzahürü // Filologiya məsələləri, – 2018. № 4, – s.282-285

41. Kazımov, A. Azərbaycan tapmacalarının dilində təqlidi sözlər // Filologiya məsələləri, – 2018. № 2, – s.181-186

42. Kazımov, A. Azərbaycan tapmacalarının fonetik xüsusiyyətləri (Fonetik hadisə və qanunlar üzrə) // Filologiya məsələləri, – 2017. № 18, – s.65-72

43. Kazımov, A. Tapmacaların sirri / A.S.Kazımov. – Bakı: Elm və təhsil, – 2017. – 64 s.

44. Kərimzadə, F.Ə. Bizim sorğuya cavab // – Bakı: Azərbaycan, – 1982. № 3, – s.4-5.

45. Koroğlu dastanı / tərt. ed. M.Təhmasib. – Bakı: Gənclik, – 1982. –328 s.

46. Qafarlı, R. Mifologiya: [4 cilddə] / R.Qafarlı. – Bakı: Elm və təhsil, – 2015. – 454 s.

47. Qarayev, A.H. Avropa mənşəli sözlərin izahlı lüğəti / A.H.Qarayev. –Bakı: Azərbaycan Universiteti, – 1999. – 356 s.

48. Qarayev, A.H. Müasir Azərbaycan dilində alınmalar / A. H. Qarayev.-Bakı: ADU, – 1989. – 95 s.

49. Qəhrəmanov, C.V. Nəsimi "Divanı"nın leksikası / C.V.Qəhrəmanov. –Bakı: Elm, – 1970. – 567 s.

50. Qıpçaq, M.N. "Dədə Qorqud kitabı"nın dilində əlamət və keyfiyyət bildirən sözlər / M.N.Qıpçaq. – Bakı: MBM, – 2012. – 104 s.

51. Qıpçaq, M.N. "Kitabi-Dədə Qorqud"un leksikası / M.N.Qıpçaq. – Bakı: MBM, – 2012. – 104 s.

52. Qıpçaq, M.N. Söz aləminə səyahət / M.N.Qıpçaq. – Bakı: BDU, – 2002. – 242 s.

53. Qurbanov, A.M. Cücikənd şivəsi / A.M.Qurbanov. – Bakı: Elm, – 2001. – 38 s.

54. Qurbanov, A.M. Müasir Azərbaycan dili / A.M.Qurbanov. – Bakı, Maarif, – 1985. – 248 s.

55. Məhərrəmli, B.B. Türk dillərinin qədim leksikası/ B.B.Məhərrəmli. –Bakı: Xəzər Universiteti, – 2017. – 272 s.

56. Məmmədli, N. Azərbaycan dilində alınma terminlər / N.Məmmədli. –Bakı: Elm və təhsil, – 2017. – 488 s.

57. Məmmədov, Y.Q. Orxon-Yenisey abidələrində adlar: [I hissə] / Y.Q. Məmmədov. – Bakı: ADPU, – 1979. – 268 s.

58. Mirzəzadə, H. Azərbaycan dilinin tarixi qrammatikası / H.Mirzəzadə. – Bakı: ADU, – 1990. – 374 s.

59. Mollazadə, S. Azərbaycan dilinin Qax rayon şivələri: /filologiya elmləri namizədi ... dissertasiya / – Bakı, 1966. – 140 s.

60. Paşayev, Q. Kərkük folklorunun janrları / Q.Paşayev. – Bakı: Elm, – 2003. – 320 s.

61. Pirsultanlı, S.P. Heca vəznli tapmacaların inkişafı / S.P.Pirsultanlı. –Gəncə: Agah, – 2001. – 456 s.

62. Ramazanov, K. Salyan dialekti: /filologiya elmləri namizədi ... dissertasiya / – Bakı, 1955. – 150 s.

63. Rüstəmov, R.Ə. Quba dialekti / R.Ə.Rüstəmov. – Bakı: AMEA, – 1961. – 283 s.

64. Suleymenov, O. Az-Ya / O.Suleymenov. – Bakı: Azərnəşr, – 1993. – 304 s.

65. Tanrıverdi, Ə.V. "Kitabi-Dədə Qorqud"un möcüzələr dünyası // M.A.Təkləli. Türk sözləri rus dilində. – Bakı: Nurlan, – 2010. – 303 s.

66. Tanrıverdi, Ə.V. "Kitabi-Dədə Qorqud" və Qərb ləhcəsi / Ə.V.Tanrıverdi. – Bakı: ADPU, – 2002. – 171 s.

67. Təkləli, M.A. Türk sözləri rus dilində / M.A.Təkləli. – Bakı: Nurlar, –2010. – 303s.

68. Vaqif, M.P. Əsərləri / M.P.Vaqif. – Bakı: Azərnəşr, – 1957. – 237 s.

69. Verdiyeva, Z.H. Azərbaycan dilinin semasiologiyası / Z.H.Verdiyeva, F.M.Ağayeva, M.İ.Adilov. – Bakı: Maarif, – 1979. – 302 s.

70. Vurğun, S. Seçilmiş əsərləri / S.Vurğun. – Bakı: Azərnəşr, – 1967. – 409s.

71. Altaylı, S. Azerbaycan türkçesi sözlügü: [2 cildde] / S.Altaylı. – İstanbul: – c. 1. – 1994. – 622 s.

72. Altaylı, S. Azerbaycan türkçesi sözlügü: [2 cildde] / S. Altaylı. – İstanbul: – c. 2. –1994. – 1292 s.

73. Ergin, M. Türk dil bilgisi / M. Ergin. – Sofya: – 1967. – 207s.

74. Kaşğari, M. Divani-luğat-it-türk: [4 cildde]/ M. Kaşğari. – Ankara: Türk Dil Kurum Yayınları, – 1985–1986. – 6853 s.

75. Крамer, N.S. Sümer Mitolojisi / N.S.Kramer. – İstanbul: Kabalcı Yayınevi, – 1999. – 220 s.

76. Tekin, T. Orhon Yazıtları / T.Tekin. – 4.baskı. – Ankara: Türk Dil Kurumu Yayınları, – 2010. – 232 s.

77. Адамбаева, Ж.Д. Литературно-стилистические и языковые особенности казахских загадок: / автореферат диссертации… кандидата филологических наук / – Алма-Ата, 1996. – 25 с.

78. Алимов, А. Каракалпакские народные загадки: / автореферат диссертации… кандидата филологических наук/ – Нукус, 1979. – 30 с.

79. Афанасьев, А.Н. Поэтические воззрения славян на природу / А.Н.Афанасьев. – Москва: Типография Грачева, – том 1. – 1865. – 804 с.

80. Байлыев, Х. Туркменско–русский словарь / Х.Байлыев, Б.А.Каррыев. – Ашхабад, – 1940. – 381 с.

81. Баскаков, Н.А. Классификация тюркских языков в связи с исторической периодизацией их развития и формирования // – Москва: Труды института языкознания АН СССР, – 1952. Т. 1, – с. 7-57

82. Баскаков, Н.А. Фонетические особенности хакаского языка и его диалектов / Н.А. Баскаков, А.И. Инкижекова-Грекул, // – Москва: Труды института языкознания, – 1954. Т. IV, – с. 325-377

83. Буслаев, Ф.И. Исторические очерки русской народной словесности и искусства / Ф.И.Буслаев.– Санкт-Петербург: Общественная польза – Том I, – 1861. – 662 с.

84. Василенко, В.А. Русские народные поэтическое творчество / В.А.Василенко. – Москва: Высшая школа, – 1969. – 338 с.

85. Диалектологический словарь чувашского языка / Под. ред. проф. Л.П.Сергеева. – Чебоксары: Чувашское книжное изд-во, – 1968. – 104 с.

86. Дмитриев, Н.К. Ассимиляция и диссимиляция согласных в кумыкском языке / – Москва: Исследования по сравнительной грамматике тюркских языков, – 1955.

87. Дмитриев, Н.К. Грамматика башкирского языка / Н.К.Дмитриев. – Москва-Ленинград: Изд-во АН СССР, – 1948. – 275 с.

88. Дмитриев, Н.К. Грамматика кумыкского языка / Н.К.Дмитриев. – Москва-Ленинград: Изд-во АН СССР, – 1940. – 206 с.

89. Егоров, В.Г. Этимологический словарь чувашского языка / В.Г.Егоров. – Чебоксары: Чувашское книжное изд-во, – 1964. – 355 с.

90. Зейналов, М.А. Бытовая лексика в диалектах и говорах азербайджанского языка на территории Нахичеванской АССР: / диссертация …кандидата филологических наук / – Баку, 1982. – 156 с.

91. Исхаков, Ф.Г. Характеристика отдельных гласных современных тюркских языков // Исследование по сравнительной грамматики тюркских языков. Часть 1. Фонетика, – Москва: Изд-во АН СССР, – 1955. – с. 60-114

92. Исхаков, Ф. Г. Характеристика отделъных гласных современных тюркских языков // Исследование по сравнительной грамматики тюркских языков. Часть 2, – Москва: Изд-во АН СССР, – 1956. – 125 с.

93. Калмыкова, С.А. Ногайско-русский словарь / С.А.Калмыкова, Н.А.Баскаков. – Москва: ГИИНС, – 1963. – 560 с.

94. Каракалпакско-русский словарь / Под ред. проф. Н.А.Баскаков. – Москва: Советская Энциклопедия, – 1967. – 1124 с.

95. Киргизско-русский словарь / Под ред. К.К.Юдахина. – Москва: Советская Энциклопедия, – 1969. – 518 с.

96. Кононов, А.Н. Грамматика узбекского языка / А.Н.Кононов. – Ташкент: Государственное изд-во УзССР, – 1948. – 284 с.

97. Корнилович, А.О. Сочинения и письма / А.О.Корнилович. – Москва-Ленинград: Изд-во АН СССР, – 1953.– 550 с.

98. Кумыкско-русский словарь / Под ред. З.З.Бамматова. – Москва: Советская Энциклопедия, – 1969. – 408 с.

99. Лавонен, Н.А. Карельская народная загадка / Н.А. Лавонен. – Ленинград: Наука, – 1977. – 135 с.

100. Малов, С.Е. Уйгурский язык / С.Е.Малов. – Москва-Ленинград: – 1948. – 250 с.

101. Махмудов, Х. Татарские народные загадки: / автореферат диссертации …кандидата филологических наук / – Казань, 1978. – 35 с.

102. Мередов, К. Тема труда в тюркменском народном творчестве: / автореферат диссертации …кандидата филологических наук / – Ашхабад, 1973. – 15 с.

103. Миллер, О.Ф. Опыт исторического обозрения русской словесности с хрестоматией расположенной по эпохам / О.Ф.Миллер. – Санк-Петербург: – Вып. I, ч. 1. – 1865. – 407 с.

104. Митрофанова, В.В. Современное состояние русских народных загадок / В.В.Митрофанова. – Москва: Наука, – 1990. – 326 с.

105. Митрофанова, В.В.Специфика русских народных загадок и их связь с другими жанрами фольклора // Специфика фольклорных жанров – Москва-Ленинград: Наука, – 1966. т. X, – с. 79-182.

106. Молчанова, О.Т. Структурные типы тюркских топонимов Горного Алтая / О.Т.Молчанова – Саратов: Изд-во Саратовского университета, – 1982. – 256 с.

107. Надршина, Ф.А. Афористические жанры башкирского фольклора (пословицы, загадки): / автореферат диссертации …кандидата филологических наук / – Уфа, 1971.– 42 с.

108. Пейсиков, Л.С. Лексикология современного персидского языка / Л.С.Пейсиков. – Москва: Изд-во МГУ, – 1975. – 207с.

109. Пириев, Э.Р. Персидские слова в языке «Книги моего деда Коркута» (историко-сравнителъное исследования): / автореферат диссертации …кандидата филологических наук / – Баку, 1989. – 35с.

110. Радлов, В.В. Опыт словаря тюркских наречий: / В.В. Радлов. – Санкт Петербург: Имперская академия наук, – т.1. – 1893. – 1048 с.

111. Радлов, В.В. Опыт словаря тюркских наречий: / В.В. Радлов. – Санкт Петербург: Имперская академия наук, – т.3. – 1905. – 1204 с.

112. Радлов.В.В. Опыт словаря тюркских наречий. Том 4. Часть 2 Санкт-Петербург:–1911.–428 с.

113. Русско-казахский словарь / Под ред. М.Б.Балакаева. – Алма-Ата: АН Казахской ССР, – 1946. – 546с.

114. Русско–чувашский словарь / Под. ред. Н.К.Дмитриева. – Москва: ГИИНС, – 1951. – 315 с.

115. Татарско-русский словарь / Под ред. М.Г.Мухамадиева – Москва: Советская Энциклопедия, – 1966. – 864 с.

116. Тувинско-русский словарь / Под ред. проф. Э.Р.Тенишева. – Москва: Советская Энциклопедия, – 1968. – 648 с.

117. Турецко-русский словарь / Под ред. проф. В.А.Гордлевского. – Москва: ГИИНС. – 1945. – 221с..

118. Уйгурско-руский словарь / Под. ред. Т.Р.Рахимова. – Москва: Советская Энциклопедия, – 1968. – 828 с.

119. Фасмер, М. Этимологический словарь русского языка / М. Фасмер. – Москва: Прогресс, – Т. 1, –1986. – 576 с.

120. Фасмер, М. Этимологический словарь русского языка / М. Фасмер. – Москва: Прогресс, – Т. 2, – 1986. – 672 с.

121. Фасмер, М. Этимологический словарь русского языка / М. Фасмер. – Москва: Прогресс, – Т. 3, – 1987. – 832 с.

122. Фасмер, М. Этимологический словарь русского языка / М. Фасмер. – Москва: Прогресс, – Т. 4, – 1987. – 864 с.

123. Федорова, Т.Л. Щеглова, О.А. Этимологический словарь русского языка: русский язык от А до Я / Т.Л.Федорова, О.А.Щеглова. – Москва: ЛадКом, – 2007. – 606 с.

124. Щербак, А.М. Сравнителъная фонетика тюркских языков/ А.М.Щербак.- Ленинград: Наука,-1970.-с.17

125. Ширалиев. М.Ш. Кыпчакские элементы в азербайджанском языке (на материале диалектов и говоров) // Исследования по грамматике и лексике тюркских языков, –Ташкент: Ылым, – 1965. – с. 5-17

126. Кошгарий, М. Туркий сузлар девони (Девону лугатит турк) / М.Кошгарий. – Тошкент: Узбекистон ССР, Фанлар академияси нашриёти, – т.1, – 1960. – 499 с.

127. Кошгарий, М. Туркий сузлар девони (Девону лугатит турк) / М.Кошгарий. – Тошкент: Узбекистон ССР, Фанлар академияси нашриёти, – т.2, – 1963. – 427 с.

128. Кошгарий, М. Туркий сузлар девони (Девону лугатит турк) / М.Кошгарий. – Тошкент: Узбекистон ССР, Фанлар академияси нашриёти, – т.3, – 1963. – 461 с.

129. Бонн, Ф. //https//ru.wikipedia.org/wiki//

130. Закон Гримма // https//ru.wikipedia.org/wiki//

131. Шлейхер, А. //https//ru.wikipedia.org/wiki//

## İxtisarlar


1.ADDL – Azərbaycan dilinin dialektoloji lüğəti. – Bakı: Şərq-Qərb, – 2007. – 568 s.

2.ADƏ- Azərbaycan dialektologiyasının əsasları. – Bakı: Şərq- Qərb, – 2008. – 415 s.

3.ADL - Azərbaycan dialektoloji lüğəti, I – IIc. Ic. Ankara: Türk Dil Kurumu Yayımları, – 1999. – 374 s.

4.ADİL – Axundov, A. Azərbaycan dilinin izahlı lüğəti. (Bircildlik), – Bakı: Elm – 2005. – 452 s.

5.ADQEL – Əhmədov, B. Azərbaycan dilinin qısa etimoloji lüğəti. – Bakı: Mütərcim, – 1999. – 376 s.

6.ADTD- Əzizov, E. Azərbaycan dilinin tarixi dialektologiyası, – Bakı: Elm və təhsil, – 2016. – 347 s.

7.AKƏK-3. Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası [20 cilddə], XIII-XVI əsrlər şeiri (Üçüncü cild), – Bakı: Elm, – 1984. – 524 s.

AKƏK-3,(Ş.G,25)- Şeyx İbrahim Gülşənu - XIII-XVI əsrlər şeiri, – Bakı: Elm, – 1983. – 524 s.

AKƏK-3,(QB,17)- Qazi Bürhanəddin - XIII- XVI əsrlər şeiri, – Bakı: Elm, – 1983. – 524 s.

AKƏK-3, (Y.M, 31)- Məddah Yusif. XIII-XVI əsrlər şeiri, – Bakı: Elm, – 1983. – s.5

AKƏK-3(Xətai,12)- XIII-XVI əsrlər şeiri, – Bakı: Elm, – 1983. – 524 s.

AKƏK-3,( Kişvəri,16)-KƏ-XIII-XVI əsrlər şeiri, – Bakı: Elm , – 1983. – 524 s.

8.ATS – Altaylı, S. Azərbaycan türkçəsi sözlüğü. Ic. (A-Heman). – İstanbul, – 1994, – 622s.

9.DLT – Kaşğari, M. Divanü lüğət-it-türk (Tərcümə edən və nəşrə hazırlayan R. Əskər). I-IVc. -Bakı: Ozan, – 2006, I c; – 512s; II c; 400 s; III c; – 400 s;IV c; – 752s.

10.DLTT- Kaşgari , M. Divanü Luğat-it Türk. Tercümesi. I-IV c( Çeviren, B. Atalay). – Ankara: Türk Dil Kurumu Yayınları, I c., – 1985. – 530 s.; II c., – 1985,

– 366 s., III c., – 1986, – 452 s., IV c., – 1986., – 885 s.

11.EL – Əhmədov, B. Etimoloji lüğəti (araşdırmalar, mülahizələr). – Bakı: Altunn kitab, – 2015, – 288 s.

12.ƏD- Adilov, M. Əyləncəli dilçilik, – Bakı: Elm və təhsil, – 2014, – 324 s.

13.ƏH- Əl-Əndəlusi Əsirəddin Əbu Həyyan. Kitab əl-idrak li- lisan əl-ətrak (Tərcüməçi Z. Bünyadov). – Bakı: Azərnəşr, – 1992, – 115 s.

14.ƏFSL – Ərəb və fars sözləri lüğəti. – Bakı: Yazıçı, – 1985, – 1037 s.

15.ƏK- Əsli - Kərəm dastanı, – Bakı: Səda, – 2007, – 208 s.

16.FB- Fədai. Bəxtiyarnamə (Tərtibçi Q. Məmmədlidir),- Bakı: Azərnəşr, – 1957, – 357 s.

17.FDAS – Zərinəzadə, H. Fars dilində Azərbaycan sözləri, – Bakı: Maarif, – 1962, – 435 s.

18.Füz.- Füzuli,M. Seçilmiş əsərləri, – Bakı: Azərnəşr, – 1958, – 337 s.

19.H.Z – Zeynallı, H. Azərbaycan tapmacaları. – Bakı: Elm və təhsil, – 2013, – 102 s.

20.Heyran- Heyran xanım. Seçilmiş əsərləri, -Bakı: Şərq-Qərb, -2006, -232 s.

21.Xətai- Şah İsmayıl Xətai. Seçilmiş şeirlər, -Bakı:-1964, -229 s.

22. İM- Seyid Əhməd Cəmaləddin İbn Mühənna. "Hilyətül-insan və həlbətül –lisan" lüğəti( T. Hacıyevin tərcüməsi) , – Bakı: Elm , – 2008, – 127 s.

22.KAƏFSL-Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. [II clddə], I cild, – Bakı: Şərq-Qərb, – 2005, – 354 s.

23.KDQ – Kitabi–Dədə Qorqud. – Bakı: Gənclik, – 1967, – 265 s.

24.KDQİL – "Kitabi-Dədə Qorqud"un izahlı lüğəti. – Bakı: Elm, – 1999, – 203s.

25. Qövsi,T-Təbrizi Q. Seçilmiş əsərləri, – Bakı: Lider, – 2005, – 328 s.

26.QTl- Qədim türk lüğəti. – Leninqrad: Nauka, – 1969, – 676 s.

27.QY- Qul Əli. Qisseyi- Yusif. – Bakı: Şərq- Qərb, – 2005, – 216 s.

28.MD- Məsihinin Divan"ı, – Bakı: Şərq- Qərb, – 2005, – 336 s.

29. M.S- Şəhriyar, M. (Tərtib edən Ə.Səfərlidir), – Bakı: Şərq-Qərb, – 2006, – 305 s.

30.Nəb.- Nəbati, S. Ə. Seçilmiş əsərləri, – Bakı: Sərq-Qərb, – 2004, – 216 s.

31..N.S – Seyidov, N. Tapmacalar, – Bakı: Şərq-Qərb, – 2004, – 208 s.

32. Saib.- Təbrizi, S. Seçilmiş əsərləri, – Bakı: Öndər, – 2004, – 256 s.

33.SH- Sabir, M. Ə. Hophopnamə, – Bakı: – 1954, – 52

34.S.V- Səməd Vurğun. Seçilmiş əsərləri. [3 cilddə], – Bakı: Azərnəşr , – 1955, – 400 s.

35.VƏ- Vaqif, M.P. Seçilmiş əsərləri, – Bakı: – 1957, – 237 s.

36.V.X – Xuluflu, V. Tapmacalar, Azərbaycanı öyrənən cəmiyyətin nəşriyyatı,– Bakı: – 1928, – 130 s.

37.DTC – Древнетюркский словаръ. – Ленинград: Наука, – 1969, – 676 с .

38.ОСТН- Радлов, В. В. Опыт словаря тюркских наречий. Т. I-II.СПб .: Типография Императорской Академии Наукъ Т.I, – 1893, – 1914 с.; Т.II, – 1899, – 1814 с.

39.ЭСТЯ-I- Этимологический словаръ тюркский языков (Общетюркские и межтюркские основы на гласные). – Москва: Наука, – 1974, – 777 с.